RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 250 (9129) CÜMƏ AXŞAMI, 17 noyabr 2022-ci il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az





# Azərbaycan-Albaniya münasibətlərində yeni mərhələ başlayır

## Prezident İlham Əliyevin bu ölkəyə dövlət səfəri əlaqələrin inkişafına güclü təkan verdi

Dünyanın siyasi arenasında yerini və çəkisini möhkəmləndirən Azərbaycan beynəlxalq münasibətlərini inkişaf etdirməkdədir. Tam müstəqil xarici siyasət həyata keçirən Prezident İlham Əliyevin uğurlu diplomatiyası ilə Azərbaycan əksər dövlətlərin Cənubi Qafqaz regionundakı ən etibarlı tərəfdaşına çevrilib. Azərbaycanın bir çox dövlətlərlə strateji tərəfdaşlq, səmimi dostluq-qardaşlıq münasibətləri də mövcuddur.

Azərbaycan həmçinin Mərkəzi və Şərqi Avropa ölkələri ilə fəal əməkdaşlıq edir. Onlardan biri də Albaniyadır. Bu ölkə ilə ikitərəfli və çoxtərəfli əməkdaşlığın inkişafı Azərbaycanın xarici siyasətinin vacib istiqamətlərindən biridir.

Prezident İlham Əliyevin noyabrın 15-də Albaniyaya ilk səfəri isə Albaniya-Azərbaycan əlaqələrinin inkişafına güclü təkan verərək gələcək yaxın əməkdaşlıq üçün çox əlverişli imkanlar yaratmış oldu.

Səfərin məqsədi ölkələrimiz arasında yüksək səviyyədə olan əlaqələrin daha da inkişafına və qarşılıqlı maraq doğuran sahələrdə əməkdaşlığın gücləndirilməsinə töhfə vermək idi. Elə Albaniya Prezidenti Bayram Beqay və Baş nazir Edi Rama ilə keçirilən görüşlərdə müzakirə edilən məsələlər münasibətlərin daha da gücləndirilməsinə müsbət impuls vermiş oldu.

### Diplomatik münasibətlər, reallaşdırılan birgə layihələr

İki ölkə arasında diplomatik münasibətlər 23 sentyabr 1993-cü ildə qurulub. Bu münasibətlərin 30-cu ildönümü ilə əlaqədar gələn il Albaniyada "Azərbaycan həftəsi"nin təşkil olunması planlaşdırılır.

→ 6

# Antoni Blinken İlham Əliyevə zəng edib





Noyabrın 16-da ABŞ dövlət katibi Antoni Blinken Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə zəng edib.

ABŞ dövlət katibi bu il noyabrın 7-də Vaşinqtonda Azərbaycan və Ermənistan xarici işlər nazirlərinin sülh müqaviləsi üzrə növbəti danışıqlarının keçirildiyini və ABŞ-nin Azərbaycan ilə Ermənistan arasında münasibətlərin normallaşdırılması prosesinə töhfə vermək əzmində olduğunu bir daha vurğulayıb.

Prezident İlham Əliyev dövlət katibi Antoni Blinkenin Azərbaycan ilə Ermənistan arasında münasibətlərin normallaşdırılması prosesini daim diqqətdə saxlamasının və ABŞ-nin bu istiqamətdə göstərdiyi səylərinin yüksək qiymətləndirildiyini diqqətə çatdırıb. Bununla belə, dövlətimizin başçısı qeyd edib ki, bu istiqamətdə göstərilən səylərə və aparılan danışıqlara baxmayaraq, Ermənistan rəhbərliyi tərəfindən son günlərdə səsləndirilən ziddiyyətli bəyanatlar iki ölkə arasında münasibətlərin normallaşmasına və sülh gündəliyinin irəli aparılmasına mənfi təsir göstərir.

Antoni Blinken Ermənistan ilə Azərbaycan arasında münasibətlərin normallaşdırılması və sülh müqaviləsinin imzalanması üçün tarixi imkanın olduğunu qeyd edərək ABŞ-nin bu istiqamətdə səylərini davam etdirəcəyini bildirib.

Telefon danışığı əsnasında Ermənistan ilə Azərbaycan arasında sülh müqaviləsi üzrə növbəti görüşün keçirilməsi və etimad quruculuğu tədbirlərinə dair fikir mübadiləsi aparılıb.

*Prezidentin Mətbuat Xidməti*



## Prezident İlham Əliyev "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük qayıdışa dair I Dövlət Proqramı"nı təsdiq etdi

→ 2

◆ 17 Noyabr Milli Dirçəliş Günüdür

## Heydər Əliyevin ucaltdığı bayraq

İndi Qarabağ və Şərqi Zəngəzurda zəfər rəmzi kimi dalğalanır



→ 7

# Azərbaycan Fransaya nota verib

Noyabrın 16-da Fransanın Azərbaycan Respublikasındakı müvəqqəti işlər vəkili Jülyen Lö Lan Xarici İşlər Nazirliyinə (XİN) çağırılaraq, noyabrın 15-də Fransa Senatında Azərbaycan əleyhinə qəbul edilmiş qətnamə ilə bağlı XİN-in etiraz notası təqdim edilib.

Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildiriblər ki, görüş zamanı Fransa Senatında qəbul edilmiş tamamilə həqiqətdən uzaq, yalan və iftiradolu müddəaların əks olunduğu qətnamənin Azərbaycan tərəfindən qətiyyətlə rədd edildiyi diqqətə çatdırılıb.

Qətnamənin açıq təxribat xarakteri daşıdığı və sülh prosesinə öz töhfəsini vermək iddiasında olan Fransanın növbəti dəfə ermənipərəst, qərəzli və birtərəfli mövqeyini bariz şəkildə nümayiş etdirdiyi bildirilib.

→ 2

# Azərbaycana qarşı bədxah və çirkin niyyətli siyasi aksiya

## Milli Məclis Fransa Senatının qərəzli, ermənipərəst sənədinə qarşı bəyanat qəbul etdi

**Noyabrın 16-da Milli Məclisin spikeri Sahibə Qafarovanın sədrliyi ilə parlamentin payız sessiyasında növbəti plenar iclası keçirilib. İclasda Baş nazir Əli Əsədov və hökumət üzvləri iştirak ediblər.**

Əvvəlcə, iclasda cari məsələlərlə bağlı müzakirələr aparılıb. Komitə sədrləri Zahid Oruc, Ziyafət Əsgərov, deputatlardan Kamran Bayramov, Tural Gəncəliyev, Hikmət Məmmədov, Cavanşir Feyziyev, Vahid Əhmədov, Elnur Allahverdiyev, Ramin Məmmədov, Fəzail Ağamalı, Ceyhun Məmmədov, Elşən Musayev çıxışlarında noyabrın 15-də Fransa Senatında Azərbaycan əleyhinə qəbul edilmiş qətnaməyə münasibət bildiriblər. Çıxış edənlər qətnaməyə etirazlarını bildirərək, sənədin həqiqətə uyğun olmadığını, Fransa Senatının ölkəmizə qarşı qərəzli və ədalətsiz mövqeyini nümayiş etdirdiyini söyləyiblər. Qeyd edilib ki, qətnamədə iki ölkə arasında ikitərəfli münasibətlərə xələl gətirən məqamlar, Azərbaycana qarşı sanksiyaların tətbiqi, qaz və neft tədarükünə embarqonun qoyulması ilə bağlı çağırışlar yer alıb. Bu qətnamənin son iki ildə Fransa parlamentinin Azərbaycana qarşı qəbul etdiyi sayca üçüncü sənəd olduğunu deyən deputatlar Fransanın ölkəmizə qarşı addımlarının məqsədli xarakter daşıdığını, bu ölkənin öz tarixində onlarla dövləti işğal etmiş və öz müstəmləkəsinə çevirmiş bir ölkə olduğunu, qətnamənin heç bir hüquqi qüvvəsi olmadığını və orada qeyd olunanların kağız üzərində qalacağını söyləyiblər.

→ 3

# Fransanın riyakarlığı

## Bu ölkə Azərbaycanla Ermənistan arasında münasibətlərin normallaşdırılması prosesində vasitəçi ola bilməz

Fransa Senatının ötən gün qəbul etdiyi qətnamə layihəsi milli dözümsüzlük, irqçilik, eləcə də ölkədə geniş vüsət almış türkofobiya və islamofobiyanın təzahürüdür. Həmin qətnamə tamamilə qərəzlidir. Qətnamədə Fransanın və digər Avropa İttifaqı ölkələrinin "Azərbaycandan idxal edilən qaz və neftə embarqo tətbiq etmək" çağırışının yer alması, ölkəmizin beynəlxalq cinayət məhkəməsi ilə təhdid edilməsi qəbuledilməzdir. Fransa Ermənistanın Azərbaycanda törətdiyi müharibə cinayətlərinə səssiz qalmamalı, bölgədə gərginliyi artırmaq və sülhə mane olmaq cəhdlərinə birdəfəlik son qoymalıdır.

→ 9

## "Mülki və ya ticarət işləri üzrə məhkəmə və qeyri-məhkəmə sənədlərinin xaricdə təqdim edilməsi haqqında" Konvensiyanın təsdiq edilməsi barədə

### Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 95-ci maddəsinin I hissəsinin 4-cü bəndini rəhbər tutaraq **qərara alır:**

"Mülki və ya ticarət işləri üzrə məhkəmə və qeyri-məhkəmə sənədlərinin xaricdə təqdim edilməsi haqqında" 1965-ci il noyabrın 15-də Haaqa şəhərində imzalanmış Konvensiya Azərbaycan Respublikasının müvafiq bəyanatları ilə təsdiq edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 30 sentyabr 2022-ci il*

## Sumqayıt Dövlət Universiteti əməkdaşlarının"Tərəqqi" medalı ilə təltif edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Sumqayıt Dövlət Universitetinin 60 illiyi münasibətilə və Azərbaycanda təhsilin inkişafında xidmətlərinə görə Sumqayıt Dövlət Universitetinin aşağıdakı əməkdaşları "Tərəqqi" medalı ilə təltif edilsinlər:

Xəlilov Elmar Şirinbala oğlu
İsayev Əmirxan İsmayıl oğlu
Mahmudova Lalə Fəqail qızı
Məhərrəmova Sona Səbəddin qızı
Məmmədov Ceyhun Həsən oğlu.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 16 noyabr 2022-ci il*

## Sumqayıt Dövlət Universitetinin əməkdaşlarına "Əməkdar müəllim" fəxri adının verilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Sumqayıt Dövlət Universitetinin 60 illiyi münasibətilə və Azərbaycanda təhsilin inkişafında xidmətlərinə görə Sumqayıt Dövlət Universitetinin aşağıdakı əməkdaşlarına "Əməkdar müəllim" fəxri adı verilsin:

Feyziyev Fikrət Güləli oğlu
Zərbəliyev Məhəmmədəli Məzahir oğlu.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 16 noyabr 2022-ci il*

## Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 6 iyun tarixli 119 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi haqqında Əsasnamə"də dəyişiklik edilməsi barədə

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 6 iyun tarixli 119 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018, № 6, maddə 1209, № 10, maddə 2002; 2019; № 5, maddələr 822, 825, № 10, maddə 1588, № 12, maddə 1929; 2020, № 7, maddə 892; Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 8 sentyabr tarixli 1841 nömrəli Fərmanı) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi haqqında Əsasnamə"nin 5.6.13-cü yarımbəndinin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz olunsun və aşağıdakı məzmunda 5.6.14-cü yarımbənd əlavə edilsin:

"5.6.14. dövlət büdcəsindən ayrılan vəsaitin, büdcədənkənar vəsaitin, habelə Nazirliyin strukturuna daxil olmayan tabeliyindəki qurumlar tərəfindən işlər görülməsindən və xidmətlər göstərilməsindən əldə edilən vəsaitin (o cümlədən tutulan xidmət haqlarının) sərəncamçısı olaraq, maliyyə vəsaitini bölüşdürür, ayrılmış vəsaitin həddi nəzərə alınmaqla, Nazirliyin struktur bölmələrinin, strukturuna daxil olan qurumların və strukturuna daxil olmayan tabeliyindəki qurumların işçilərinin vəzifə maaşlarına əlavələrin, maddi yardım və mükafatların verilməsini təmin edir.".

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 16 noyabr 2022-ci il*

## "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük qayıdışa dair I Dövlət Proqramı"nın təsdiq edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikasının beynəlxalq səviyyədə tanınmış ərazilərinin 20 faizi 30 ilə yaxın müddətdə Ermənistan Respublikası tərəfindən işğal altında saxlanılmışdır. İşğal dövründə bu ərazilərdə Azərbaycanın şəhərləri və digər yaşayış məntəqələri, o cümlədən infrastruktur obyektləri tamamilə dağıdılmış, milli-mədəni irsimiz məhv edilmiş, təbii sərvətlərimiz talan edilmiş, iqtisadiyyata əhəmiyyətli zərər vurulmuş, 1 milyondan artıq azərbaycanlı qaçqın və məcburi köçkün vəziyyətinə düşmüşdür.

2020-ci il sentyabrın 27-də Ermənistanın növbəti hərbi təxribatına cavab olaraq Azərbaycan Ordusu əks-həmlə əməliyyatına başlamış və 44 gün davam edən Vətən müharibəsi nəticəsində torpaqlarımız işğaldan azad olunmuş, ölkəmizin ərazi bütövlüyü bərpa edilmişdir.

Azərbaycan Respublikası öz torpaqlarını azad etməklə tarixi inkişafının irimiqyaslı bərpa-quruculuq layihələri ilə səciyyələnən, dayanıqlı sülhə, tərəqqiyə əsaslanan və bir çox ölkələr üçün nümunə olan yeni mərhələsinə qədəm qoymuşdur. Vətən müharibəsindən ötən müddət ərzində işğaldan azad olunmuş ərazilərin minalardan və partlamamış hərbi sursatdan təmizlənməsi, müasir yaşayış, istehsal və xidmət infrastrukturunun qurulması, iqtisadi fəaliyyətin, o cümlədən nəqliyyat-kommunikasiya xətlərinin bərpası, xüsusilə Zəngəzur dəhlizinin açılması istiqamətində mühüm işlər görülmüşdür.

Həyata keçirilən məqsədyönlü və genişmiqyaslı layihələr Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının sürətlə dirçəlməsinə, əhalinin dayanıqlı məskunlaşmasına və davamlı iqtisadi aktivliyinin təmin olunmasına xidmət edir, habelə həmin ərazilərin yüksək inkişaf etmiş regiona çevrilməsi üçün sağlam bünövrə yaradır.

İşğaldan azad edilmiş ərazilərə Böyük qayıdış Azərbaycanın 2030-cu ilədək beş milli prioritetindən biri kimi müəyyən olunmuşdur. Bu milli prioritetlərə əsaslanan "Azərbaycan Respublikasının 2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası" yeni inkişaf mərhələsindəki hədəflərə çatmağa xidmət edən mühüm sənəddir.

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 3-cü bəndini rəhbər tutaraq, Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 22 iyul tarixli 3378 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının 2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası"nın icrasını təmin etmək məqsədilə qərara alıram:

1. "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük qayıdışa dair I Dövlət Proqramı" təsdiq edilsin *(əlavə olunur).*

2. Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərində məsələlərin mərkəzləşdirilmiş qaydada həlli ilə bağlı Əlaqələndirmə Qərargahı bu Sərəncamın 1-ci hissəsi ilə təsdiq edilən "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük qayıdışa dair I Dövlət Proqramı"nın (bundan sonra - Dövlət Proqramı) səmərəli icrasının təmin edilməsi məqsədilə zəruri əlaqələndirmə tədbirləri görsün.

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

3.1. Dövlət Proqramında nəzərdə tutulmuş tədbirlərin icrasına nəzarəti və hesabatlılığı həyata keçirsin;

3.2. Dövlət Proqramının həyata keçirilməsi ilə bağlı görülən işlər, o cümlədən Dövlət Proqramında nəzərdə tutulmuş tədbirlərin icra vəziyyəti barədə ildə iki dəfə Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

3.3. bu Sərəncamdan irəli gələn digər məsələləri həll etsin.

4. Dövlət Proqramında nəzərdə tutulmuş tədbirlərin icrasının monitorinqini və qiymətləndirilməsini, Azərbaycan Respublikası Nazirlər Kabinetinin sifarişi əsasında İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzi həyata keçirsin.

5. Dövlət Proqramında nəzərdə tutulmuş tədbirlərin maliyyələşdirilməsi məqsədilə Azərbaycan Respublikasının Maliyyə Nazirliyi və Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi hər il müvafiq olaraq dövlət büdcəsinin və dövlət investisiya proqramlarının tərtibi prosesində maliyyə vəsaitinin nəzərdə tutulması üçün zəruri tədbirlər görsünlər.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 16 noyabr 2022-ci il*

## Azərbaycan Respublikası Prezidentinin 1999-cu il 15 aprel tarixli 134 saylı Sərəncamı ilə təsdiq olunmuş "Azərbaycan Respublikası Dövlət Təhlükəsizliyi Xidmətinin Heydər Əliyev adına Akademiyasının Nizamnaməsi"ndə dəyişiklik edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikası Prezidentinin 1999-cu il 15 aprel tarixli 134 saylı Sərəncamı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1999, № 4, maddə 253; 2005, № 4, maddə 299; 2008, № 6, maddə 496; 2011, № 7, maddə 655; 2013, № 6, maddə 684; 2017, № 5, maddə 886, № 11, maddə 2071; 2019, № 3, maddələr 442, 448; 2021, № 2, maddə 155) ilə təsdiq edilmiş "Azərbaycan Respublikası Dövlət Təhlükəsizliyi Xidmətinin Heydər Əliyev adına Akademiyasının Nizamnaməsi"ndə aşağıdakı dəyişikliklər edilsin:

1. 1.2-ci bənddə "təhsilin əyani (gündüz) və qiyabi forması" sözləri "ali təhsil proqramları" sözləri ilə əvəz edilsin.

2. 3.3-cü bəndin "e" yarımbəndindən "və elmi-pedaqoji" sözləri çıxarılsın.

3. 4.6-cı bəndin "d" yarımbəndinə "buraxılışı" sözündən sonra ", dissertantların təhkim olunması" sözləri əlavə edilsin.

4. 4.11-ci bənd üzrə:

4.1. "d" yarımbəndində "imtahanlarının" sözü "attestasiyasının" sözü ilə, "İmtahan Komissiyasının" sözləri "Attestasiya Komissiyasının, ixtisaslaşdırılmış şuraların" sözləri ilə əvəz edilsin;

4.2. "ə" yarımbəndində "müəyyən olunmuş qaydada "professor", "dosent", "baş elmi işçi" və başqa" sözləri "Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 11 iyun tarixli 728 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Elmi adlar verilməsi qaydası haqqında Əsasnamə"yə uyğun olaraq" sözləri ilə əvəz edilsin;

4.3. "g" yarımbəndi aşağıdakı redaksiyada verilsin:

"g) dissertasiya mövzularını müəyyən edir, adyunktların və dissertantların fərdi iş planlarını təsdiq edir, müraciət etmiş şəxslər sırasından adyunkturaya qəbul və dissertant kimi təhkim olunma üçün namizədləri, habelə yaradıcılıq məzuniyyətlərinin verilməsi üçün namizədləri tövsiyə edir;".

5. 5.2-ci bəndə "nizamnamələri," sözündən sonra "Azərbaycan Respublikasının Əmək Məcəlləsi," sözləri, "normativ" sözündən sonra "hüquqi" sözü əlavə edilsin.

6. 5.7-ci bənd üzrə:

6.1. birinci abzasa "nizamnamələrində," sözündən sonra "Azərbaycan Respublikasının Əmək Məcəlləsində və" sözləri, "normativ" sözündən sonra "hüquqi" sözü əlavə edilsin;

6.2. ikinci abzasda "Respublika qanunvericiliyinə" sözləri "Azərbaycan Respublikası Prezidentinin 1999-cu il 14 may tarixli 130 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının fəxri adları haqqında Əsasnamə"yə və digər normativ-hüquqi aktlara" sözləri ilə əvəz edilsin.

7. 5.13-cü bənd aşağıdakı redaksiyada verilsin:

"5.13. Akademiyada magistr dissertasiyalarının müdafiəsinin təşkili üçün ixtisaslaşdırılmış şuralar, habelə fəlsəfə doktoru və elmlər doktoru dissertasiyalarının müdafiəsinin təşkili üçün dissertasiya şuraları yaradılır.".

8. 6.1-ci bənd aşağıdakı redaksiyada verilsin:

"6.1. Akademiyanın dəyişən heyəti Akademiyada təhsil alan kursantlar, dinləyicilər, adyunktlar və dissertantlardır.".

9. 6.2-ci bənd üzrə:

9.1. birinci abzas aşağıdakı redaksiyada verilsin:

"Kursantlar - Akademiyada ali təhsilin bakalavriat səviyyəsində təhsil alan, zabit hərbi rütbəsi olmayan hərbi qulluqçulardır.";

9.2. ikinci abzasa "əlavə təhsil" sözlərindən əvvəl "ali təhsilin magistratura səviyyəsinə qəbul olunmuş, həmçinin" sözləri əlavə edilsin;

9.3. aşağıdakı məzmunda dördüncü abzas əlavə edilsin:

"Dissertantlar - Akademiyada müstəqil surətdə dissertasiya işini yerinə yetirən hərbi qulluqçular və mülki şəxslərdir.".

10. 6.9-cu bənd üzrə:

10.1. ikinci abzas aşağıdakı redaksiyada verilsin:

"Akademiyada ali təhsilin bakalavriat və magistratura səviyyələrinə qəbul, biliyin qiymətləndirilməsi üzrə keçirilən imtahanlarda abituriyentlərin və bakalavrların əldə etdikləri nəticələrə əsasən, Azərbaycan Respublikasının Dövlət İmtahan Mərkəzi tərəfindən həyata keçirilir. Akademiyada adyunkturaya qəbul Azərbaycan Respublikası Nazirlər Kabinetinin müəyyən etdiyi qaydada həyata keçirilir.";

10.2. üçüncü abzas aşağıdakı redaksiyada verilsin:

"Abituriyentlərin Akademiyaya ali təhsilin bakalavriat səviyyəsinə kursant qismində qəbul edilməsi Akademiya rəisinin, dinləyicilərin və adyunktların qəbul edilməsi (dissertantların təhkim olunması) isə Azərbaycan Respublikasının Dövlət Təhlükəsizliyi Xidməti rəisinin əmri ilə həyata keçirilir.";

10.3. aşağıdakı məzmunda dördüncü abzas əlavə edilsin:

"Müddətli həqiqi hərbi xidmət keçməyən şəxslər sırasından Akademiyaya qəbul edilmiş kursantlara "əsgər" hərbi rütbəsi verilir. Akademiyaya qəbul edilən hərbi qulluqçular, qəbulla eyni vaxtda həqiqi hərbi xidmətə daxil edilən abituriyentlər, habelə bakalavrlar sırasından Akademiyaya qəbul edilənədək həqiqi hərbi xidmət keçmiş və hərbi rütbə almış hərbi vəzifəlilər üçün həmin hərbi rütbələr saxlanılır.".

11. 6.17-ci bənd aşağıdakı redaksiyada verilsin:

"Ali təhsilin bakalavriat və magistratura səviyyələrinin təhsil proqramlarını mənimsəmiş, dövlət attestasiyasından müvəffəq qiymət almış kursantlara və dinləyicilərə müvafiq olaraq "bakalavr" ali peşə-ixtisas və "magistr" ali elmi-ixtisas dərəcələri verilir, "Təhsil haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq "Təhsil Mərkəzləşdirilmiş İnformasiya Sistemi"ndə elektron sənəd formasında yaradılan təhsil haqqında dövlət sənədi - diplom və döş nişanı təqdim edilir.

Akademiyanın ali təhsilin bakalavriat və magistratura səviyyələrini bitirmiş, zabit hərbi rütbəsi olmayan məzunlarına Azərbaycan Respublikasının Dövlət Təhlükəsizliyi Xidməti rəisinin əmri ilə "leytenant" ilk zabit hərbi rütbəsi verilir.".

12. 6.18-ci bəndin birinci cümləsində "Dövlət İmtahan Komissiyasının qərarı ilə fərqlənmə diplomu alan" sözləri "Akademiyada ali təhsil pilləsinin bakalavriat və magistratura səviyyələrini fərqlənmə diplomu ilə bitirən" sözləri ilə, "daxil" sözü "qəbul" sözü ilə əvəz edilsin.

13. Aşağıdakı məzmunda 6.19-cu və 6.20-ci bəndlər əlavə edilsin:

"6.19. Adyunkturada və ya dissertantlıq yolu ilə təhsilini başa çatdırmış və müvafiq elmi dərəcə almış hərbi qulluqçulara və mülki şəxslərə elmi dərəcəni təsdiq edən vahid formalı dövlət sənədi - diplom verilir.

6.20. Əlavə təhsilin hər hansı istiqaməti üzrə təhsil alaraq müvafiq təhsil proqramlarını mənimsəmiş və imtahanlardan müvəffəq qiymət almış hərbi qulluqçulara "Təhsil haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq müvafiq sənəd verilir.".

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 16 noyabr 2022-ci il*

## "Uşaqlara görə alimentin tutulması və ailənin saxlanılmasının digər formalarının beynəlxalq qaydası haqqında" Konvensiyanın təsdiq edilməsi barədə

### Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 95-ci maddəsinin I hissəsinin 4-cü bəndini rəhbər tutaraq **qərara alır:**

"Uşaqlara görə alimentin tutulması və ailənin saxlanılmasının digər formalarının beynəlxalq qaydası haqqında" 2007-ci il noyabrın 23-də Haaqa şəhərində imzalanmış Konvensiya Azərbaycan Respublikasının müvafiq bəyanatları və qeyd-şərtləri ilə təsdiq edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 30 sentyabr 2022-ci il*

## Ə.T.Əmiraslanovun 1-ci dərəcəli "Vətənə xidmətə görə" ordeni ilə təltif edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikasının ictimai-siyasi həyatında uzunmüddətli səmərəli fəaliyyətinə görə Əhliman Tapdıq oğlu Əmiraslanov 1-ci dərəcəli "Vətənə xidmətə görə" ordeni ilə təltif edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 16 noyabr 2022-ci il*

## Azərbaycan Respublikası Kino Agentliyinin fəaliyyətinin təmin edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, "Azərbaycan Respublikasının Kino Agentliyi" publik hüquqi şəxsin yaradılması haqqında" Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 20 aprel tarixli 1667 nömrəli Fərmanının icrası ilə əlaqədar **qərara alıram:**

1. "Azərbaycan Respublikası Kino Agentliyinin Nizamnaməsi" təsdiq edilsin *(əlavə olunur).*

2. Müəyyən edilsin ki, Azərbaycan Respublikası Kino Agentliyinin (bundan sonra - Agentlik) nizamnamə fondu 100000 (bir yüz min) manat təşkil edir və dövlət büdcəsinin vəsaiti hesabına formalaşır.

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Fərmandan irəli gələn məsələləri həll etsin.

4. Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi:

4.1. Agentlik dövlət qeydiyyatına alındıqdan sonra Agentliyin strukturunu, əməyin ödənişi fondunu, işçilərinin say həddini və onların əməkhaqlarının (vəzifə maaşının, vəzifə maaşına əlavələrin, mükafatların və digər ödənişlərin) məbləğini bir ay müddətində təsdiq etsin;

4.2. bu Fərmandan irəli gələn digər məsələləri həll etsin.

5. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Fərmanın 2-ci hissəsində nəzərdə tutulan maliyyələşməni təmin etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 16 noyabr 2022-ci il*

*Fərmana edilmiş əlavə ilə www.azerbaijan-news.az saytında tanış ola bilərsiniz.*

# Azərbaycan Fransaya nota verib

*Əvvəli 1-ci səh.*

Fransanın bu addımının regionda sülhün bərqərar olmasına, xüsusilə də ölkəmizin israrlı olduğu Azərbaycanla Ermənistan arasında münasibətlərin bir-birinin suverenliyi, ərazi bütövlüyü və sərhədlərinin toxunulmazlığının qarşılıqlı tanınması və hörmət edilməsi əsasında normallaşmasına ciddi zərbə vurmaq məqsədi daşıdığı, bölgədə sülhə qarşı olan revanşist qüvvələri həvəsləndirdiyi vurğulanıb.

Sözügedən qətnamənin beynəlxalq hüququn norma və prinsiplərini kobud şəkildə pozması ilə yanaşı, Azərbaycan Respublikası ilə Fransa Respublikası arasında "Dostluq, qarşılıqlı anlaşma və əməkdaşlıq haqqında müqavilə"nin (1993) xüsusilə 2-ci maddəsinin 3-cü bəndi çərçivəsində öhdəliklərə tamamilə zidd olduğu qeyd edilib.

Azərbaycan tərəfi görüşdə Fransa tərəfindən bir daha Azərbaycanın beynəlxalq hüquqla qorunan suverenliyi və ərazi bütövlüyünə qarşı yönələn, onun daxili işlərinə müdaxilə olan addım və bəyanatlardan çəkinməsini təkidlə tələb edib.

Fransanın müvəqqəti işlər vəkili Azərbaycan tərəfinin müraciətini aidiyyəti üzrə çatdıracağını bildirib.

## Milli Məclisin iclasında

# Azərbaycana qarşı bədxah və çirkin niyyətli siyasi aksiya

## Milli Məclis Fransa Senatının qərəzli, ermənipərəst sənədinə qarşı bəyanat qəbul etdi





*Əvvəli 1-ci səh.*

Qeyd edilib ki, sənəd beynəlxalq hüququn norma və prinsiplərini, habelə Azərbaycanla Fransa arasında ikitərəfli münasibətləri kobudcasına pozur. Azərbaycanın regionda daimi sülhün və sabitliyin bərqərar olması üçün çalışdığı vurğulanıb, Fransa Senatının bu cür addımlarının isə Azərbaycanla Ermənistan arasında postmünaqişə dövründə davam edən normallaşma prosesinə xələl gətirdiyi qeyd olunub.

Deputatlar Azərbaycan-İran münasibətləri barədə də fikirlərini bildiriblər.

Sonra gündəlikdəki qanun layihələrinin müzakirəsi başlayıb. Milli Məclisin Sədri Sahibə Qafarova bildirib ki, gündəliyin 16 məsələsi dövlət büdcəsi və büdcə zərfinə daxil olan qanun layihələridir. Bu qanun layihələri birinci oxunuşda müzakirə olunacaq. Gündəliyin birinci məsələsi "Azərbaycan Respublikasının 2023-cü il dövlət büdcəsi haqqında" qanun layihəsidir.

Milli Məclisin Sədri diqqətə çatdırıb ki, dövlət büdcəsinin gəlirlərinin və xərclərinin ildən-ilə artması ölkəmizin ardıcıl və dinamik inkişafını müəyyənləşdirən ən mühüm amillərdən biridir. "Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən sosial-iqtisadi inkişaf strategiyası başa çatmaqda olan 2022-ci ildə dövlətimizin qarşısında dayanan bütün vəzifələrin uğurla yerinə yetirilməsini təmin edib.

Məmnunluqla qeyd etmək olar ki, gələn ilin dövlət büdcəsinin həm gəlirləri, həm də xərcləri rekord həcmdə - müvafiq olaraq 30,7 milyard manat və 33,3 milyard manat məbləğində proqnozlaşdırılır. Dövlət büdcəsinin prioritetləri sosial müdafiə, təhsil, işğaldan azad olunmuş ərazilərin bərpası və Böyük qayıdışın həyata keçirilməsi, ölkənin milli təhlükəsizliyinin və müdafiə potensialının gücləndirilməsi, silahlı qüvvələrin maddi-texniki təminatının daha da yaxşılaşdırılması ilə bağlı olacaq. Əminliklə demək olar ki, Azərbaycan hökumətinin səmərəli fəaliyyəti gələn il büdcə siyasətinin bütün istiqamətlərində qarşıya qoyulan hədəflərin əldə olunmasına imkan yaradacaq", - deyə Sahibə Qafarova bildirib.

Spiker qeyd edib ki, 2023-cü ilin dövlət büdcəsinin layihəsi və büdcə zərfinə daxil olan sənədlər parlament komitələrinin iclaslarında geniş müzakirə olunub və Milli Məclisin plenar iclasına tövsiyə edilib. Diqqətə çatdırılıb ki, yaranmış ənənəyə uyğun olaraq parlamentdə təmsil edilən siyasi partiyaların rəhbərləri və nümayəndələri İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin iclasına dəvət olunub və iclasda iştirak edənlərin hər birinə öz fikirlərini ifadə etməsi üçün şərait yaradılıb. Hesablama Palatası da büdcə zərfi barəsində müsbət rəyini bildirib.

Aparılacaq müzakirələrin səmərəli olacağına və deputatların dəyərli təkliflərinin dinləniləcəyinə əminliyini bildirən Milli Məclisin Sədri təklif edib ki, müzakirələr əvvəlcə İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsi sədrinin, maliyyə və iqtisadiyyat nazirlərinin məruzələri ilə başlanılsın, sonra isə Mərkəzi Bankın və Hesablama Palatasının məlumatları dinlənilsin, daha sonra deputatlar öz mülahizələrini söyləsinlər.

Parlamentin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Tahir Mirkişili 2023-cü ilin dövlət büdcəsi və büdcə zərfinə daxil olan sənədlərlə bağlı çıxışında bildirib ki, 2022-ci il ölkəmizin tarixində mühüm hadisələrlə zəngin olub. Bir neçə gün öncə Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə qəhrəman Azərbaycan Ordusu tərəfindən işğal altında olan torpaqlarımızın azad edilməsinin və Ermənistanın kapitulyasiya aktını imzalamasının 2-ci ildönümü qeyd edilib. Cari ildə də azad edilmiş ərazilərdə geniş bərpa-quruculuq işləri aparılıb, ilk dəfə Zəngilan rayonunun Ağalı kəndinə sakinlərin köçürülməsilə Böyük qayıdışa start verilib, Zəngilan Beynəlxalq Hava Limanının açılışı olub, Laçın şəhəri nəzarətimizə keçib, Laçın koridorunun marşrutu dəyişdirilib, Qarabağ və Şərqi Zəngəzurda yol, enerji, su və digər layihələrin həyata keçirilməsi davam etdirilib. Bu işlərin aparılması üçün son 2 ildə dövlət büdcəsindən 4.8 milyard manatdan çox vəsait ayrılıb. Prezident İlham Əliyevin uzaqgörən siyasətinin nəticəsi olaraq illər öncə həyata keçirilən infrastruktur, enerji marşrutları və nəqliyyat koridorları bu gün ölkə iqtisadiyyatına mühüm yeni imkanlar yaratmaqdadırlar.

Tahir Mirkişili diqqətə çatdırıb ki, 2023-cü ildə qarşımızda ölkənin müdafiə qabiliyyətinin gücləndirilməsi, Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının bərpası, onların ölkə iqtisadiyyatına reinteqrasiyası və Böyük qayıdışın təmin olunması, "Azərbaycan Respublikasının 2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası"nın reallaşması kimi makrofiskal çağırışlar yaranacaqdır.

Nəzərə çatdırılıb ki, təqdim edilmiş layihədə 2023-cü ildə Ümumi Daxili Məhsulun real artım tempinin 2.7 faiz, qeyri-neft və qaz Ümumi Daxili Məhsulun real artım tempinin isə 4.5 faiz olacağı, artımın əsasən qeyri-neft sektoru hesabına təmin olunacağı, qeyri-neft və qaz sektorunun Ümumi Daxili Məhsulda payının 70 faizə, orta aylıq əmək haqqının 898 manata çatacağı, orta illik inflyasiyanın 6.9 faiz olacağı, vergi Tədiyyə Balansının Cari Əməliyyatlar Hesabının və Xarici Ticarət balansının profisitlə olacağı proqnozlaşdırılıb. Dövlət və icmal büdcənin gəlir və xərclərinin hesablanmasında neftin 1 barelinin qiyməti 50 ABŞ dollarına bərabər götürülüb.

Komitə sədri deyib ki, təqdim edilmiş layihədə 2023-cü il üçün dövlət büdcəsinin gəlirləri 2022-ci ilin dövlət büdcəsi gəlirlərindən 1 milyard 522.9 milyon manat çox olaraq 30 milyard 720.7 milyon manat nəzərdə tutulub. Artımın yarısı qeyri-neft və qaz sektorunun, yarısı isə neft-qaz sektorunun payına düşür.

Bildirilib ki, 2023-cü ilin dövlət büdcəsi xərclərinin 2022-ci ilə nisbətən 996.2 milyon manat artırılaraq 33 milyard 300 milyon manata çatdırılması planlaşdırılır. Müdafiə, təhlükəsizlik, məhkəmə, hüquq-mühafizə və prokurorluq xərclərinin 500 milyon manat artırılaraq 8 milyard manatı keçməsi ölkəmizin bu sahədə olan təhlükələrdən qorunması baxımından məqbul hesab edilir. Təhsilə ayrılan xərclərin 536 milyon manat, səhiyyəyə ayrılan xərclərin isə 197.6 milyon manat artırılması nəzərdə tutulub. Əməyin ödənişi xərclərinin 420 milyon manatadək artırılması əmək haqqı fondunun ÜDM-ə nisbətinin tədricən artırılmasının təmin edilməsi baxımından məqbul sayılır. 2023-cü ildə dövlət büdcəsindən dotasiya almayacaq rayonların sayının 6 rayon artaraq 57-yə çatması təqdirəlayiq hesab edilir.

Komitə sədri 2023-cü ilin dövlət büdcəsi layihəsinin ölkəmiz qarşısında yaranacaq çağırışlara layiqli cavab vermək və bütün istiqamətlərdə dövlət siyasətini həyata keçirmək üçün mühüm maliyyə bazası yaradacağını söyləyib.

Maliyyə naziri Samir Şərifov diqqətə çatdırıb ki, Prezident İlham Əliyevin Milli Məclisə təqdim etdiyi "Azərbaycan Respublikasının 2023-cü il dövlət büdcəsi haqqında" qanun layihəsində növbəti ildə dövlət büdcəsinin xərcləri 33,3 milyard manat və yaxud cari ilə nisbətən 11,4 faiz çox olmaqla təklif edilir. Müstəqillik tariximizin ən böyük büdcə xərclərinin 25,3 faizi və yaxud 8 milyard 419 milyon manatı dövlət sərhədlərimizin bərpası və etibarlı mühafizəsinin daha da möhkəmləndirilməsi, ordumuzun müdafiə qabiliyyətinin və milli təhlükəsizliyin gücləndirilməsi, Qarabağda və Şərqi Zəngəzurda aparılan bərpa və yenidənqurma tədbirlərinin maliyyə təminatının yaradılması üçün nəzərdə tutulub.

Qeyd edilib ki, Qarabağ və Şərqi Zəngəzurun yenidən qurulması ilə bağlı xərclər Prezident İlham Əliyevin təsdiq etdiyi "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər" və "Azərbaycan Respublikasının 2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası"nın ehtiva etdiyi məqsədlərin reallaşdırılması çərçivəsində maliyyələşdiriləcək. 2023-cü ildə strategiya çərçivəsində qarşıya qoyulan hədəflərin yerinə yetirilməsi üçün ayrılan 5 milyard 244 milyon manat həcmində vəsaitin 60 faizi Qarabağda və Şərqi Zəngəzurda yenidənqurma və bərpa işlərinə yönəldiləcək.

Diqqətə çatdırılıb ki, Vətən müharibəsində tarixi qələbəmizdən sonra ölkə Prezidentinin tapşırığı ilə Qarabağda və Şərqi Zəngəzurda başlayan yenidənqurma işlərinə cari ilin dövlət büdcəsində bəzi xərc istiqamətləri üzrə istifadə olunmamış vəsaitlərin də bu məqsədlərə səfərbər edilməsi nəzərə alınmaqla, 3 il ərzində, yəni 2021, 2022 və 2023-cü illərdə ümumilikdə 9,7 milyard manatdan artıq vəsait yönəldilib. 2023-cü ilin dövlət və icmal büdcələri, büdcə zərfinə daxil olan digər qanunvericilik aktları məhz strateji çağırışlar çərçivəsində həyata keçiriləcək tədbirlərin maliyyə təminatı məsələlərinin həllinə yönəldilib.

Bildirilib ki, Böyük qayıdışın təmin edilməsi zamanı işğaldan azad edilmiş ərazilərin zəngin resurs və infrastruktur potensialının səmərəli istifadə edilməsi, əlverişli biznes mühiti əsasında iqtisadi fəaliyyətin canlandırılmasının dəstəklənməsi məqsədi ilə "2023-cü ilin dövlət büdcəsi haqqında" qanun layihəsi ilə yanaşı, Vergi və Əmək Məcəllələrində, "Sosial sığorta haqqında" qanunda dəyişikliklərin edilməsi barədə qanun layihələri də təqdim olunub. Bu qanun layihələri Azərbaycan Prezidentinin işğaldan azad edilmiş ərazilərdə iqtisadi inkişafın sürətləndirilməsi ilə bağlı bəzi tədbirlər haqqında sərəncamının icrası ilə əlaqədar olaraq hazırlanıb. İşğaldan azad olunmuş ərazilərdə fəaliyyət göstərən rezident vergi ödəyicilərinin 1 yanvar 2023-cü ildən etibarən 10 il müddətinə mənfəət, əmlak, torpaq və sadələşdirilmiş vergidən, həmçinin siyahısı təsdiq ediləcək istehsal fəaliyyəti sahələrində fəaliyyət göstərəcək sahibkarlar tərəfindən xammal və materialların idxalının əlavə dəyər vergisindən azad edilməsini nəzərdə tutur. Bununla yanaşı, işəgötürənlər tərəfindən ödənilən sosial sığorta haqları 1 yanvar 2023-cü ildən 10 il ərzində dövlət tərəfindən subsidiyalaşdırılacaq. Habelə işğaldan azad edilmiş ərazilərdə çalışanların vəzifə maaşlarına 5 il ərzində 20 faiz məbləğində əlavə, müasir bilik və bacarıqlara malik mütəxəssislərə bu ərazilərdə 1 il müddətinə əmək müqaviləsi bağladıqda vəzifə maaşı həcmində birdəfəlik müavinət veriləcək. Qeyd olunan güzəştlərin dəyəri ildə 150 milyon manat məbləğində dəyərləndirilir.

Nazir 2023-cü ilin dövlət büdcəsi xərclərinin tərkibində sosialyönümlü xərclərin böyük hissəyə malik olduğunu deyib. Qeyd edilib ki, növbəti ildə bu xərclər ümumi xərclərin 45,7 faizini təşkil etməklə, 15 milyard 219 milyon manat məbləğində nəzərdə tutulur. Cari illə müqayisədə bu, 1 milyard 289 milyon manat və yaxud 9,3 faiz çoxdur. 2021-ci illə müqayisədə isə 4 milyard 922 milyon manat və yaxud 47,8 faiz çoxdur. Sosialyönümlü xərclərin 52,8 faizi və yaxud 8 milyard 41 milyon manatı əməyin ödənişi xərclərinə, 26,7 faizi və yaxud 4 milyard 65 milyon manatı təqaüd və sosial müavinətlərə, 9 faizi və yaxud 1 milyard 366 milyon manatı əhaliyə səhiyyə xidmətlərinin göstərilməsinə, 7,5 faizi və yaxud 1 milyard 144 milyon manatı ölkəmizin 2022-2026-cı illəri əhatə edən sosial-iqtisadi inkişaf strategiyasında nəzərdə tutulan sosial tədbirlərin maliyyə təminatına, 3,1 faizi və yaxud 477 milyon manatı ərzaq məhsullarının, dərman ləvazimatlarının alınmasına yönəldiləcək.

Bildirilib ki, əhalinin sosial müdafiəsi və sosial təminat xərcləri üçün növbəti ilin büdcəsində 4 milyard 416 milyon manat vəsait proqnozlaşdırılır. Bu, cari ilə nisbətən 687 milyon manat və yaxud 18,4 faiz çoxdur. 2021-ci ilin göstəriciləri ilə müqayisədə isə 1 milyard 252 milyon manat və yaxud 39,6 faiz çoxdur.

2023-cü ildə sosial müavinətlər, təqaüdlər və digər sosial xarakterli ödənişlərin maliyyə təminatı üçün 2 milyard 598 milyon manat, o cümlədən keçmiş məcburi köçkünlərin sosial müdafiəsi ilə bağlı xərclər üçün 367 milyon manat, əlavə məşğulluq tədbirləri üçün 266 milyon manat vəsait nəzərdə tutulub.

Diqqətə çatdırılıb ki, növbəti il üçün icmal büdcənin gəlirləri 33 milyard 6 milyon manat, xərcləri 37 milyard 949 milyon manat, kəsiri isə 4 milyard 944 milyon manat proqnozlaşdırılır.

2023-cü ildə Dövlət Neft Fondunun büdcəsinin gəlirləri 8 milyard 991 milyon manat, xərcləri isə 11 milyard 355 milyon manat, gəlirləri və xərcləri bərabər olmaqla Dövlət Sosial Müdafiə Fondunun büdcəsi 6 milyard 264 milyon manat, İşsizlikdən Sığorta Fondunun büdcəsi 213 milyon manat, Naxçıvan Muxtar Respublikasının büdcəsi 646 milyon manat, İcbari Tibbi Sığorta Fondunun büdcəsi isə 2 milyard 393 milyon manat təşkil edəcək.

İqtisadiyyat naziri Mikayıl Cabbarov bildirib ki, ölkəmiz postpandemiya və postmünaqişə dövründə keyfiyyətcə yeni olan və 2022-2030-cu illəri əhatə edən strateji inkişaf mərhələsinə daxil olur. Bu dövrdə yeni nəsil struktur və institusional islahatlar vasitəsi ilə iqtisadi artımın müasir və dayanıqlı mənbələrinin hərəkətə gətirilməsi, milli iqtisadiyyatın innovasiya yönümlüyünün və maliyyə dayanıqlığının daha da gücləndirilməsi iqtisadiyyatın qlobal dəyişikliklər zəncirinə səmərəli inteqrasiyasını təmin edir. Beləliklə, Azərbaycan dövləti öz qüdrətini daha da artırmaqla yüksək rifaha malik cəmiyyətin qurulması istiqamətində hədəfləri gerçəkləşdirmək əzmindədir.

Ölkə Prezidenti tərəfindən təsdiq edilmiş "Azərbaycan Respublikasının 2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası"nın bu prioritetlərə əsaslanaraq hazırlandığını deyən nazir 2023-cü il üzrə iqtisadiyyata dair proqnozlarla bağlı fikirlərini açıqlayıb. Qeyd edib ki, sosial-iqtisadi proqnozlar strategiyanın əhatə etdiyi bütün fəaliyyət və alt-fəaliyyət sahələri üzrə aparılacaq islahatların və görüləcək işlərin son nəticələrini əks etdirəcək hədəflər üzərində qurulub. Bu hədəflər dayanıqlı artan rəqabət qabiliyyətli iqtisadiyyat, dinamik, inklüziv və sosial ədalətə əsaslanan cəmiyyət, rəqabətli insan kapitalı və müasir innovasiyaların məkanı, işğaldan azad edilmiş ərazilərə Böyük qayıdış, təmiz ətraf mühit və yaşıl artım ölkəsi kimi strateji istiqamətləri əhatə edir.

Bildirilib ki, 2023-cü il və ortamüddətli dövr üçün İqtisadiyyat Nazirliyi tərəfindən hazırlanmış makroiqtisadi proqnozlar 2022-2026-cı illərə dair sosial-iqtisadi strategiyadan irəli gələn hədəflərə söykənməklə yanaşı, 3 proqnoz ssenaridə - baza-hədəf, optimist və pessimist ssenarilərdə hazırlanıb. Ssenarilər arasında əsas fərqlər neftin qiyməti ilə yanaşı, həm də qlobal iqtisadi risklərin reallaşması dərəcəsi, ölkə iqtisadiyyatının regionda yaranmış yeni imkanlardan və fürsətlərdən yararlana bilməsi qabiliyyəti, habelə strategiyanın icra keyfiyyəti ilə ölçülür. Baza-hədəf ssenaridə ÜDM-in növbəti ildə 2,7 faiz, 2023-2026-cı illərdə isə orta illik hesabla 3,5 faiz, qeyri-neft-qaz ÜDM-in növbəti ildə 4,5 faiz 2023-2026-cı illərdə isə orta illik hesabla 4,9 faiz artacağı proqnozlaşdırılır. Optimist ssenaridə növbəti ildə ÜDM-in 3,3 faiz, qeyri-neft və qaz ÜDM-in isə 5,6 faiz, pessimist ssenaridə növbəti ildə ÜDM-in 1,3 faiz, qeyri-neft və qaz ÜDM-in isə 2 faiz artacağı proqnozlaşdırılır.

Fasilədən sonra spiker Sahibə Qafarova Fransa Senatının Azərbaycan barəsində qəbul etdiyi qətnamə ilə bağlı Milli Məclisin bəyanatının qəbul edilməsi məsələsinin gündəliyə salınması təklifini irəli sürüb. Spiker dövlətimizin suverenliyinə və ərazi bütövlüyünə qarşı yönəlmiş bu aksiyaya Milli Məclisin münasibət bildirməsinin zəruri olduğu bildirilib. Qeyd edib ki, həm bu qətnamə, həm də Fransanın son dövrdə Azərbaycana qarşı fəaliyyəti ilə bağlı Milli Məclisin bəyanatının qəbul edilməsi məqsədəuyğundur.

İclasda Milli Məclisin bəyanatı ilə bağlı məsələ gündəliyə daxil edilib.

Sonra Milli Məclisin Sədri məsələ ilə bağlı çıxış edib. Fransanın icra və qanunvericilik orqanlarının Azərbaycana qərəzli münasibətinin dəfələrlə şahidi olduğumuzu bildirən spiker 44 günlük Vətən müharibəsi dövründə və müharibədən sonra Fransa dövləti rəhbərliyinin təcavüzkar Ermənistanı müdafiə etmək üçün verdiyi açıqlamaları, beynəlxalq təşkilatlarda Azərbaycana qarşı sənədlər qəbul etdirməyə çalışdığını xatırladıb. Spiker diqqətə çatdırıb ki, son 2 ildə Fransa parlamenti bir neçə dəfə bizim ölkəmiz barəsində ədalətsiz mövqe nümayiş etdirib. O cümlədən Fransa Senatının dünən qəbul etdiyi sənəd də Azərbaycana qarşı bədxah və çirkin niyyətli siyasi aksiyadır. Milli Məclisin Sədri bildirib ki, hər sətrindən xalqımıza və dövlətimizə nifrət yağan bu qətnamə Ermənistan Respublikasının ölkəmizə qarşı ərazi iddialarına və qəsbkarlıq siyasətinə haqq qazandırmaq niyyəti güdən bir akt kimi qiymətləndirilməlidir.

Heç bir hüquqi, siyasi və mənəvi haqqı olmadan Fransa Senatının qəbul etdiyi qətnamə bunu da göstərir ki, erməni şovinistlərinin qanunsuz maraqlarını təmin etmək üçün Fransa qanunvericiləri hətta öz dövlətlərinin milli maraqlarını qurban verməyə, Fransa ilə Azərbaycan arasında dövlətlərarası münasibətlərə xələl gətirməyə, Avropa İttifaqı ilə Azərbaycan arasında əməkdaşlığa zərbə vurmağa da hazırdırlar.

Spiker qeyd edib ki, erməni şovinizminin Cənubi Qafqazda geosiyasi iddialarının hansı ağır nəticələrə gətirib çıxardığı hamıya məlumdur. Fransa Senatını Cənubi Qafqazda baş verən hadisələrə və proseslərə qanunsuz müdaxilə etmək, xalqların taleyi ilə oynamaq, Ermənistanı təcavüz qurbanı kimi qələmə vermək, tarixə qovuşmuş münaqişəni yenidən alovlandırmaq cəhdlərindən əl çəkməyə çağıran Sahibə Qafarova yalançı erməni təbliğatının təsiri altında və siyasi dividendlər əldə etmək niyyəti ilə Fransa Senatının qəbul etdiyi qətnamənin mənfi nəticələri üçün bütün məsuliyyətin bütünlüklə Fransa tərəfinin üzərinə düşdüyünü vurğulayıb.

Məsələnin müzakirələrində deputatlar Sevil Mikayılova və Fəzail Ağamalının çıxışından sonra spiker bəyanatın mətnini hazırlamaq üçün komissiya yaradılması ilə bağlı təklifini səsləndirib.

Deputatlar sədr Səməd Seyidov, üzvləri isə Zahid Oruc, Sabir Hacıyev, Ramin Məmmədov, Asim Mollazadə, Arzu Nağıyev və Sədaqət Vəliyeva olmaqla komissiyanın tərkibini təsdiqləyiblər.

Müzakirələrin davamında Milli Məclis Sədrinin müavini Fəzail İbrahimli, Mədəniyyət komitəsinin sədri Qənirə Paşayeva, deputatlar Rafael Hüseynov, Cavid Osmanov, Şahin İsmayilov, Naqif Həmzəyev, Elnur Allahverdiyev, Tahir Kərimli, Aydın Mirzəzadə, Aydın Hüseynov çıxış ediblər. Çıxışlarda Fransa Senatının və Milli Assambleyasının, eləcə də bu ölkənin bir sıra siyasi dairələrinin uzun illər davam edən və son dövrdə daha da kəskinləşən açıq irqçi, islamofob və Azərbaycana qarşı düşmən fəaliyyətini kəskin tənqid ediblər. Onlar Fransanın beynəlxalq hüquq normalarına və prinsiplərinə açıq hörmətsizlik nümayiş etdirərək Azərbaycanın ərazi bütövlüyünə və suverenliyinə qarşı qərəzli və ədalətsiz addımlarının intensivləşməsinə etiraz ediblər. Qeyd ediblər ki, Fransa Senatının qəbul etdiyi məlum son qətnaməsi də həqiqətlərdən və reallıqlardan uzaqdır, erməni təbliğatına əsaslanır və beynəlxalq hüququ ayaqlar altına almaqla Fransanın özünün imza atdığı sənədlərə ziddir. Deputatlar bu qərəzli mövqenin Azərbaycan və Ermənistan arasında normallaşma prosesinə xidmət etmədiyini, regionda sülh quruculuğu səylərinə böyük zərər verdiyini bildiriblər.

Sonra deputat Ramin Məmmədov hazırlanmış bəyanatın mətnini səsləndirib.

Sənəd səsə qoyularaq qəbul olunub.

*(Bəyanatın mətni qəzetin bugünkü nömrəsində dərc edilib).*

İclasda "Azərbaycan Respublikasının 2023-cü il dövlət büdcəsi haqqında" qanununun layihəsinin birinci oxunuşu davam etdirilib. Çıxış edən Mərkəzi Bankın İdarə Heyətinin sədri Taleh Kazımov cari ilin ötən dövründə Mərkəzi Bankın ölkədə makroiqtisadi və maliyyə sabitliyinin təmin olunması, maliyyə sektorunun iqtisadiyyatda rolunun artırılması istiqamətində göstərdiyi fəaliyyətindən söz açıb, qlobal mühitdə baş verən proseslərin dünya iqtisadiyyatına sıx inteqrasiya olunmuş ölkəmizə təsirlərindən danışıb. Qeyd edib ki, son 10 ayda strateji valyuta ehtiyatları 6 faiz artaraq 56 milyard ABŞ dollarını üstələyib, o cümlədən Mərkəzi Bankın ehtiyatları 10,3 faiz artaraq 7,8 milyard ABŞ dollarına çatıb.

İdxal olunan inflyasiyadan bəhs edən Taleh Kazımov Mərkəzi Bankın səlahiyyətləri çərçivəsində həyata keçirdiyi inflyasiyanın azaldılması və maliyyə sabitliyinin gücləndirilməsi tədbirlərinə toxunub. Bildirib ki, son 10 ayda bank sektoruna və manata inam əhəmiyyətli dərəcədə artıb. Belə ki, fiziki şəxslərin manatla əmanətləri 29,5% artaraq 7 mlrd. manata çatıb.

Mərkəzi Bankın sədri 2023-cü ilin dövlət və icmal büdcə layihələri ilə bağlı bildirib ki, gələn il və ortamüddətli dövrə təqdim edilən makroiqtisadi çərçivə qarşıda duran əsas vəzifələrə cavab verir və Mərkəzi Bank növbəti ilin dövlət büdcəsinin də fiskal qayda əsasında tərtibini müsbət qiymətləndirir. İnflyasiya təzyiqlərini də nəzərə almaqla Mərkəzi Bank büdcə kəsirinin minimallaşdırılmasına və qeyri-emissiya mənbələri ilə örtülməsinə tərəfdardır. Bu baxımdan 2022-ci ilin təsdiq olunmuş büdcəsi ilə müqayisədə 2023-cü ildə büdcə kəsirinin azaldılması müsbət dəyərləndirilib.

Hesablama Palatasının sədri Vüqar Gülməmmədov "Azərbaycan Respublikasının 2023-cü il dövlət büdcəsi haqqında" qanun layihəsi və bu qanunla birgə təqdim edilmiş sənədlərə palata tərəfindən hazırlanmış rəyi təqdim edib. Bildirilib ki, aparılan təhlillər büdcə sənədləşməsində məlumatlılığın və keyfiyyətin artırılması istiqamətində işlərin davam etdiyini, Hesablama Palatasının əvvəlki rəylərində qeyd edilmiş bəzi məsələlərin nəzərə alındığını göstərir.

Palata sədri rəydə dövlət büdcəsinin əsas parametrləri ilə bağlı əks etdirilmiş bəzi nəticələr barədə məlumat verib. Bildirilib ki, müstəqillik tariximizdə ilk dəfədir ki, həm hüquqi şəxslərin mənfəət vergisi, həm də ƏDV üzrə daxilolmaların həcmi 6 millyard manatın üzərində proqnozlaşdırılıb. 2023-cü ilin dövlət büdcəsinin gəlirlərində neft sektorunun payında kiçik də olsa, azalma proqnozlaşdırılıb. Növbəti ildə dövlət büdcəsinin gəlirləri 2022-ci ilin yenidən baxılmış göstəricisinə nisbətən artımla proqnozlaşdırılıb. Qeyd edilib ki, növbəti ilin büdcəsini fərqləndirən məqamlardan biri də "Azərbaycan Respublikasının 2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası"nın reallaşdırılmasının büdcə siyasətinin müəyyən edilməsi zamanı əsas strateji makrofiskal çağırışlar arasında yer almasıdır. İlk dəfə olaraq ölkənin strateji sənədinin maliyyə təminatı dövlət büdcəsinin layihəsində ayrıca göstərilib. Strategiyanın maliyyə təminatı üzrə nəzərdə tutulmuş xərclərin büdcədə payı 16 faizdən çox proqnozlaşdırılıb.

Vüqar Gülməmmədov çıxışında dövlət maliyyəsinin idarəedilməsi üzrə bəzi məqamları və bu istiqamətdə Hesablama Palatasının tövsiyələrini də diqqətə çatdırıb.

Sonra iclasda "Azərbaycan Respublikasının 2023-cü il dövlət büdcəsi haqqında" Azərbaycan Respublikası qanununun layihəsi ətrafında müzakirələr aparılıb.

2023-cü ilin dövlət büdcəsi layihəsinin müzakirələri bu gün davam etdiriləcək.

***Rəşad CƏFƏRLİ,***
***"Azərbaycan"***

# Fransa Senatının qəbul etdiyi qərəzli qətnamə ilə əlaqədar Azərbaycan Respublikası Milli Məclisinin bəyanatı

**Fransa Respublikası Senatının və Milli Assambleyasının, eləcə də bu ölkənin bir sıra siyasi dairələrinin uzun illər davam edən və son dövrdə daha da kəskinləşən açıq irqçi, azərbaycanofob, türkofob və islamofob fəaliyyətinə, ümumiyyətlə, Fransanın beynəlxalq hüquq normalarına və prinsiplərinə açıq hörmətsizlik nümayiş etdirərək Azərbaycanın ərazi bütövlüyünə və suverenliyinə qarşı qərəzli və ədalətsiz addımlarının intensivləşməsinə etiraz olaraq Azərbaycan Respublikasının Milli Məclisi aşağıdakıları bəyan edir:**



- Fransa Parlamentinin hər iki palatasında Azərbaycan əleyhinə indiyədək qəbul edilmiş qətnamələr, o cümlədən Fransa Senatının 2022-ci il noyabrın 15-də qəbul etdiyi qətnamə və Fransa Milli Assambleyasının bu yaxınlarda səsverməyə çıxarmağa hazırlaşdığı qətnamə Fransa ilə Azərbaycan arasında ikitərəfli öhdəlikləri, xüsusilə də Azərbaycan Respublikası ilə Fransa Respublikası arasında 1993-cü il dekabrın 20-də imzalanmış "Dostluq, qarşılıqlı anlaşma və əməkdaşlıq haqqında" müqaviləni pozur. Sözügedən müqavilənin 2-ci maddəsinə uyğun olaraq, tərəflər öz üzərinə beynəlxalq təhlükəsizliyin təmin edilməsi, münaqişələrin qarşısının alınması və dövlətlərarası münasibətlərdə beynəlxalq hüququn aliliyinin təmin olunması üçün öz səylərini sərhədlərin pozulmazlığı prinsipləri əsasında birləşdirəcəklərinə dair öhdəlik götürmüşlər;

- Azərbaycan Respublikasının beynəlxalq səviyyədə tanınmış sərhədləri çərçivəsində ərazi bütövlüyünə hörmət edilməsi Fransa tərəfinin həm çoxtərəfli, həm də ikitərəfli beynəlxalq öhdəliklərindən irəli gəlir;

- Fransada fəaliyyət göstərən radikal erməni qruplarının dəfələrlə Azərbaycanın Parisdəki səfirliyinə qarşı özündə vandalizm və terror elementlərini ehtiva edən cinayət əməlləri törətməsi və Fransa tərəfinin bunun qarşısını almaq üçün heç bir tədbir görməməsi onun erməni vandalizmini himayə etdiyini, Azərbaycana qarşı açıq diskriminasiyaya yol verdiyini bir daha sübut edir. Həmçinin rəsmi Paris "Diplomatik əlaqələr haqqında" 1961-ci il tarixli Vyana Konvensiyasına əsasən diplomatik nümayəndəliyi hər cür hücumlardan və zərər vurulmasından qorumaq və nümayəndəliyin sakitliyinin pozulmasının və ya şərəfinin təhqir olunmasının qarşısını almaq üçün lazımi tədbirlər görmək kimi beynəlxalq öhdəliklərini yerinə yetirməməklə Azərbaycana selektiv yanaşdığını göstərir;

- Cənubi Qafqaz regionunun və bütövlükdə Avropanın təhlükəsizliyi üçün təhdid törətmiş, Azərbaycanın qətiyyətli səyləri ilə artıq tarixə qovuşmuş Ermənistan-Azərbaycan münaqişəsinin 30 ilə yaxın bir müddətdə həll edilməməsinin əsas səbəblərindən biri də danışıqlar prosesində beynəlxalq vasitəçi rolunu oynamış bəzi dövlətlərin, xüsusən Fransanın Ermənistanın işğalına əsaslanan status-kvonu qoruyub saxlamağa çalışması olmuşdur;

- BMT-nin Təhlükəsizlik Şurasının daimi üzvü kimi beynəlxalq səviyyədə tanınmış ərazilərimizin 20 faizinin 30 ilə yaxın davam edən işğalına göz yuman, səs verdiyi qətnamələrin icrasını Ermənistandan tələb etməyən Fransanın delimitasiya olunmamış Ermənistan-Azərbaycan sərhədində baş verən silahlı toqquşmada Ermənistanın suverenliyinin pozulmasını iddia etməsi riyakarlıqdır;

- Azərbaycanın, guya, Ermənistana qarşı hücumunun BMT Təhlükəsizlik Şurası tərəfindən qınandığını iddia edən Fransa parlamentariləri Təhlükəsizlik Şurasının məhz Fransanın sədrliyi altında keçirilmiş 2022-ci il 15 sentyabr tarixli iclasında şuranın üzvü olan əksər dövlətlərin Azərbaycan ilə Ermənistan arasında bütün mübahisəli məsələlərin dinc diplomatik yollarla bir-birinin suverenliyinə və ərazi bütövlüyünə hörmət əsasında həllinə, habelə iki dövlət arasında sərhədin delimitasiyasının həyata keçirilməsinə çağırış etdiyini görməzdən gəlir. Senat həmin iclasda səsləndirilən çağırışlara tamamilə zidd olaraq Ermənistanı revanşizmə həvəsləndirən birtərəfli addım və tədbirlərə çağırış etməklə Fransanın daimi üzvü olduğu BMT Təhlükəsizlik Şurasından öz çirkin niyyətləri naminə sui-istifadə etdiyini nümayiş etdirir;

- Fransa tərəfindən Azərbaycan qüvvələrinin beynəlxalq səviyyədə tanınan ərazimiz olan, qətnamədə "Laçın dəhlizi" kimi qeyd olunan ərazilərdən çıxarılmasına dair tələbin irəli sürülməsi qətnamənin beynəlxalq hüquqa nə dərəcədə zidd olduğunu göstərməklə yanaşı, onun müəlliflərinin və dəstəkçilərinin yerdəki vəziyyətdən bixəbər, erməni "qara təbliğat" maşınının əlində alət olduğunu açıq şəkildə göstərir;

- Fransa Senatının və Milli Assambleyasının bu kimi destruktiv və təxribatçı addımları Cənubi Qafqaz regionunda vəziyyətin gərginləşməsinə xidmət edir, sülh gündəliyinin həyata keçirilməsinə, iki ölkə arasında münasibətlərin normallaşmasına zərbə vurur.

İrqi ayrı-seçkiliyin bütün formalarının ləğv edilməsi haqqında 1969-cu il 4 yanvar tarixli Konvensiyaya, eləcə də BMT-nin Nizamnaməsinə istinad edən, həmçinin Azərbaycanı hərbi cinayətlərdə ittiham edən Fransaya törətdiyi qətliamların və vəhşiliklərin bir qismini xatırladırıq:

- Dünyanın müxtəlif regionlarında 50-dən artıq dövlətin ərazisini işğal edərək, sərvətlərini talan edərək, xalqlarını uzun illər əsarətdə saxlamış Fransanın törətdiyi vəhşiliklər, habelə insanlıq və bəşəriyyət əleyhinə cinayətlər, eləcə də müharibə cinayətləri bəşər tarixinin qara səhifələridir. Müstəmləkə illərində Fransa silahlı qüvvələri etnik və dini mənsubiyyətinə görə yüz minlərlə dinc sakini kütləvi surətdə qətlə yetirmişlər. Törədilmiş soyqırımı cinayətləri Fransanın siyasi tarixində silinməsi mümkün olmayan qara ləkədir;

- 1960-1966-cı illərdə Əlcəzairin Böyük Səhrada payına düşən Reqqan və İn Ekker adlı ərazilərində Fransa tərəfindən 17 nüvə sınağı gerçəkləşdirilmişdir ki, onlardan da 11-i yeraltı sınaqlar olmuşdur. Fransa aşkar edilməmiş kimyəvi, radioaktiv və zəhərlənmiş tullantıların yerləşdiyi ərazilərə dair topoqrafik xəritələri bu günədək Əlcəzair tərəfinə təqdim etmir. Eyni zamanda Fransa həmin sınaqların və tullantıların yerli əhaliyə göstərdiyi təsirlərin qiymətləndirilməsi və müvafiq kompensasiyanın verilməsi məsələsindən də boyun qaçırır;

- İşğal etdiyi Əlcəzair ərazisinə 5 milyondan artıq mina basdıran Fransa həmin minaların xəritələrini Əlcəzair tərəfinə verməkdən bu günədək imtina edir. Nəticədə Azərbaycan kimi Əlcəzair də dünyada mina partlayışından ən çox əziyyət çəkən ölkələrin sırasında ön yerlərdən birini tutur. Ermənistan müttəfiqi Fransanın ənənələrini davam etdirərək işğal etdiyi Azərbaycan torpaqlarında bir milyondan artıq mina basdırmışdır və dəqiq mina xəritələrini ölkəmizə verməkdən imtina edir. 2020-ci il 10 noyabr tarixli üçtərəfli Bəyanatın qəbul edilməsindən ötən dövrdə 270-ə yaxın Azərbaycan vətəndaşının mina qurbanına çevrilməsinin Fransa tərəfindən bir dəfə də olsa pislənilməməsi bu ölkənin humanitar hüquqa necə selektiv yanaşdığını növbəti dəfə nümayiş etdirir;

- Əlcəzairin 1830-1962-ci illəri əhatə edən işğalı dövründə 1,5 milyondan artıq insan fransızlar tərəfindən qətlə yetirildiyindən bu ölkə "1,5 milyon şəhid ölkəsi" adlandırılır;

- Qarabağda yaşayan 15-20 min erməniyə müstəqillik tələb edən Fransa ərazisinə görə Afrikanın və ərəb dünyasının ən böyük ölkəsinin xalqına muxtariyyət belə verməkdən imtina etmişdir. Hətta Əlcəzair adlı dövlətin mövcud olmasını inkar edən Fransa bu ölkəni özünün bir parçası, dənizarxası ərazisi - Fransa Əlcəzairi adlandırmışdır;

- 1832-ci ildə El-Uffia qəbiləsi gecə yatdığı yerdə qılıncdan keçirilmiş, qadınlar və uşaqlar da daxil olmaqla 12 min adam öldürülmüşdür;

- 1945-ci ildə Setif şəhərində 45 min əlcəzairli öldürülmüş, 5 minə yaxın adam həbs olunmuş, 99 nəfər edam, 64 nəfər ömürlük katorqa cəzalarına məhkum edilmişdir;

- 1961-ci il oktyabrın 17-də on minlərlə əlcəzairli Fransa işğalını pisləmək üçün Parisdə nümayişə çıxmışdır. Fransa polisinin açdığı atəş və etirazçıların Sena çayına atılması nəticəsində 1500-ə qədər əlcəzairli qətlə yetirilmiş, mindən çox şəxs həbs edilmişdir. Bu hadisə tarixə "Sena qətliamı" kimi daxil olmuşdur;

- Fransa məqsədli şəkildə qanunsuz məskunlaşdırma siyasəti həyata keçirmişdir ki, bunun da nəticəsində XX əsrin ortalarında 9 milyonluq Əlcəzair əhalisinin 1 milyonunu avropalılar təşkil etmişdir. Eyni şəkildə Ermənistan işğal dövründə Azərbaycan ərazilərində qanunsuz məskunlaşdırmaya rəvac vermişdir;

- Fransanın işğal etdiyi Cibuti, Nigeriya və Çadda xalqın islam təhsili alması qadağan edilmiş, məscid və mədrəsələr dağıdılmışdı. Müsəlman alimləri həbs edilmiş, müqavimət göstərən on minlərlə müsəlman qətlə yetirilmişdi. Tarixə "elm adamlarının soyqırımı" kimi həkk olunan hadisəni də fransızlar törətmişlər. Fransızlar 1917-ci ildə Çadda dini həyatı yenidən nizamlamaq adı altında konfrans təşkil edərək tədbirə qatılan 400-ə yaxın müsəlman elm adamının hamısını güllələmişlər;

- XIX əsrdə müstəmləkə müharibələrində öldürülən döyüşçülərin 18 min ədəd kəllə sümüyü Parisin İnsan Muzeyində saxlanılır və nümayiş etdirilir. Həmin kəllə sümüklərinin 500-dən çoxu əlcəzairli döyüşçülərin kəllə sümükləridir. Əlcəzairin həmin sümükləri geriyə qaytarmaq tələbini Fransa hələ də tam yerinə yetirmir. Bu cür mağara təfəkkürünə hazırda Fransadan başqa, dünyanın az dövlətində rast gəlmək mümkündür;

- Fransanın işğal etdiyi Mərakeşdə 1907-ci ilin avqustunda tarixə "Kasablanka döyüşü" kimi daxil olmuş hücumu nəticəsində 2 gün ərzində 3 minə yaxın mərakeşli qətlə yetirilmişdir;

- Tunisdə 1956-cı ildə mübarizə nəticəsində Fransa işğalına rəsmən son qoyulsa da, Fransa tərəfi ölkənin suverenliyinə hörmət etməyərək, bu ölkədə hərbi mövcudluğunu qoruyub saxlamağa cəhd göstərmişdir. 1961-ci ildə Tunis xalqının Fransa hərbi bazasının bağlanmasına dair tələbinə fransız hərbçilər qətllərlə cavab vermişlər. "Bizert böhranı" nəticəsində 5 minə yaxın tunislinin öldürüldüyü bu ölkənin Qırmızı Xaç Cəmiyyəti tərəfindən qeydə alınmışdır;

- Fransa işğal etdiyi ölkələrdə Cenevrə Konvensiyası ilə qadağan olunmuş kimyəvi silahlardan - zəhərli qazlardan istifadə etmişdir. Həmin qazların təsirinə məruz qalmış insanların nəvə-nəticələri bu gün də onkoloji və digər xəstəliklərdən əziyyət çəkirlər;

- Vyetnamda 1947-ci il noyabrın 29-da törədilmiş, "Mıy Ça" adlandırılan qətliam nəticəsində fransızlar 170-i qadın və 157-si uşaq olmaqla yüzlərlə vyetnamlını vəhşicəsinə öldürmüşlər. 400-ə yaxın evin yandırıldığı bu qətliamlar zamanı vyetnamlı qadınlar güllələnməzdən əvvəl fransız əsgərləri tərəfindən zorlanmışlar;

- 1994-cü ildə Fransa Ruandada "təhlükəsiz zona yaratmaq" adı altında hərbi əməliyyat keçirmişdir. Nəticədə Fransa silahlı qüvvələri onlara qoşulan yerli münaqişə tərəfinin iştirakı ilə Ruandada tutsi qəbiləsinin 800 mindən çox üzvünü qətlə yetirmişlər. "Ruandada tutsi qəbiləsinin soyqırımında Fransanın roluna dair hesabata məsul komissiya" tərəfindən 2021-ci il martın 26-da Fransanın dövlət başçısına təqdim edilmiş sənəddə Fransanın qətliamda məsuliyyəti qeyd olunmuşdur;

- 2021-ci il martın 30-da Birləşmiş Millətlər Təşkilatının Malidə sabitləşmə üzrə kompleksli çoxölçülü missiyasının (MİNUSMA) Müdafiə və insan hüquqları bölməsinin dərc etdiyi hesabatda Fransa hərbçilərinin Malinin Bounti kəndi yaxınlığında həyata keçirdiyi hava hücumu nəticəsində 19 mülki şəxsin həlak olduğu qeyd edilmişdir;

- 2020-ci ilin yanvar ayında Fransanın daxili işlər naziri Kristof Kastaner 2019-cu ildə Fransada antisemitizm hərəkətlərinin 2018-ci il ilə müqayisədə 27 faiz, müsəlmanlara qarşı hərəkətlərin 54 faiz artdığını, xristianlara qarşı hərəkətlərin sabit, lakin ən yüksək səviyyədə qaldığını etiraf etmişdir. Həmçinin o, əsasən təhdid xarakteri daşıyan irqçi və ksenofob hərəkətlərin 2018-2019-cu illər ərzində iki dəfədən çox artaraq 496-dan 1142-yə yüksəldiyini bildirmişdir;

- 2019-cu ilin fevral ayında Fransada yəhudi qəbiristanlığında təxminən 80 məzara boya ilə svastika və digər nasist simvolları çəkilmiş, antisemit şüarlar yazılmışdır. Ümumiyyətlə, 2019-cu ildə Fransanın şərqində yerləşən yəhudi qəbiristanlıqlarında 180-dən çox məzar nasist simvolları ilə təhqir edilmişdir;

- Ermənistan tərəfindən xarici ölkələrdən, o cümlədən Fransadan şovinist, irqçi və terrorçu muzdluların və əcnəbi terrorçu döyüşçülərin müharibə zonasına gətirilərək Azərbaycana qarşı istifadə edildiyinə dair təkzibedilməz faktlar mövcud olsa da, Fransa hüquq-mühafizə orqanları onları istintaqa cəlb etməməklə himayə edir. Terrorçuların Fransada himayə edilməsi yalnız müasir dövrlə əlaqəli məsələ deyildir. Belə ki, 1983-cü il iyulun 15-də Parisin Orli hava limanında Türk Hava Yollarının kassasında təşkil etdiyi bomba partlayışına görə həbs edilmiş və terror aktını törətdiyini boynuna almış ASALA terror təşkilatının üzvü, ermənimənşəli Varujan Karapetyan 8 nəfərin həlak olmasına və 61 nəfərin yaralanmasına səbəb olmaqla ömürlük həbs cəzasına məhkum edilsə də, 2001-ci ildə həbsxanadan azad edilmişdir. Həmçinin 1981-ci il sentyabrın 24-də Türkiyənin Parisdəki səfirliyinə hücum təşkil edən ASALA terror təşkilatının üzvü Monte Melkonyan Türkiyə tərəfinin təkidləri nəticəsində həbs edilsə də, az sonra azad edilmişdir. Orli hava limanındakı partlayışda iştirakı təsdiqlənən M.Melkonyanın cəzaçəkmə müddəti müəmmalı şəkildə azaldılmış və o, 1989-cu ildə azadlığa buraxılmışdır. Fransanın himayə etdiyi bu terrorçular müttəfiqi olan Ermənistanda qəhrəman kimi qəbul edilmiş və sonralar Azərbaycan xalqına qarşı çoxsaylı terror aktları törətmişlər;

- Fransa Senatı və Milli Assambleyası Fransa vətəndaşlarının fundamental hüquq və azadlıqlarının təmin edilməsi istiqamətində apardıqları mübarizənin qarşısının alınmasında hökumət tərəfindən törədilən qeyri-qanuni əməllərə səssiz qalır. Bu baxımdan "sarı jiletlilər" hərəkatının 15-ə yaxın üzvünün öldürülməsi, 4 mindən artıq nümayişçinin xəsarət alması, 3 mindən çox nümayişçinin cəzalandırılması, hətta hərəkatın rəhbərlərindən biri olan Erik Druenin başqa bəhanə ilə həbs edilməsi, eləcə də repressiya və cinayət əməllərinin normal və ədalətli araşdırılmaması Fransada mövcud olan vəziyyəti aydın göstərir;

- "dağlıq Qarabağ respublikası" adlı oyuncaq qurumun mövcud olmadığını Fransa parlamentarilərinin diqqətinə bir daha çatdıraraq, Azərbaycanın beynəlxalq səviyyədə tanınan ərazisi olan Qarabağ bölgəsində yaşayan erməniəsilli şəxslərlə bağlı məsələlərin ölkəmizin daxili işi olduğunu və heç bir ölkə ilə müzakirə edilməyəcəyini bəyan edirik;

- Azərbaycanın ərazi bütövlüyünün toxunulmazlığına qarşı növbəti addım atmaq əvəzinə, Fransa parlamentarilərini ilk öncə öz hökumətini müstəmləkəçilik siyasətindən əl çəkməyə və artıq uzun müddətdir ki, müstəqilliyi uğrunda mübarizə aparan Yeni Kaledoniyanın azadlığını təmin etməyə çağıran qətnamə qəbul etməyə dəvət edirik;

- Qəmər Adaları İttifaqının ərazisi olan Mayotla bağlı BMT Baş Assambleyasının 1994-cü il 6 dekabr tarixli A/Res/49/18 nömrəli qətnaməsində Baş Assambleya Qəmər Federativ İslam Respublikasının Mayot adası üzərində suverenliyini bir daha təsdiq etmiş, Fransa hökumətini Qəmər arxipelaqının 1974-cü il dekabrın 22-də öz müqəddəratını təyinetmə referendumu ərəfəsində Qəmər adalarının ərazi bütövlüyünə hörmət edəcəyinə dair götürdüyü öhdəlikləri yerinə yetirməyə çağırmışdır. BMT-nin əlaqədar qətnamələrinə məhəl qoymayan və beynəlxalq hüquqa hörmət etməyən Fransanı sözügedən qətnamələri icra etməyə çağırırıq;

- Fransanı törətdiyi insanlığa qarşı cinayətləri və müharibə cinayətlərini tanımağa, vəhşiliklər törətdiyi xalqlardan üzr istəməyə, həmçinin təbii sərvətlərindən talan etdiyi dövlətlərə kompensasiya ödəməyə çağırırıq;

- Fransa parlamentarilərini öz hökumətini ölkədə artmaqda davam edən irqçi, antisemit, türkofob və islamofob təzahürlərin qarşısını almaq üçün siyasi iradə nümayiş etdirməyə və bu halların qarşısını almağa yönələn qətnamə qəbul etməyə dəvət edirik. Fransa Parlamentinin deputatı Karlos Martens Bilonqoya (Carlos Martens Bilongo) qarşı qanunvericilik orqanında açıq irqçi şüarların səsləndirilməsi bu ölkədə irqçiliyin təhlükəli həddə olduğunu bir daha sübut edir.

Azərbaycan Respublikasının Milli Məclisi yuxarıda şərh olunanları, xüsusilə Fransanın davamlı anti-Azərbaycan fəaliyyətini nəzərə alaraq, Azərbaycan Respublikası Hökumətinə aşağıdakı tədbirlərin görülməsi ilə bağlı çağırış edir:

1. Fransa Hökuməti tərəfindən bitərəflik təminatı verilməyənədək onun Azərbaycan ilə Ermənistan arasında normallaşma prosesi ilə bağlı təşəbbüs və fəaliyyətlərdə iştirakına imkan verilməməsi, bu məsələlər barəsində Fransa rəsmiləri ilə hər hansı müzakirənin aparılmaması.

2. Fransa rəsmilərinin Azərbaycanda hər hansı aktivlərinin aşkar edildiyi təqdirdə onların dondurulması.

3. Fransa şirkətlərinin Azərbaycan dövlətinin sifarişi ilə həyata keçirilən hər hansı layihədə iştirakına yol verilməməsi.

4. Fransa şirkətlərinin Azərbaycan tərəfi ilə enerji sektorunda əməkdaşlığına yenidən baxılması.

5. Azərbaycan Respublikası ilə Fransa Respublikası arasında mövcud olan siyasi və iqtisadi münasibətlərə yenidən baxılması.

6. Qoşulmama Hərəkatının Sədri kimi Fransanın müstəmləkəçilik siyasəti, insanlıq əleyhinə cinayətləri və hərbi cinayətləri ilə bağlı məsələlərin beynəlxalq təşkilat çərçivəsində qaldırılması.

7. Fransanın islamofobiya siyasəti məsələsinin İslam Əməkdaşlıq Təşkilatı çərçivəsində gündəliyə çıxarılması.

8. Fransanın türkofobiya siyasəti məsələsinin Türk Dövlətləri Təşkilatı çərçivəsində gündəliyə çıxarılması.

Bəyanat Azərbaycan Respublikası Milli Məclisinin 2022-ci il 16 noyabr tarixli iclasında qəbul edilib.

# Tarixin yaralarına toxunmayın



Azərbaycanın Vətən savaşından sonra bölgədə Türkiyə-Azərbaycan İttifaqının söz sahibinə çevrilməsi, Türk Dövlətləri Təşkilatının yeni beynəlxalq güc mərkəzi kimi ortaya çıxması anti-türk qüvvələri hərəkətə gətirib.

Təəssüflər olsun ki, bu sırada bəzi xristian Qərb dövlətləri ilə yanaşı, adını islam respublikası qoyan cənub qonşumuz İran da yer alıb. Minlərlə müsəlmanı qətlə yetirən, məscidləri murdarlayan erməni hökuməti ilə can bir qardaşlıq nümayiş etdirən Tehranın parlament üzvləri etdikləri əməllərdən xəcalət çəkmək əvəzinə bu günlərdə tamam əndazəni aşaraq sərsəm bəyanatlar səsləndiriblər. Belə ki, bir qrup iranlı deputat Azərbaycan Prezidenti İlham Əliyevin Türk Dövlətlərinin 9-cu Sammitində Azərbaycanın hüdudlarından kənarda yaşayan azərbaycanlıların dil hüquqları haqqında fikirlərindən əndişələnib. Onlar Azərbaycan Prezidentinə Azərbaycan Respublikasının İranın bir hissəsi olduğunu, Şimali Azərbaycan ərazisinin Gülüstan müqaviləsinə əsasən İrandan ayrıldığını səsləndiriblər. Fars dilində tarixi səhv edən bu mandat sahibləri siyasi normaları da pozublar. Bu kəslərə xatırladıram ki, bu müqavilələr nəticəsində 50 milyonluq Azərbaycan türkü ikiyə bölünüb. Siz bu müqavilələrin adlarını xatırlatmaqla güneydə yaşayan 30 milyonluq xalqın hisslərinə toxunursuz. Həm Gülüstan, həm də Türkmənçay müqaviləsi imzalanandan sonra bir neçə dəfə ləğv olunub. 1921-ci ildə sovet Rusiyası çar Rusiyasının imzaladığı bütün müqavilələrin birtərəfli qaydada ləğv olunduğunu elan edib. Bundan başqa, Azərbaycan Xalq Cümhuriyyətinin yaranması ilə bu müqavilə ləğv olunub və İran Azərbaycanın ərazisi ilə bir yerdə onun varlığını tanıyıb. Yeri gəlmişkən, 1919-cu ildə Paris sülh konfransında İran torpaq iddiası ilə çıxış edib və Avropalılar bu iddianı dilinə gətirən İran nümayəndəsini otaqdan qovublar. Təbii ki, o müqavilə çoxdandır tarixi hadisəyə çevrilib. Ona görə də bu gün o haqda danışmaq siyasi hoqqabazlıqdır və yalnız daxili auditoriya üçün təbliğati əhəmiyyət daşıya bilər.

Şimali Azərbaycan, yəni indiki Azərbaycan Respublikasının vətəndaşları da Türkmənçay və ya Gülüstan müqavilələrini tarixin zorakı olayı kimi xatırlayır və unutmurlar. Çünki bu müqavilə ilə parçalanan bizim vətənimizdir. Tarix bütün həqiqətləri öz yerinə qoyan ən böyük hakimdir. Şimali Azərbaycan öz müqəddəratını çoxdan müəyyən edib. Güney Azərbaycanda yaşayan soydaşlarımız da "Haray, haray, mən türkəm" deyərək, iranlı olmadıqlarını bildirir və milli kimliyini dünyaya bəyan edirlər. Amma İran deyilən bir zindanda olmağı heç farslar özləri də istəmirlər və bu gün İranda baş verənlər də bunun təsdiqidir. Azərbaycan Prezidentinin fikirləri isə tam yerində olan bir bəyanat idi. Bir neçə il öncə cənab İlham Əliyev "mən təkcə Azərbaycan Respublikasında yaşayan xalqın yox, bütün dünyada yaşayan 50 milyon azərbaycanlının prezidentiyəm" demişdi. Hazırkı dövrə kimi harada yaşamasından asılı olmayaraq, öz vətəndaşlarının hüquqlarını qorumaq, təhlükəsizliyini təmin etmək üçün qarşısında duran vəzifələri yerinə yetirən Azərbaycan dövləti bundan sonra dünyanın ayrı-ayrı ölkələrində yaşayan azərbaycanlıların hüquqlarının müdafiəsi, təhlükəsizliyinin təmin olunması, milli kimliyinin qorunub saxlanması vəzifəsini icra etməyə hazır olduğunu bəyan edir.

Yeri gəlmişkən, Güney Azərbaycanın bütün şəhərlərində Azərbaycan Prezidenti İlham Əliyevin fotosu olan və üzərinə "Güney Azərbaycan arxanızdadır, cənab Prezident!" yazılmış plakatlar divarlara vurulub. Bu, millətin ruhunun, ideyasının və liderinin bir olduğunu təsdiqləyir!

**Fəzail İBRAHİMLİ,**
***Milli Məclis Sədrinin müavini***

# Azərbaycan QHT-ləri Ermənistanın uşaqları hərbi əməliyyatlara cəlb etməsi ilə bağlı BMT Baş katibinin xüsusi nümayəndəsinə bəyanat ünvanlayıblar

Azərbaycanda fəaliyyət göstərən qeyri-hökumət təşkilatları BMT Baş katibinin uşaqlar və silahlı münaqişələr üzrə xüsusi nümayəndəsi xanım Vircinia Qambaya Ermənistan tərəfindən 15 yaşına çatmayan şəxslərin hərbi əməliyyatlarda istifadə edilməsi, azərbaycanofobiya ruhunda tərbiyə olunması ilə bağlı bəyanat ünvanlayıblar.

AZƏRTAC xəbər verir ki, bəyanatda İkinci Qarabağ müharibəsi zamanı uşaqların Ermənistan tərəfindən birbaşa hərbi əməliyyatlara, həmçinin "VOMA", "POGA" və "Mets Tiqran" kimi hərbi təşkilatlar tərəfindən hərbi təlimlərə cəlb olunmasına etiraz ifadə edilib.

Qeyd olunub ki, Ermənistan 15 yaşına çatmayan uşaqları hərbi əməliyyatlara cəlb etməklə təkcə Cenevrə Konvensiyasının müvafiq bəndlərini deyil, eyni zamanda BMT Baş Assambleyasının 1989-cu il noyabrın 20-də keçirilən 44-cü sessiyasında qəbul edilən Uşaq Hüquqları haqqında konvensiyanın 38-ci maddəsini də kobud şəkildə pozur. Belə ki, konvensiya iştirakçı dövlətləri silahlı münaqişələr zamanı uşaqlarla bağlı beynəlxalq humanitar hüquq normalarına ciddi riayət etməyə çağırır, xüsusilə 15 yaşına çatmayan şəxslərin hərbi əməliyyatlarda birbaşa iştirakını qadağan edir və bunun üçün bütün tədbirlər görməyə dəvət edir.

Bildirilib ki, Ermənistan yetkinlik yaşına çatmayan şəxsləri məcburi şəkildə hərbi münaqişəyə cəlb edərək nəinki uşaqların təhsil, inkişaf və digər hüquqlarını pozur, ümumiyyətlə, onları ölümə göndərir. Döyüş meydanında heç bir qanun tanımayan Ermənistan dövləti çoxsaylı beynəlxalq qanunları, o cümlədən BMT-nin, UNICEF-in Paris Konvensiyasının uşaq hüquqları ilə bağlı konvensiya və normalarını heçə sayır.

"Ermənistanın uşaqları hərbi təlimlərə açıq şəkildə cəlb etməsi bir daha onu göstərir ki, işğalçı dövlət regionda etimad quruculuğuna ehtiyac duyulan dövrdə azərbaycanlılara nifrət aşılamaqla davamlı sülhün bərqərar olmasına maneçilik törədir, beynəlxalq hüququn prinsiplərinə hörmət etmir və özünün beynəlxalq öhdəliklərinə etinasız yanaşır. Ermənistan hökumətinin rəhbəri və üzvləri tərəfindən insanlığa zidd olan müharibə cinayətlərini özündə əks etdirən qərarlara konvension normalara uyğun olaraq hüquqi qiymət verilməli və məsuliyyət müəyyənləşdirilməlidir", - deyə bəyanatda vurğulanıb.

Bəyanat 48 QHT tərəfindən imzalanıb.

1992
2022

# YENİ AZƏRBAYCAN PARTİYASI

*milli etimadın və siyasi həmrəyliyin ali ünvanıdır*

30

**Tarixinin ən qüdrətli dövrünü yaşayan, torpaqlarını hərbi yolla azad edən, davamlı və mütərəqqi islahatlarla inkişaf edən müasir Azərbaycan dövləti bu gün dünyanın harasında yaşamasından asılı olmayaraq hər bir azərbaycanlının fəxarət ünvanıdır. Azərbaycanın Qafqazın lideri statusunu daşıması, dünya birliyində söz sahibi, özünün aydın və cəsarətli mövqeyi olan, müstəqil siyasət yürüdən dövlət kimi tanınması hər birimizi dərindən qürurlandırır. Xəritədə kiçik görünsək də, güclü dövlətimizin, qüdrətli dövlətçiliyimizin olması xalq olaraq ən böyük nailiyyətimizdir.**




# Qələbələr partiyası

Dönüb geri baxanda, qısaca tarixə ekskurs edəndə bizi bu günlərə gətirən tarixin təməlində nə qədər gərgin zəhmətin, vaxtında qəbul olunmuş müdrik siyasi qərarların, zamanında atılmış əzəmətli addımların dayandığını görürük. Ən əsası, keçdiyimiz yollara, qazandığımız uğurlara nəzər yetirdikcə öz əməlləri ilə xalqımızın Ümummilli Liderinə çevrilən Heydər Əliyev şəxsiyyətinin böyüklüyü, onun dühasının əzəməti gözümüz önündə canlanır…

Yaxşı xatırlayırıq, bir vaxtlar Azərbaycan hakimiyyətində təmsil olunan qüvvələr Heydər Əliyevin yeni müstəviyə qaldırdığı milli-azadlıq hərəkatına qənim kəsiləndə Ulu Öndər 1990-cı ildə Naxçıvanda üçrəngli bayrağımızı ucaltmış, Naxçıvanın adından "sovet" və "sosialist" sözlərinin çıxarılmasına nail olmuşdu. Həmin hakimiyyət 1991-ci ildə SSRİ-nin yaşaması üçün referendumların nəticələrini saxtalaşdıranda, Heydər Əliyev Naxçıvanda, ümumiyyətlə, belə bir referendumun keçirilməsinə imkan verməmişdi.

Müstəqillik illərində isə çevriliş yolu ilə hakimiyyəti ələ alan qüvvələr ölkəmizi uçuruma aparanda Heydər Əliyev blokada vəziyyətində olan və düşmən qarşısında yalnız qalmış Naxçıvanı qətiyyətlə qoruyur, ermənilərin bu qədim yurdumuzla bağlı işğalçılıq planlarının qarşısını böyük fədakarlıqla alırdı. Bununla yanaşı, Heydər Əliyev həmin böhranlı vəziyyətlərdə həm də Azərbaycanın hələ bərkiməmiş müstəqilliyinin qorunmasının, dövlətçiliyimizin möhkəmləndirilməsinin, bütövlükdə respublikamızın düşdüyü ağır vəziyyətdən, üzləşdiyi təhlükələrdən qurtuluş yollarını müəyyən edirdi. Əlbəttə ki, xalqımız, cəmiyyətimizin bütün zümrələri bunu görür və dəyərləndirirdilər. Bu mənada ziyalıların Heydər Əliyevə müraciəti və 30 il əvvəl - 1992-ci il noyabrın 21-də Naxçıvanda Yeni Azərbaycan Partiyasının təsis olunması və siyasi meydana çıxması da məhz Ulu Öndərin rəhbərliyi ilə Azərbaycanın xilasına olan inamın dərin təcəssümü idi.

Bəli, Heydər Əliyevin rəhbərliyi ilə Yeni Azərbaycan Partiyasının yaradılması təşəbbüsü təbəddülatlarla dolu bir dövrün siyasi və sosial zərurəti, xalqın arzularının ifadəsi kimi meydana çıxmışdı. Artıq 1992-ci ildə hər kəsə gün kimi aydın idi ki, vəziyyət bu cür davam edərsə, ölkədəki xaos və anarxiya aradan qaldırılmasa, dövlətin idarəçiliyindəki qüsur və nöqsanlara, ciddi boşluqlara, pərakəndəliyə son qoyulmasa, hələ kövrək olan müstəqilliyimiz əldən gedəcək, xalqımız Xalq Cümhuriyyətinin taleyini yaşamağa məhkum olacaq. Daha faciəli ssenarilərin baş verməsi ehtimalları da yaranmışdı ki, bunlardan da biri baş qaldırmaqda olan separatizm meyillərinin nəticəsi kimi dövlətin parçalanması təhlükəsi idi.

Bütün bunlara görə dövlətimizin, cəmiyyətimizin sabahını düşünən hər kəs narahat idi. Ən əsası da o idi ki, insanlar meydanda və iqtidarda olan bütün siyasi qüvvələrə etibarlarını və inamlarını itirmişdilər. Ona görə Heydər Əliyevin rəhbərliyi ilə bütün xalqı təmsil edəcək yeni bir partiyanın meydana daxil olması sosial və siyasi sifariş, tarixi zərurət idi. Xalq Heydər Əliyevə inanır və güvənirdi. Bu baxımdan 1992-ci ilin oktyabr ayında Azərbaycanın tanınmış ziyalılarının Heydər Əliyevə ünvanladıqları müraciət yalnız onların deyil, bütün xalqımızın istək və arzusunun ifadəsi kimi tariximizə həkk olunub. Müraciətdə deyilirdi: "Möhtərəm Heydər bəy! İndiki vəziyyətdə bu çətin, məsuliyyətli işi respublikada öz üzərinə götürməyə qadir yeganə şəxs Sizsiniz! Uzun illər əldə etdiyiniz dövlət quruculuğu təcrübələrinizə əsaslanaraq Siz qısa müddətdə Azərbaycanda geniş xalq kütləsini əhatə edəcək çox böyük, güclü, nüfuzlu və işlək bir partiya yaratmağa qadirsiniz. Buna görə də Azərbaycanın demək olar ki, bütün bölgələrində aparılan ictimai rəy sorğularının nəticələrinə və bizim təşkilat komitəsinə daxil olan minlərlə şifahi və yazılı vətəndaş təkliflərinə əsaslanaraq belə bir qənaətə gəlirik ki, yaratmaq istədiyimiz Yeni Azərbaycan Partiyasına bu gün rəhbərlik etməyə qadir olan yeganə mütləq lider Siz ola bilərsiniz və yalnız bu halda yaranmaqda olan partiya öz qarşısına qoyduğu məqsədə çatar, respublikanın bütün zümrələrdən olan xalq kütləsini öz ətrafında birləşdirərək Azərbaycanın siyasi, iqtisadi həyatında mövcud olan boşluğu doldurar, dövlət quruculuğu işlərində öz layiqli töhfəsini verə bilər. Əminik ki, Yeni Azərbaycan Partiyası müdrik ağsaqqalımız Heydər Əliyevin ətrafında birləşəcək dərin zəkalı, təmiz əxlaqlı, yüksək mədəniyyətli, müstəqil düşüncəli, milli qürurlu, peşəkar insanların siyasi partiyasına çevriləcəkdir. Əgər bu partiyanın bünövrəsini Sizin kimi güclü dövlət xadimi qoyarsa, o, uzun illər xalqımızın bir neçə nəsli üçün də siyasi yetkinlik məktəbi olar".

1992-ci ildə hakimiyyətdə olan qüvvələr də Heydər Əliyevi yaxşı tanıyır, onun cəmiyyətdə, insanlar arasında yüksək nüfuza malik olduğunu aydın başa düşürdülər. Ziyalıların müraciətindən sonra isə cəbhəçilər Heydər Əliyevi Naxçıvan Ali Məclisinin sədri vəzifəsindən kənarlaşdırmağa cəhd etdilər. Lakin niyyətlərinə nail ola bilmədilər, çünki Naxçıvan sakinlərinin, bütövlükdə xalqın Heydər Əliyevə olan ehtiram və dəstəyinin qarşısında istənilən cəhd əbəs idi. O dövrü Heydər Əliyev belə xatırlayırdı: "1992-ci ilin oktyabr ayında, biz Naxçıvanda ağır şəraitdə yaşadığımız zaman bəziləri bunu da bizə çox gördülər, Naxçıvanda dövlət çevrilişi etmək istədilər. Xalq Cəbhəsinin böyük bir silahlı dəstəsi Daxili İşlər Nazirliyini zəbt etdi, televiziyanı zəbt etdi. Onların bəzi nümayəndələri televiziya ilə xalqa müraciət edib bizi devirmək çağırışları ilə çıxış etdilər. Ancaq heç bir şey edə bilmədilər. Çünki xalq bizimlə idi. Mən o vaxt hər bir rabitədən məhrum olduğum üçün bir çox vətənpərvər insanlar avtomobillərlə dərhal şəhərin məhəllələrinə, ətraf kəndlərə, başqa kəndlərə gedərək, insanları Ali Məclisin qarşısına dəvət edirdilər. Bir neçə saat içərisində Naxçıvanın 20 minə qədər qeyrətli, namuslu kişiləri, qadınları, gəncləri, ağsaqqalları toplaşdılar və sinələrini irəliyə verib Naxçıvanın ovaxtkı Ali Məclisini və Heydər Əliyevi müdafiə etdilər".

O dövrdə Heydər Əliyevə müraicətlər edən, Naxçıvana Ulu Öndərlə görüşməyə gedən insanlar da hədəfə götürülürdü. Mətbuatda Heydər Əliyevlə bağlı yazıların dərcinə qadağa qoyulmuşdu. Bütövlükdə, Heydər Əliyevə rəğbət bəsləyən hər kəsə qarşı bir təzyiq, hətta təhdid vardı. Lakin bu yola çıxan, Heydər Əliyevin ətrafında birləşən insanlar öz siyasi əqidələri yolunda, Ulu Öndərin yolunda heç nədən çəkinmədilər, əyilmədilər.

1992-ci il noyabrın 21-də Naxçıvanda Azərbaycanın müxtəlif bölgələrindən olan təəssübkeş qruplarını təmsil edən 550 nəfərdən artıq nümayəndənin iştirakı ilə keçirilən Yeni Azərbaycan Partiyasının təsis konfransı Heydər Əliyevin rəhbərliyi altında dövlətimizin gələcəyi uğrunda siyasi mübarizənin təntənəsi və Azərbaycanın siyasi həyatının ən böyük hadisəsi oldu. Hakimiyyət orqanlarının təzyiqlərindən, təhdid və hədələrindən çəkinməyən insanlar Ulu Öndərin rəhbərliyi ilə öz arzularını cəsarətlə reallığa çevirdilər.

Yeni Azərbaycan Partiyası 1992-ci ildə müxalifət partiyası kimi meydana çıxmışdı. Lakin YAP-ın müxalifət partiyası kimi fəaliyyəti ən sivil və demokratik mübarizə metodlarına əsaslanırdı. YAP-ın müxalifət partiyası kimi fəaliyyət məramı yalnız və yalnız dövlətçilik və xalqın milli maraqları üzərində bərqərar olmuşdu. Bu baxımdan YAP bu gün özünü müxalifət hesab edən, vaxtilə iqtidarda olmuş bəzi qaragüruh qruplar kimi dövlətə və onun maraqlarına qarşı deyildi. Təsis konfransında giriş nitqi ilə çıxış edən Heydər Əliyev bildirmişdi ki, Yeni Azərbaycan Partiyasının hər bir üzvünün borcu dövlətin ərazi bütövlüyünü, müstəqilliyini, ictimai asayişi qorumaq, qanunlara tabe olmaq, iqtidarla sivil müxalifətçilik etmək, mübarizəni dövlətə qarşı aparmamaq, ölkənin mənafeyini bütün maraqlardan üstün tutmaqdır.

Göründüyü kimi, partiyamız yarandığı andan ən sağlam təməllər, milli və dövlətçilik prinsipləri üzərində bərqərar olmuşdu və təbii ki, Heydər Əliyev kimi bir şəxsiyyətin rəhbərlik etdiyi siyasi təsisat başqa cür ola da bilməzdi.

YAP-ın yaranmasından sonra partiyadaxili təşkilatlanma proseslərinin sürətlə getməsi bir daha məlum həqiqətin - xalqın Heydər Əliyevə olan inamının və etimadının təsdiqi oldu. Çünki yaranmasından qısa müddət sonra artıq YAP-ın sıralarında on minlərlə üzv var idi. Bu həm də insanların hakimiyyətdə olan, Azərbaycanı uçuruma aparan, müstəqilliyimizi və dövlətçiliyimizi məhvə yuvarlayan qüvvələrə qarşı olmasının təsdiqi idi.

1992-1993-cü illərin məlum ağır hadisələri, ölkəni başına almış anarxiya və siyasi böhranın nəticəsi olaraq xalq təkidlə Heydər Əliyevi hakimiyyətə dəvət etdi. Ulu Öndərin respublikamıza rəhbərliyə gəlişi ilə YAP-ın da siyasi statusunda dəyişiklik baş verdi. Xalqın Heydər Əliyevə olan dərin etimadının və inamının nəticəsi kimi YAP da yarandıqdan qısa müddət sonra hakim partiyaya çevrildi. YAP həm də Ümummilli Liderin siyasi və ideoloji irsinin, dövlətçilik təcrübəsinin və quruculuq fəaliyyətinin harmoniyasını özündə əks etdirməklə, ölkənin siyasi səhnəsinin ön cərgəsində özünə layiqli yer tutdu.

Ötən 30 ildə ölkəmizdə baş verən dəyişikliklər həm də YAP-ın uğurlarıdır. Azərbaycanın keçdiyi inkişaf yolu, xalqın rifahının yüksəlişi həm də YAP-ın elan etdiyi məramların həyata vəsiqə almasıdır. Bütün bunların nəticəsi kimi YAP-ın sıraları ildən-ilə genişlənib və artıq üzvlərinin sayı 773 min nəfəri ötən partiyamız yalnız Azərbaycanın deyil, bütün regionun ən böyük siyasi təşkilatıdır.

YAP-a olan inam və etimad bütün seçkilərdə də özünü göstərib. 1993-cü ildən indiyə qədər respublikamızda altı dəfə prezident, altı dəfə parlament, altı dəfə bələdiyyə seçkiləri keçirilib. Fəxarət hissi ilə qeyd etməliyik ki, bu seçkilərin hər birində YAP üzvlərinin uğur qazanması xalqımızın Heydər Əliyev partiyasına inamının və etibarının təsdiqi kimi tarixə düşüb.

Xüsusilə qeyd etməliyik ki, ilk dəfə 2003-cü ildə xalqın etimadını qazanan cənab İlham Əliyevin sonrakı bütün seçkilərdə də uğur qazanması partiyamızın tarixi siyasi qələbələridir. Eyni zamanda ötən 19 ildə cənab İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanın yüksəlişi, sosial-iqtisadi sferada baş verən keyfiyyət dəyişiklikləri, cəmiyyətimizin xoş ovqatının təmin olunması, həm də YAP-ın mövqelərini daha da möhkəmləndirən ən mühüm amillərdir. Birmənalı şəkildə deyə bilərik ki, cənab İlham Əliyevin siyasi lider kimi dünydakı yüksək nüfuzu həm də YAP-ın nüfuzudur. Məhz İlham Əliyevin müdrik fəaliyyəti ilə YAP-ın sosial dayaqları daha sarsılmaz olub, partiyamızı ən güclü siyasi təşkilata çevirib.

YAP-ın tarixində əlamətdar hadisələr çoxdur. Bu sırada partiyamızın indiyədək keçirilmiş qurultayları yalnız siyasi müstəvidə deyil, həm də ölkəmizin tarixində mühüm siyasi hadisələr kimi yadda qalıb. Hər bir qurultay partiyamızın tarixində silinməz iz qoyub. Bu baxımdan 2005-ci ilin mart ayında keçirilən və cənab İlham Əliyevin Yeni Azərbaycan Partiyasının sədri seçildiyi III Qurultay bütövlükdə partiyanın fəaliyyətində yeni mərhələnin başlanğıcı oldu. Ulu Öndər Heydər Əliyevin ən layiqli davamçısı, onun şərəfli irsinin daşıyıcısı kimi möhtərəm İlham Əliyevin Yeni Azərbaycan Partiyasının Sədri seçilməsi tək YAP üzvlərinin deyil, həm də partiyamızın milyonlarla təəssübkeşi tərəfindən rəğbətlə qarşılandı. Bir daha təsdiq olundu ki, partiyamızın üzvləri və bütövlükdə Azərbaycan xalqı Heydər Əliyev ideyaları ətrafında sıx səfərbərdirlər.

Hazırda Yeni Azərbaycan Partiyasının sıralarında cəmiyyətimizin bütün zümrələri birləşiblər. Partiyamızın Ağsaqqallar Şurası, Gənclər Birliyi bütövlükdə ölkəmizin siyasi həyatında fəal rol oynayır, respublikamızda milli birliyin möhkəmlənməsinə, cənab İlham Əliyevin həyata keçirdiyi siyasi kursun daha böyük uğurlar qazanmasına layiqli töhfələr verirlər.

2020-ci ilin Vətən müharibəsində möhtərəm Prezident İlham Əliyevin Müzəffər Ali Baş Komandanlığı ilə qazandığımız qələbə, torpaqlarımızın azad olunması və ərazi bütövlüyümüzün bərpa edilməsi həm də Heydər Əliyev ideyalarının zəfəri oldu. Bu qələbə YAP-ın rəhbər tutduğu məramların, məqsədlərin, dəyərlərin təntənəsidir. Ona görə Yeni Azərbaycan Partiyası yaranmasının 30 illiyini daha yüksək və daha xoş ovqatla qarşılayır. Başqa cür desək, indi biz YAP-ın yaranmasının yubiley ildönümünü həm də döyüş meydanında qalib gəlmiş xalqın partiyası kimi qarşılayırıq.

Prezident, Yeni Azərbaycan Partiyasının Sədri İlham Əliyev 5 il əvvəl - 2017-ci il noyabrın 14-də keçirilən Yeni Azərbaycan Partiyasının yaradılmasının 25 illiyinə həsr olunmuş təntənəli yubiley mərasimində deyib: "Bu gün Azərbaycanda bizim partiyamıza rəqib ola biləcək hər hansı bir siyasi qüvvə mövcud deyil. Yeni Azərbaycan Partiyası, sözün əsl mənasında, ümumxalq partiyasına çevrilibdir. Cəmiyyətimizin bütün təbəqələri partiyamızda birləşib. Buna baxmayaraq, biz həmişə qabağa baxmalıyıq və əldə edilmiş uğurlarla kifayətlənməməliyik".

*Ötən 5 ildə Yeni Azərbaycan Partiyasının fəaliyyətində baş verən keyfiyyət dəyişiklikləri göstərir ki, möhtərəm İlham Əliyevin tövsiyələrini və tapşırıqlarını öz fəaliyyətində rəhbər tutan YAP siyasi təşkilat olaraq inkişaf edir, sıralarını möhkəmləndirir. Yaranmasının 30 illiyini qələbələrlə, uğurlarla qarşılayan partiyamız bundan sonra ölkəmizin siyasi həyatında fəal rol oynayacaq, Heydər Əliyev ideyalarının uğurla reallaşmasına, Prezident İlham Əliyevin yürütdüyü siyasətə və ölkəmizdə aparılan islahatlara və inkişaf proseslərinə özünün layiqli töhfələrini verəcək.*

**Ziyafət ƏSGƏROV,**
***Milli Məclisin Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin sədri***

# YAP haqqın səsidir

XX əsrin 80-ci illərinin sonu, 90-cı illərinin əvvəllərində Azərbaycanın çox ağır, mürəkkəb və ziddiyyətli bir dövrü idi. Xalq Cəbhəsinin hakimiyyəti dövründə ölkədə dərəbəylik, özbaşınalıq hökm sürürdü, hərc-mərclik, satqınlıq baş alıb gedirdi.

Bir-birinin ardınca baş verən hakimiyyət dəyişmələri, təsadüfi və ləyaqətsiz adamların, heç bir təcrübəsi olmayan quldur dəstə başçılarının hakimiyyətə yiyələnmələri, vəzifədən sui-istifadə, reketçilik, terror, adam oğurluğu və digər cinayətlər ölkədə adi hala çevrilmişdi. Dəhşətlisi də o idi ki, ölkənin varidatı sürətlə talan edilirdi. Doğma torpaqlarımız hərraca qoyularaq satqınların, erməni faşistləri ilə əlbir olan xainlərin qurbanı olurdu. Milyonlarla insanlar şərəfsizlərin hakimiyyət və var-dövlət təxribatlarının girovuna çevrilir, ən adi halda öz doğma yurd-yuvalarından didərgin düşürdülər.

Bu dövrdə Azərbaycan öz tarixinin ən qanlı burulğanı içərisində çabalayırdı. Ölkədə sözün əsl mənasında, hakimiyyətsizlik idi. Bölgələrimizdə, paytaxtın ayrı-ayrı məhəllələrində faktiki olaraq silahlı quldur dəstələri hökmranlıq edirdilər. Xalqımız vahimə və təşviş içərisində idi.

Azərbaycanın belə bir fəlakət altında xalqımızın yeganə ümid yeri, dahi şəxsiyyət Heydər Əliyev idi. Müdrik xalqımız haqlı olaraq bu böyük siyasət adamının Azərbaycanda yenidən hakimiyyətə gəlməsini istəyirdi.

Tanrı xalqımıza Heydər Əliyev kimi müdrik bir şəxsiyyət verib. Misilsiz dövlət xadimi ən nadir, ən mürəkkəb, hətta çıxılmaz hesab olunan vəziyyətlərdən belə vətən üçün, doğma xalqından ötrü heç kəsin gözləmədiyi ən yaxşı yolu tapmaq bacarığı Ulu Tanrının ona bəxş etdiyi vergi idi.

Lakin xalqa yad ünsürlər bütün qüvvələrini səfərbər edirdilər ki, Heydər Əliyev Azərbaycanda yenidən hakimiyyətə gəlməsin. Onlar Heydər Əliyevə böhtanlar, iftiralar ataraq onu ləkələməyə, xalqın gözündən salmağa, hətta onun həyatına qəsd təşkil etməyə çalışırdılar. Qara qüvvələr hətta respublikamızın Ali Sovetinin sessiyalarında Heydər Əliyevin əleyhinə ayrı-ayrı deputatların qərəzli çıxışlarını da təşkil edirdilər. Nə Qorbaçov hakimiyyəti, nə Vəzirov hakimiyyəti, nə Mütəllibov hakimiyyəti, nə də Elçibəy hakimiyyəti - heç biri Heydər Əliyevi Azərbaycan xalqının qəlbindən çıxara bilmədi.

Həmin gərgin şəraitdə Heydər Əliyevi müdafiə etmək, onun həyatının təhlükəsizliyini, hüquqlarını qorumaq çox vacib idi. Hələ "91-lər"in Heydər Əliyevə müraciətindən xeyli əvvəl, Bakı Dövlət Universitetinin Siyasi tarix kafedrasının müdiri, professor Səfyar Musayevin rəhbərliyi ilə Heydər Əliyev müdafiəsi mərkəzi yaradılmışdı. O mərkəzdə Heydər Əliyevə, Azərbaycan xalqına son dərəcə sədaqətli və bu yolda hər dəqiqə canından keçməyə hazır olan ziyalılar toplanmışdı. Biz o mərkəzdə çox böyük, ağır və çətin işlər gördük. O dövr Heydər Əliyevə pənah gətirən böyük xalqla bir ovuc satqın qüvvələrin üz-üzə dayandığı günlər idi. Mən o günlərdə çox hadisələrin şahidi olmuşam. Onlardan yalnız birini xatırlamaq istəyirəm. Bakı Dövlət Universitetinin Siyasi tarix kafedrasında Heydər Əliyevin portreti kafedra müdiri Səfyar Musayevin başı üstündə, daha yaxşı görünən yerdə divardan asılmışdı. Heydər Əliyevin portreti universitetdə ciddi siyasi toqquşmaya səbəb oldu. Universitetin rektoru, akademik Mirabbas Qasımov göstəriş verdi ki, Heydər Əliyevin portretini kafedradan götürmək lazımdır. Səfyar Musayev buna qəti etirazını bildirdi. Onda rektor nəinki Siyasi tarix kafedrasının, universitetin bütün ictimai fənn kafedralarının qapılarını mismarlatdı və 1992-ci il yanvarın 4-də "İctimai fənlərin ləğv edilməsi barədə" əmr verdi. Nəticədə respublikamızın qocaman elm müəssisəsinin Siyasi tarix, Fəlsəfə, İqtisadi nəzəriyyə, Politologiya və s. kafedralar bağlandı. 128 müəllim heyəti bayıra atıldı.

Məhz belə çətin və ağır günlərdə biz Səfyar müəllimin başçılığı ilə rektorla mübarizədə nəinki Heydər Əliyevi müdafiə etdik, eyni zamanda ictimai fənn kafedraları və bu kafedranın kollektivi haqqında həyata keçirilən avantürist və çox zərərli hərəkətləri cəsarətlə ifşa etdik.

O hadisələrdən bir müddət sonra daxili işlər naziri vəzifəsində olan İsgəndər Həmidov daxili qoşunları silahla, sursatla, topla, tüfənglə, pulemyotlarla, qumbaralarla təmin edərək, onların Bakı Hava Limanından muxtar respublikaya uçub Naxçıvanı dağıdacağını elan etmişdi. Naxçıvanlıların həmin vaxt nə qədər ağır sarsıntı keçirdikləri məlumdur. İsgəndər Həmidovun böyük bir qüvvə ilə Naxçıvana uçmasının qarşısı çox çətinliklə alındı. Yəni çətinlik nədən ibarət idi? Naxçıvanın əhalisi sadəcə bəyan etdi ki, Naxçıvana enən hər bir təyyarə partladılacaqdır. Başqa bir əlac yox idi.

Daha sonra oktyabrın 24-də Naxçıvanda 300 nəfərdən artıq olan silahlı dəstə muxtar respublikanın ictimai asayişini qorumaq vəzifəsini daşıyan silahlı orqanını zəbt etdilər. Daha sonra onlar Naxçıvanın televiziya və radio mərkəzini işğal etdilər.

Görkəmli sərkərdə, dahi siyasətçi Heydər Əliyevin qətiyyətli və dəyanətli dərin düşünülmüş tədbirləri nəticəsində bütün xalqımızın köməyi ilə dövlət çevrilişi məqsədi gedən qəsdlərin qarşısı məharətlə alındı.

Böyük Heydər Əliyevin ənənələri Azərbaycanın istedadlı Prezidenti, praqmatik düşüncəli İlham Əliyev tərəfindən yaradıcı şəkildə davam etdirilir. Prezident İlham Əliyevin titanik fəaliyyəti nəticəsində Azərbaycan bütün sahələrdə yüksək sürətlə inkişaf edir.

**İsgəndər QULİYEV,**
***"91-lər"in üzvü,***
***YAP Veteranlar Şurasının üzvü***



# Azərbaycan-Albaniya münasibətlərində yeni mərhələ başlayır

## Prezident İlham Əliyevin bu ölkəyə dövlət səfəri əlaqələrin inkişafına güclü təkan verdi

*Əvvəli 1-ci səh.*

İki ölkə arasında siyasi dialoq daim yüksək səviyyədə olub. Albaniya prezidentləri ölkəmizə 5 işgüzar səfər, baş nazirləri isə 2 rəsmi və 2 işgüzar səfər ediblər.

Albaniyanın Baş naziri Edi Rama 2022-ci il aprelin 14-də Azərbaycana rəsmi səfər edib. Bu ölkənin keçmiş Prezidenti İlir Meta isə IX Qlobal Bakı Forumunda iştirak etmək üçün 2022-ci il iyunun 16-da Azərbaycana işgüzar səfərə gəlib.

İndiyədək Azərbaycan və Albaniya arasında 8 sənəd, həmçinin "Azərbaycan Respublikası Hökuməti və Albaniya Respublikası Hökuməti arasında iqtisadi, sənaye və texnoloji sahələrdə əməkdaşlıq haqqında Saziş" imzalanıb.

Onu da vurğulayaq ki, Albaniya 2022-2023-cü illər üzrə BMT Təhlükəsizlik Şurasının qeyri-daimi üzvüdür.

Enerji sahəsində əməkdaşlıq iqtisadi əlaqələrin əsas istiqamətidir. Azərbaycan ilə Albaniya "Cənub qaz dəhlizi"nin sonuncu seqmenti olan Trans-Adriatik Boru Kəmərinin (TAP) həyata keçirilməsində uğurla əməkdaşlıq edib. Albaniyanın yüksəksəviyyəli rəsmiləri (nazir və ya nazir müavini səviyyələrində) "Cənub Qaz Dəhlizi" Məşvərət Şurasının bütün iclaslarında iştirak edib və layihənin icrasına töhfə veriblər.

Ümumiyyətlə, TAP layihəsi üzrə Hökumətlərarası Saziş 2013-cü ilin fevral ayında Albaniya, İtaliya və Yunanıstan dövlətləri arasında imzalanıb və 2016-cı ilin mart ayından tikinti işləri başlayıb. 2020-ci ilin 31 dekabr tarixində TAP boru kəməri vasitəsilə kommersiya qazının nəqlinə başlanılıb. Albaniya podratçı şirkətləri TAP boru kəmərinin tikinti işlərində iştirak ediblər.

TAP layihəsinin həyata keçirilməsi çərçivəsində Albaniya öz tranzit imkanlarından faydalanması ilə yanaşı, layihənin icrası bu ölkədə məşğulluğun artmasına böyük töhfə verib, layihə həmçinin Albaniya üçün ÜDM və büdcə gəlirlərinin artımını təmin edib.

TAP-ın layihəsi ümumilikdə Albaniyaya 1,5 milyard avro dəyərində sərmayə yatırdıb. Layihə ömrü ərzində (tikinti və 25 il istismar mərhələsi dövründə) ölkəyə gözlənilən vergi ödənişlərinin həcmi 285 milyon avro dəyərindədir.

### Azərbaycanın 86-cı xarici ticarət tərəfdaşı

Həm Albaniya, həm də Azərbaycan ikitərəfli iqtisadi əməkdaşlığın, o cümlədən energetika sahəsində əlaqələrin daha da inkişaf etdirilməsinə maraq göstərir.

2021-ci ildə Albaniya Azərbaycanın 79-cu xarici ticarət tərəfdaşı olub. Həmin ildə ölkələrimiz arasında ticarət dövriyyəsinin həcmi 4,95 milyon dollar, o cümlədən idxalın həcmi 0,66 milyon, ixracın həcmi 4,29 milyon dollar təşkil edib, xarici ticarət saldosu isə müsbət 3,63 milyon dollar olub.

2020-ci illə müqayisədə, 2021-ci ildə Albaniya ilə ticarət dövriyyəsi 12,83 dəfə çox olub, o cümlədən idxal 70,47 faiz artıb, ixrac əməliyyatları bərpa edilib.

2022-ci ilin yanvar-sentyabr aylarında Albaniya Azərbaycanın 86-cı xarici ticarət tərəfdaşı olub. Ölkələrimiz arasında ticarət dövriyyəsinin həcmi 1,45 milyon dollar, o cümlədən idxalın həcmi 1,14 milyon, ixracın həcmi 0,31 milyon dollar təşkil edib.

Azərbaycanda tikinti və xidmət sahələrində fəaliyyət göstərən 3 Albaniya investisiyalı şirkət qeydiyyatdan keçib. 2019-cu il 26 noyabr tarixdə Albaniyada baş vermiş zəlzələnin fəsadlarının aradan qaldırılması məqsədilə Azərbaycan tərəfindən humanitar yardım olaraq 500 min avro ayrılıb.

### Qarşılıqlı iradənin təzahürü

Noyabrın 15-də prezidentlərin mətbuata birgə bəyanatları zamanı Bayram Beqay Azərbaycan Prezidentinin Albaniyaya səfərini əlaqələrin tarixində ilk mühüm dövlət səfəri olduğunu deyərək vurğuladı ki, belə yüksəksəviyyəli görüşlər münasibətlərin inkişaf etdirilməsində, xalqlarımız arasında əməkdaşlığın genişləndirilməsində qarşılıqlı iradənin təzahürüdür. Bu səfər həm də qarşılıqlı maraq doğuran əməkdaşlıq üçün yeni imkanlar yaradacaq.

Bayram Beqay həmçinin bildirdi ki, gələn il diplomatik münasibətlərin 30-cu ildönümü qeyd ediləcək: "Diplomatik əlaqələrin qurulmasının 30-cu ildönümünün qeyd edilməsinə gəldikdə, 2023-cü ildə biz əməkdaşlığımızın daha intensiv mərhələsinə qədəm qoyacağıq. Biz burada "Azərbaycan həftəsi"ni keçirmək niyyətindəyik. Əslində, bu tədbir ölkənizin burada mədəni baxımdan təşviq olunması üçün önəmlidir. Biz həmçinin burada ölkənizin səfirliyinin açılması ilə əlaqədar iradəsini bildirdiyinə görə Azərbaycan tərəfinə minnətdarıq və həmin addım ölkələrimiz arasında əməkdaşlığın yaxşı təzahürüdür".

Bayram Beqay Albaniyanın Azərbaycanın ərazi bütövlüyünü hər zaman dəstəklədiyini və BMT Təhlükəsizlik Şurasının qətnamələrinin icra olunmasına öz dəstəyini verdiyini söyləyərək dedi ki, hər iki ölkə arasında beynəlxalq təşkilatlarda, BMT-də, Avropa Şurasında məhsuldar əməkdaşlıq edilir.

Prezident İlham Əliyev qeyd etdi ki, bu səfər əlaqələrin inkişafına güclü təkan verəcək. Siyasi dialoqa gəldikdə isə, İlham Əliyev Albaniya prezidentlərinin əvvəlki illərdə Azərbaycana dəfələrlə səfərlərini xatırlatdı və vurğuladı ki, bu təmaslar siyasi dialoqun çox gözəl təzahürlərinin olduğunu və çox güclü dinamizmim mövcudluğunu təsdiqləyir.

### Azərbaycan 2027-ci ilə qədər Avropaya qaz təchizatını iki dəfə artırmaq fikrindədir

Azərbaycan Prezidenti TAP layihəsindən söz açaraq bildirdi ki, hər iki ölkə TAP layihəsinin üzvləridir və "Cənub qaz dəhlizi"nin icrasında çox önəmli rol oynayıblar. Azərbaycanın və Avropa İttifaqının sədrliyi ilə bu günə qədər keçirilmiş "Cənub Qaz Dəhlizi" Məşvərət Şurasının bir çox toplantılarında Albaniya nümayəndələri çox fəal iştirak ediblər.

Azərbaycan qazı Avropanın enerji təhlükəsizliyinə də öz töhfəsini verir. Bu ilin iyul ayında Azərbaycanla Avropa Komissiyası arasında enerji sahəsində strateji əməkdaşlıq üzrə anlaşma memorandumu imzalanıb. Həmin memorandum əsasında Azərbaycan 2027-ci ilə qədər Avropaya gedən qaz təchizatını iki dəfə artırmaq fikrindədir. Təbii ki, o qaz Albaniya ərazisindən keçəcək, beləliklə, Avropanın enerji təhlükəsizliyinə əlavə dəstək və töhfə veriləcək: "Bizim qaz ehtiyatlarımız çox zəngindir. Hazırda həm TAP, həm TANAP qaz kəmərlərinin iki dəfə genişləndirilməsi məsələsi müzakirə olunur. Yəni bu layihə - "Cənub qaz dəhlizi" cəmi iki ilə yaxındır ki, istismardadır. Amma artıq "Cənub qaz dəhlizi"nin ayrılmaz hissəsi olan bu hər iki kəmərin genişləndirilməsi müzakirə olunur. Yəni bu onu göstərir ki, buna böyük ehtiyac var, tələbat var. Azərbaycan Avropa İttifaqı rəsmiləri tərəfindən artıq etibarlı tərəfdaş kimi tanınır və qiymətləndirilir. Əlbəttə ki, biz də bu məsuliyyəti yaxşı başa düşürük".

İlham Əliyev Azərbaycanın həmçinin Albaniyada qaz təsərrüfatının inkişafına da töhfə verə biləcəyini qeyd edərək dedi ki, bu ölkədə indiyədək qaz şəbəkəsi yaradılmayıb. Azərbaycan bu sahədə də investor kimi iştirak edə bilər və buna hazırdır.

Göründüyü kimi, Azərbaycan Prezidenti hər zaman olduğu kimi, Albaniya səfərində də bir daha sözünə sadiq etibarlı tərəfdaş olduğunu və tam müstəqil siyasət yürütdüyünü göstərdi. Bu səfər Azərbaycanın Albaniya ilə əməkdaşlığında yeni səhifənin açıldığını bir daha təsdiqlədi. Eyni zamanda bir daha bəlli oldu ki, hazırda Avropanın əsas enerji tədarükçüsü Azərbaycandır. Çünki bugünkü dövrün şərtləri bunu tələb edir. Avropa İttifaqının Rusiya ilə münasibətlərində yaranan qarşıdurmada Qərbin əsas planlarından biri Avropa ölkələrinin Rusiyadan asılılığını aradan qaldırmaqdır. Bu siyasi xəttin icra olunmasında Azərbaycan Avropa üçün olduqca böyük önəm daşıyır. Ona görə də əminliklə deyə bilərik ki, tezliklə Azərbaycan Avropaya qaz təchizatını daha da artıracaq.

***Rəşad BAXŞƏLİYEV,***
***"Azərbaycan"***

YAP – 30

# Yeni Azərbaycan Partiyasının fəaliyyət proqramının əsasında Ulu Öndər Heydər Əliyevin siyasi xətti durur



1980-ci illərin sonlarından keçmiş SSRİ-nin bütün ərazisində geniş vüsət almağa başlamış və nəticə etibarı ilə sovet imperiyasının süqutuna və parçalanmasına səbəb olmuş məlum hadisələr müttəfiq respublikalarda xalq hərəkatlarının genişlənməsi fonunda müxtəlif siyasi təşkilat və partiyaların yaranması ilə müşahidə olunurdu.

Eynilə Azərbaycanda da bu proses gedirdi. Xalq azadlıq hərəkatının dalğaları üzərində müxtəlif qüvvələr şəxsi maraq uyğunluqları əsasında siyasi birliyə gəlir və partiyalar yaradırdılar. Lakin 1991-ci ildə ölkəmiz öz müstəqilliyini bərpa etdikdən sonra bu qüvvələrin və onların yaratdıqları siyasi partiyaların əsl məram və məqsədləri aşkar olunmağa başladı. İki il ərzində iqtidarda bir-birini əvəz edən bu qüvvələr nəticə etibarı ilə Azərbaycan dövlətçiliyinin məhvini planlamışdılar. Bir tərəfdən, erməni işğalı, digər tərəfdən də, daxili separatçılıq hərəkatları ölkəni vətəndaş müharibəsinin astanasına gətirmişdi. Azərbaycan kiçik xanlıqlara parçalanma təhlükəsi ilə üzləşmişdi.

Həmin dövrdə ölkədə bu proseslərə qarşı durmağa çalışan, Azərbaycan dövlətçiliyinin xilası üçün yollar düşünən mütərəqqi insanlar da var idi. Məhz bu insanlar dövlətin və xalqın yeganə xilas yolunun Ulu Öndər Heydər Əliyevin hakimiyyətə gəlişində olduğunu hamıdan yaxşı bilirdilər. Buna görə də Azərbaycanın yeni tarixində "91-lər" kimi qalmış məşhur ziyalılar yeni, yalnız xalqın və dövlətin maraqlarından çıxış edəcək bir siyasi partiya yaratmaq ideyası ətrafında birləşərək bu partiyaya rəhbərlik etmək təklifi ilə xalqın yeganə etimad bəslədiyi və ümid bağladığı dahi şəxsiyyətə, Ulu Öndər Heydər Əliyevə müraciət etdilər. Beləliklə, dövlətçilik tariximizin son dərəcə ağır və keşməkeşli günlərində, ölkənin ciddi sınaqlara məruz qaldığı bir dövrdə Yeni Azərbaycan Partiyası yarandı. "91-lər"in son dərəcə cəsarətli addımları nəticəsində həmin dövrdə ölkəmizin üzləşdiyi dağıdıcı proseslərin qarşısı alındı. Azərbaycan xalqının iradəsinə və maraqlarına, milli mənafelərimizin aliliyi prinsipinə əsaslanan Ulu Öndər Heydər Əliyevin siyasi xətti, Ümummilli Liderin ideyaları Yeni Azərbaycan Partiyasının sonrakı illərdə də fəaliyyət proqramının əsasında durdu. Məhz bu siyasətə sadiqlik, cəmiyyətimizdə bu gün yaşanan həmrəyliyin formalaşmasını təmin etdi.

1992-ci il noyabrın 21-də Naxçıvan şəhərində Yeni Azərbaycan Partiyasının təsis konfransı keçirildi və Ulu Öndər Heydər Əliyev partiyanın sədri seçildi. Yarandığı ilk gündən YAP-ın Ümummilli Lider Heydər Əliyev tərəfindən müəyyənləşdirilən və uğurla tətbiq edilən əsas proqram məramı Azərbaycanın dövlət müstəqilliyinin qorunub möhkəmləndirilməsindən, ərazi bütövlüyünün təmin edilməsindən, demokratik, hüquqi, dünyəvi cəmiyyət qurulmasından, əmin-amanlıq, ictimai-siyasi sabitlik, milli həmrəylik, güclü və sosialyönümlü iqtisadiyyat yaratmaqdan ibarət olub. Ulu Öndər Heydər Əliyev Yeni Azərbaycan Partiyasının yaradılmasının Azərbaycan üçün müstəsna əhəmiyyətini vurğulayaraq qeyd etmişdir ki, bu partiya bütün Azərbaycan xalqının mənafelərinə xidmət etmək, həmin ağır dövrdə ölkəmizin qarşısında duran taleyükül məsələlərin həll edilməsi üçün zamanın tələbinə uyğun olaraq, zərurətdən yaranmış bir partiyadır.

1993-cü ilin oktyabrın 3-də YAP-ın sədri Heydər Əliyevin Azərbaycan Respublikasının Prezidenti seçilməsi ilə partiyanın həyatında yeni dövr başladı. Partiyanın statusu yeni şəraitə uyğun olaraq dəyişdi, ölkənin siyasi həyatında tutduğu mövqeyi möhkəmləndi. Partiya getdikcə daha çox xalq kütlələrini əhatə etməklə aparıcı siyasi qüvvəyə çevrilməyə başladı. Həmin dövrdə respublikanın ictimai-siyasi həyatının bütün sahələrində tərəqqiyə nail olmaq məqsədilə fəallığını artıran Yeni Azərbaycan Partiyasının ilk addımları ölkədə siyasi sabitliyin bərpasına yönəldildi. 1993-cü ilin yayında Azərbaycanın vətəndaş müharibəsinin bir addımlığında durduğu bir vaxtda xalqın tələbi ilə hakimiyyətə gələn Ulu Öndər qısa müddət ərzində vəziyyəti sabitləşdirdi və bu, ölkənin xaosdan çıxaraq inkişaf yoluna qədəm qoymasına imkan verdi.

Ümummilli Liderin rəhbərliyi ilə Yeni Azərbaycan Partiyası qısa müddət ərzində geniş xalq kütləsinin dəstəyini qazandı. Əlbəttə ki, buna partiyanın Ulu Öndərin ideyaları əsasında tərtib olunmuş proqramında dövlət müstəqilliyinin möhkəmləndirilməsi, demokratik, hüquqi, dünyəvi dövlətin qurulması, vətəndaşların dinc və firavan həyatının təmin edilməsi kimi vəzifələrin prioritet elan olunması müstəsna təsir göstərdi.

Bu gün birmənalı olaraq qeyd edə bilərik ki, 30 illik fəaliyyəti dövründə sıralarını kəmiyyət və keyfiyyət baxımından daha da möhkəmləndirən Yeni Azərbaycan Partiyası həm ölkə daxilində cərəyan edən siyasi proseslərdə, həm də beynəlxalq əlaqələrdə böyük uğurlara imza atıb. 2003-cü ildən Yeni Azərbaycan Partiyasının inkişaf kursu möhtərəm Prezident İlham Əliyevin rəhbərliyi ilə ləyaqətlə davam etdirilib və nəticə olaraq YAP regionun ən böyük siyasi partiyasına çevrilib. Azərbaycan Respublikasının Prezidenti, Yeni Azərbaycan Partiyasının sədri cənab İlham Əliyevin rəhbərliyi ilə 44 günlük Vətən müharibəsində əldə olunmuş tarixi Zəfər isə Azərbaycan xalqının, eyni zamanda iqtidar partiyasının ən mürəkkəb və ən çətin, eyni zamanda ən ali məqsədini reallaşdırdı.

2021-ci il martın 5-də keçirilmiş Yeni Azərbaycan Partiyasının VII Qurultayı bütün ölkə üçün əlamətdar və son dərəcə önəmli ictimai-siyasi hadisə oldu. Bu qurultayı əlamətdar edən ən mühüm faktorlardan biri, əlbəttə ki, şanlı Azərbaycan Ordusunun 44 günlük Vətən müharibəsini Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə möhtəşəm tarixi Qələbə ilə sona çatdırması idi. Bu tarixi Qələbə nəticəsində Azərbaycan öz ərazi bütövlüyünü bərpa etdi və Cənubi Qafqazda yeni reallıqlar formalaşdırdı. Bu reallıqlar region və ölkəmiz üçün olduğu kimi, Yeni Azərbaycan Partiyası üçün də yeni çağırışlar yaratdı. Həmin tarixi gündən sonra keçmiş dövr ərzində gedən proseslərin təhlili də göstərir ki, YAP-ın VII Qurultayında qəbul olunmuş qərarlar partiyamızın fəaliyyətinin effektivliyinin artmasına və xalqın və dövlətin maraqlarına daha səmərəli xidmət etməsinə ciddi zəmin yaratmışdır.

Bu gün ölkəmizdə davamlı olaraq müşahidə olunan dinamik inkişaf, sürətlə dəyişən reallıqlar və müəyyən olunan yeni obyektiv amillər Yeni Azərbaycan Partiyasının sədri, ölkə Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən genişmiqyaslı islahatların effektivliyini vurğulayır və bu islahatların davamlı olaraq aparılmasını mühüm və zəruri vəzifə kimi müəyyən edir.

***Natiq QULUZADƏ,***
***YAP Zəngilan Rayon Təşkilatının sədri***

# Dövlət Statistika Komitəsinin sədri ilə Koreya Statistika Komitəsinin nümayəndələri arasında görüş keçirilib

Noyabrın 16-da Dövlət Statistika Komitəsinin (DSK) sədri Tahir Budaqov Koreya Statistika Komitəsinin (KOSTAT) nümayəndələri ilə görüşüb.

DSK-dan AZƏRTAC-a bildirilib ki, görüşdə Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 11 fevral tarixli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi ilə Koreya Statistika Komitəsi arasında statistika sahəsində əməkdaşlıq haqqında Anlaşma Memorandumu"ndan irəli gələn məsələlər, o cümlədən Koreya Statistika Komitəsi ilə birgə həyata keçirilən növbəti "İnteqrasiya olunmuş inzibati məlumat bazalarının idarə olunması sisteminin yaradılması" layihəsi çərçivəsində 2022-ci ildə görülən işlər haqqında danışılıb, "İnzibati Məlumatların İdarə Olunması Sistemi - ADIS" informasiya sisteminin hazırlanaraq istifadəyə verilməsinin mühüm əhəmiyyəti vurğulanıb, gələcəkdə iki tərəf arasında əməkdaşlıq perspektivləri müzakirə olunub.

Rəsmi statistika sahəsində son illər Azərbaycanda həyata keçirilən islahatlar barədə məlumat verən komitə sədri Tahir Budaqov qeyd edib ki, statistik məlumatların istehsalı prosesində müasir informasiya və kommunikasiya texnologiyalarının tətbiqində daha üstün təcrübəyə malik Koreya Statistika Komitəsi ilə əməkdaşlıq Dövlət Statistika Komitəsi üçün yeni imkanlar yaradıb. Eyni zamanda KOSTAT-ın Planlaşdırma və əlaqələndirmə üzrə baş direktoru Hyangvoo Jeong Dövlət Statistika Komitəsi ilə KOSTAT arasında 2018-ci ildən qurulmuş ikitərəfli əməkdaşlığın uğurlu inkişafından, ötən dövrdə həyata keçirilmiş layihələrin vaxtında və keyfiyyətlə icra olunmasından məmnunluğunu ifadə edib, yeni layihə təklifləri haqqında fikirlərini bildirib.

Sonda qarşılıqlı maraq doğuran məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

# Baş Prokurorluqda Vəkillər Kollegiyasının rəhbərliyi ilə görüş

Noyabrın 16-da baş prokuror Kamran Əliyev Vəkillər Kollegiyasının Rəyasət Heyətinin sədri Anar Bağırovla görüşüb.

Baş Prokurorluğun Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Rəyasət Heyətinin sədrini və üzvlərini səmimi salamlayan baş prokuror Azərbaycan Prezidenti İlham Əliyevin rəhbərliyi ilə müvəffəqiyyətlə həyata keçirilən məhkəmə-hüquq islahatları çərçivəsində prokurorluq orqanlarının fəaliyyətinin təkmilləşdirilməsi istiqamətində görülmüş tədbirlər məlumat verib.

Kamran Əliyev hüquqi dövlət quruculuğu və insan hüquqlarının müdafiəsi sahəsində səylərin gücləndirilməsinin dövlət siyasətinin əsas prioritetlərindən biri kimi müəyyənləşdirildiyini vurğulayaraq qanunvericilik və institusional islahatlarla ölkəmizdə insan və vətəndaş hüquq və azadlıqlarının təmini istiqamətində səmərəli müdafiə mexanizmlərinin formalaşdırıldığını, dövlət orqanlarının fəaliyyətinin insan hüquqlarının təmini baxımından təkmilləşdirilməsinin mühüm əhəmiyyətini qeyd edib.

Görüşə görə minnətdarlığını bildirən Vəkillər Kollegiyasının Rəyasət Heyətinin sədri Anar Bağırov cinayət mühakimə icraatında ittihamı və müdafiəni həyata keçirən təsisatlar olaraq cinayət mühakimə icraatının obyektivliyi, qərəzsizliyi və ədalətliliyi istiqamətində, habelə hüquqi yardım almaq və müdafiə hüququnun təmin edilməsində ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokurorluq orqanları ilə səmərəli və işgüzar münasibətlərin vacibliyini bildirib.

Görüşdə cinayət prosesinin həyata keçirilməsi zamanı meydana çıxan aktual məsələlər üzrə fikir mübadiləsi aparılıb.

# YAP-ın təsis edilməsinin 30-cu ildönümü ilə əlaqədar silsilə tədbirlər davam edir

Yeni Azərbaycan Partiyasının (YAP) təsis edilməsinin 30-cu ildönümü ilə əlaqədar partiyanın Mərkəzi Aparatı tərəfindən hazırlanmış və İdarə Heyətinin qərarı ilə təsdiq edilmiş tədbirlər planına uyğun olaraq silsilə tədbirlər davam edir.

Tədbirlər planı çərçivəsində noyabrın 16-da partiyanın Goranboy, Qobustan və Yasamal rayon təşkilatları tərəfindən tədbirlər keçirilib.

Tədbirlərdə Ümummilli Lider Heydər Əliyevin və şəhidlərimizin əziz xatirəsi dərin ehtiramla yad edilib.

Keçirilən tədbirlərdə - Goranboy rayonunda YAP Goranboy Rayon Təşkilatının sədri Elçin İsmayılov, Goranboy Rayon İcra Hakimiyyətinin başçısı Məhərrəm Quliyev, YAP İdarə Heyətinin üzvü Amin İsmayılov, Milli Məclisin deputatı Ağalar Vəliyev, Qobustan rayonunda YAP Qobustan Rayon Təşkilatının sədri Qasım Qasımov, YAP İdarə Heyətinin üzvü, Azərbaycan Respublikasının Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədr müavini Aynur Sofiyeva, YAP Veteranlar Şurasının üzvü Xeyrəddin Qoca, Qobustan Rayon İcra Hakimiyyətinin başçısı Adil Məmmədov, Yasamal rayonunda YAP Yasamal Rayon Təşkilatının sədri Bəxtiyar Nəbiyev, YAP İdarə Heyətinin üzvü, Azərbaycan Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Bahar Muradova, YAP İdarə Heyətinin üzvü, Bakı Ali Neft Məktəbinin rektoru Elmar Qasımov, YAP Veteranlar Şurasının üzvü, "91-lər"dən Şahlar Əsgərov, Yasamal Rayon İcra Hakimiyyətinin başçısı Elşad Həsənov və başqaları çıxış ediblər.

Çıxışlarda Ulu Öndər Heydər Əliyevin zəngin dövlətçilik irsindən və əbədiyaşar ideyalarından, Prezident, Yeni Azərbaycan Partiyasının Sədri İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən siyasətin uğurlu nəticələrindən, Yeni Azərbaycan Partiyasının 30 il ərzində keçdiyi şərəfli inkişaf yolundan bəhs edilib.

Tədbirlərdə YAP sıralarına yeni qəbul olunmuş şəxslərə üzvlük vəsiqələri və partiya fəallarına fəxri fərmanlar təqdim edilib.

# 17 Noyabr Milli Dirçəliş Günüdür

# Heydər Əliyevin ucaltdığı bayraq

## İndi Qarabağ və Şərqi Zəngəzurda zəfər rəmzi kimi dalğalanır

Bir neçə gün əvvəl Vətən müharibəsinin başa çatmasının ikinci ildönümü tamam oldu. Bu savaşda qazanılan qələbə xalqımızın böyüklüyünün, Azərbaycanın yüksəlişinin, Prezident İlham Əliyevin müdrik və qətiyyətli siyasətinin təcəssümü oldu. Hazırda Qarabağ və Şərqi Zəngəzurda aparılan bərpa və quruculuq işlərinin fonunda isə tarixi zəfərimizin quruculuq meydanındakı təntənəsi yaşanır.

### Azadlığa gedən yol

Vətən müharibəsindəki qələbədən sonra xalqımız milli bayramlarımızı və əlamətdar günlərimizi daha yüksək əhvali-ruhiyyədə, qalibiyyət ovqatında qeyd edir. Bu gün isə Milli Dirçəliş Günüdür. Xalqımızın müstəqillik və milli azadlıq uğrunda mübarizəsinin mərhələlərindən biri olan milli dirçəliş hərəkatının növbəti ildönümü də xalqımızın zəfər sevincini həm də quruculuq meydanında davam etdirdiyi günlərə təsadüf edir.

Ötən əsrin 80-ci illərinin sonunda xalqımızın öz milli azadlığına qovuşması üçün tarixi şərait yaranmışdı. Həmin dövrdə Ermənistanın Azərbaycana qarşı yeni ərazi iddialarının baş qaldırması, sovet rəhbərliyinin bu məsələdə ermənilərə dəstəyi, o cümlədən ermənilərin Ağdamda iki azərbaycanlı gənci qətlə yetirmələri, Topxana meşələrində törətdikləri vəhşiliklər xalqımızın səbir kasasını daşdırmış, milli hissləri alovlandırmışdı. Artıq 1988-ci ildən başlayaraq Azərbaycanda milli istiqlal hərəkatı geniş vüsət almağa başlamışdı. Həmin ilin noyabrında yüz minlərə azərbaycanlının toplaşdığı paytaxtımızın Azadlıq meydanında səslənən tələblərin mahiyyəti dəyişmiş, müstəqil dövlət qurmaq ideyası milli düşüncəyə hakim kəsilmişdi. Həmin günlərdə baş verənlər təsdiq edirdi ki, Azərbaycan xalqı tezliklə dövlət müstəqilliyinə nail olacaq.

### Heydər Əliyev milli mücadiləni yeni mərhələyə yüksəltdi

Ermənilər Azərbaycana qarşı ərazi iddialarına Ulu Öndər Heydər Əliyevin Sov.İKP MK Siyasi Bürosunun üzvlüyündən və SSRİ Nazirlər Soveti sədrinin birinci müavini vəzifəsindən istefa verməsindən sonra başlamışdılar. Nə qədər ki Ulu Öndər sovet rəhbərliyində təmsil olunurdu, ermənilər öz planlarını həyata keçirə bilmirdilər.

Heydər Əliyev qüdrətli şəxsiyyət, xalqın inandığı və ətrafında birləşdiyi bir lider idi. Bu mənada Ulu Öndərin sovet dövlətinin rəhbərliyindən istefa versə belə, öz siyasi müdrikliyi ilə xalqımızın milli azadlıq mücadiləsinə tarixi töhfələr verirdi. Belə ki, Heydər Əliyevin 1990-cı ilin iyul ayında respublikamıza qayıdışı milli azadlıq prosesini tamamilə yeni mərhələyə yüksəltdi. Eyni zamanda Heydər Əliyev öz böyük dühası ilə Naxçıvanı erməni işğalından qorudu.

Ümumiyyətlə, tariximizdə baş verənlər göstərir ki, xalqımızın istiqlal hərəkatı 1988-ci ildən başlasa da, bu istiqamətdə əsas proseslər Ulu Öndər Heydər Əliyevin Azərbaycana qayıdışından və Naxçıvan Ali Məclisinə üzv seçilməsindən sonra başlayır. Məhz həmin vaxtdan milli dirçəliş prosesi daha da güclənərək bütün respublikamızda aparıcı milli ideyaya çevrildi.

### Ulu Öndərin dalğalandırdığı bayraq

Heydər Əliyevin Naxçıvanda Ali Məclisin deputatı seçilməsi ilə müstəqil dövlətçiliyimizin bərpası istiqamətində konkret addımlar atılmağa başladı. O dövrdə respublika ictimaiyyətinin qabaqcıl nümayəndələrinin Naxçıvana gəlmələri, o cümlədən Ali Məclisin qərarları bütün ölkədə baş qaldıran milli azadlıq hərəkatının daha da mütəşəkkil forma almasına əhəmiyyətli təsir etdi.

Bu baxımdan Naxçıvan Ali Məclisinin 1990-cı il noyabrın 17-də qəbul etdiyi qərarlar müstəqillik mübarizəsi tariximizin ən əlamətdar hadisələridir. Heydər Əliyevin sədrliyi ilə keçirilən həmin iclasda məhz Ulu Öndərin təşəbbüsü və təklifi ilə qəbul edilən tarixi qərarlardan biri müstəqilliyimizin əsas atributlarından olan üçrəngli bayrağımızın Naxçıvan Muxtar Respublikasının Dövlət Bayrağı olması barədə idi. Qərarda həmçinin Azərbaycan Respublikasının Ali Qanunverici Orqanına Azərbaycanın dövlət rəmzləri haqqında məsələyə baxması, respublikamızın milli tarixi ənənələrə uyğun olaraq yeni dövlət rəmzlərinin - bayrağın, gerbin, himnin qəbul olunması təklif edilmişdi.

Beləliklə, 32 il əvvəl - 1990-cı il noyabrın 17-də, hələ sovet dövlətinin mövcud olduğu bir şəraitdə Heydər Əliyevin cəsarəti və qətiyyəti ilə üçrəngli bayrağımız Naxçıvanda ucaldıldı. Bayrağımızın rəsmən ucaldılması milli azadlıq hərəkatını yeni mərhələyə yüksəltdi, dirçəliş mübarizəsinin daha da vüsət almasına səbəb oldu. Bu mənada 17 noyabr tarixi həm də üçrəngli bayrağımızın 70 ildən sonra yenidən dövlət rəmzi elan olunduğu gündür.

### Qalib dövlət

Bu gün Azərbaycan tarixinin ən qüdrətli dövrünü yaşayır. Ulu Öndər Heydər Əliyevin qoruduğu müstəqilliyimiz, memarı olduğu müasir dövlətçiliyimiz Prezident İlham Əliyevin qətiyyətli siyasəti ilə daha da möhkəmlənib və qüdrətlənib. Bu siyasətin nəticəsi olaraq Azərbaycan regionda və qlobal miqyasda söz sahibi, öz mövqeyi olan dövlətə çevrilib. Respublikamız həm də regionun aparıcı dövlətidir.

İki il əvvəl Vətən müharibəsində qazandığımız tarixi zəfər isə Azərbaycanın beynəlxalq nüfuzunu və imicini daha da yüksəltdi. Bu qələbədən sonra Azərbaycan yalnız regionun lideri olan dövlət kimi deyil, həm də müharibədə qalib gəlmiş dövlət kimi tanınır.

Bu qələbə ilə Müzəffər Ali Baş Komandan İlham Əliyev Azərbaycan bayrağını Qarabağda və Şərqi Zəngəzurda ucaltdı. İndi Qarabağın tacı olan Şuşada, Ağdamda, Füzulidə, Cəbrayılda, Qubadlıda, Zəngilanda, Laçında, Kəlbəcərdə, Hadrutda üçrəngli bayrağımız dalğalanır.

Vətən müharibəsi yeni reallıqlar yaradıb. Bunlardan biri də hələ milli azadlıq hərəkatının başlandığı ilk vaxtlarda xalqımızın meydanda səsləndirdiyi arzularının həyata vəsiqə almasıdır. Bəli, bu zəfərlə Ermənistanın saxta iddialarına, Azərbaycan torpaqlarında ikinci erməni dövlətinin yaradılması niyyətinə birdəfəlik son qoyuldu. Əbədi müstəqilliyimizi və qüdrətli dövlətçiliyimizi təmin edən siyasətin qarşısında istənilən təhdid və riyakar plan isə iflasa məhkumdur.

***Rəşad CƏFƏRLİ,***
***"Azərbaycan"***



# Milli azadlıq hərəkatının başlanğıc tarixi

Ermənistan rəhbərliyinin və Kremlin əməllərinə etiraz əlaməti olaraq, 1988-ci il noyabrın 17-də Bakının Azadlıq meydanında Azərbaycan ictimaiyyətinin mitinqi başlandı. 1992-ci ildən bəri noyabrın 17-si Milli Dirçəliş Günü kimi qeyd edilir.

Xalqımızın azadlıq mübarizəsinin əsas mərhələlərindən birini təşkil edən 17 Noyabr Milli Dirçəliş Günü kimi Azərbaycanın müstəqilliyinin bərpa edilməsində tarixi rol oynadı. Mənəvi əsaslarını və başlanğıcını ötən əsrin 60-cı illərindən götürən bu tarix sonralar Ulu Öndər Heydər Əliyevin siyasi uzaqgörənliyi və müdrikliyi ilə dönməz xarakter aldı, müstəqil Azərbaycan müasir inkişaf yoluna qədəm qoydu.

Ötən əsrin axırlarında dünyanın altıdabirini əhatə edən Sovet İttifaqının iqtisadi, siyasi, mənəvi və ideoloji dayaqları sarsılmışdı. İmperiyanın siyasi "beyin mərkəzi"nin xalqlara, xüsusilə Azərbaycan xalqına qarşı yürütdüyü ayrı-seçkilik siyasəti kəskin xarakter almışdı. M.Qorbaçov hakimiyyətinin dəstəyi ilə ermənilər Dağlıq Qarabağda azərbaycanlılara qarşı haqsız ərazi iddialarına düşmüşdülər. Beləliklə, 1988-ci ilin ilk günlərində Ermənistanın Azərbaycana qarşı açıq təcavüzü başlanmışdı. Moskvanın, xüsusən də SSRİ-nin rəhbəri M.Qorbaçovun buna biganə münasibətini görən ermənilər planlı şəkildə, öz hökumətlərinin tapşırığı və göstərişilə Ermənistanda yaşayan 200 mindən çox azərbaycanlını öz ata-baba yurdlarından kütləvi surətdə qovdular.

Ermənilər azərbaycanlıları təkcə öz ev-eşiklərindən didərgin salmır, həm də onları cismən öldürür, diri-diri yandırırdılar. Ermənilərin tarixdə görünməmiş bu vandalizminə M.Qorbaçov və onun ətrafı heç bir reaksiya vermirdilər. Ermənilər bundan da istifadə edirdilər. 1988-ci ilin fevralın əvvəllərində Azərbaycanın Dağlıq Qarabağ bölgəsində ixtişaşlar törətdilər. Onlar tarixi torpağımız olan Dağlıq Qarabağın Azərbaycandan qoparılıb Ermənistana birləşdirilməsi haqqında məsələ qaldırdılar. Belə bir vaxtda Azərbaycan xalqı ayağa qalxdı. Xalq öz etirazını sakit şəkildə rəhbərliyə bildirdi. İlk zamanlar Azərbaycan vətəndaşları Moskvaya, yerli hakimiyyət başçılarına inanırdılar. Lakin ermənilərin Topxanada törətdikləri vəhşiliklər, Ağdamda iki azərbaycanlını qətlə yetirmələri Bakıda milli hissləri daha da alovlandırdı.

XX əsrin əvvəllərində istiqlalın ləzzətini dadan xalq bu dəfə müstəqillik arzularını reallaşdırmaq üçün tarixi bir fürsətin yarandığını hiss etdi. 1988-ci ildən başlayaraq Azərbaycanda milli istiqlal hərəkatı geniş vüsət aldı. Milyonlarla insanın toplaşdığı Azadlıq meydanında səslənən tələblərin mahiyyəti getdikcə dəyişərək müstəqil dövlət qurmaq ideyası milli düşüncəyə hakim kəsildi.

1969-cu ildə hakimiyyətə gəlişi ilə xalqa sağlam ruh və özünüdərk gətirən Ümummilli Lider Heydər Əliyev sovet ideologiyasının sərt qadağalarına baxmayaraq, milli-mənəvi dəyərlərə, Azərbaycan elminin və mədəniyyətinin dirçəlişinə xüsusi önəm verdi. Bütün sahələrdə inkişaf və oyanış müşahidə olunmağa başladı. Azərbaycan əsl intibah və dirçəliş dövrünə qədəm qoydu. Məhz Ulu Öndər Heydər Əliyevin təşəbbüsü ilə dünyanın müxtəlif ölkələrində təhsil alan milli ruhlu alimlər və ziyalılar ordusu yetişdi. Dahi şəxsiyyət Heydər Əliyevin respublikada yaratdığı bu mənəvi-psixoloji və iqtisadi baza təxminən 20 il sonra Sovet İttifaqı dağılmağa başlayanda xalqın dayağı oldu.

1988-ci ildə xalq hərəkatının alovlandığı bir vaxtda Azərbaycana rəhbərlik edən siyasi qüvvələr isə mövcud vəziyyəti qiymətləndirə bilmədilər. Xalqın maraqlarından daha çox imperiyanın maraqlarını düşünən bu adamların siyasi səbatsızlığından 20 Yanvar faciəsi baş verdi. Bir-birini əvəzləyən hakimiyyətlər xalqın dirçəlişini mütərəqqi səmtə yönəltmək iqtidarında deyildilər. Həmin o ağır məqamlarda yenə də Ulu Öndər Heydər Əliyev xalqın istiqlal ruhunu ölməyə qoymadı.

1990-cı il noyabrın 17-də Naxçıvan Muxtar Respublikasının Ali Sovetinin yeni tərkibdə ilk sessiyası keçirildi. Ümummilli Lider Heydər Əliyevin sədrliyi ilə keçirilən həmin tarixi sessiyada muxtar respublikanın dövlət rəmzləri haqqında məsələ də müzakirə olundu. Xalq deputatlarının müzakirəsindən sonra üçrəngli bayrağın dövlət rəmzi kimi qəbulu ilə əlaqədar təklif irəli sürüldü. Azərbaycan Xalq Cümhuriyyətinin üçrəngli bayrağının bərpa olunması barədə qərar çıxaran sessiya onun dövlət bayrağı kimi qəbul edilməsi ilə əlaqədar Azərbaycanın Ali Soveti qarşısında vəsatət qaldırdı. Beləliklə, milli dirçəlişdən milli tərəqqiyə doğru uzanan tarixi yolun başlanğıcı qoyuldu.

Bu yolda ölkəmiz böyük uğurlar əldə etdi, Cənubi Qafqazın lider dövlətinə, beynəlxalq layihələrin təşəbbüskarına çevrildi. Bütün bu nailiyyətlər, nəhayət, 2020-ci ildə 44 günlük Vətən müharibəsində ölkəmizin möhtəşəm qələbəsini şərtləndirdi. Azərbaycan Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə torpaqlarımızı işğaldan azad etdi, BMT Təhlükəsizlik Şurasının qətnamələrini yerinə yetirdi, ərazi bütövlüyümüz bərpa olundu, haqq-ədalət öz yerini tapdı. Bununla da, Ulu Öndərin siyasi varisi Prezident İlham Əliyev xalqımızın ən böyük arzularını gerçəkləşdirən dahi şəxsiyyət kimi milli dövlətçilik ənənələrinə yeni reallıqlar gətirdi. Prezident İlham Əliyev son 200 ildə tarixi torpaqlarını ardıcıl şəkildə itirməyə məhkum edilmiş Azərbaycan xalqının milli mənliyini, mənəvi ruhunu və siyasi gücünü özünə qaytarmaqla yanaşı, həm də tarixi ədaləti bərpa etdi. Məhz bu tarixi həqiqətlərlə birlikdə Müzəffər Ali Baş Komandan İlham Əliyevin ardıcıl və uğurlu siyasəti nəticəsində dövlətçilik ənənələrimiz yenidən dirçəldi və inkişaf etməyə başladı. Bu gün Azərbaycan dövləti Prezident İlham Əliyevin liderliyi sayəsində dünyada qalibiyyət və zəfərlər yazan, öz gücü ilə ərazi bütövlüyünü bərpa edən qüdrətli ölkə kimi tanınmaqdadır. Dövlət başçısı sübut etdi ki, heç bir qüvvə Azərbaycanı haqq yolundan, torpaqlarının işğaldan azad edilməsi uğrunda apardığı mübarizədən döndərə bilməz. O dövrdə, elə indinin özündə də dövlətimizin başçısı müxtəlif təzyiqlərlə üzləşdi. Amma siyasi peşəkarlıqla Azərbaycana qarşı beynəlxalq miqyasda diplomatik cəbhənin formalaşmasının qarşısını aldı. İkili standartlarla Azərbaycanı təhdid etməyə çalışanların hamısına qətiyyət və cəsarətlə, siyasi uzaqgörənliklə və beynəlxalq hüquqi normalara uyğun olaraq Azərbaycan hakimiyyətinin, Azərbaycan xalqının haqq yolunda olduğunu anlatdı. Bütün bunların fonunda Qarabağ cəbhəsində Azərbaycan Ermənistanı yürütdüyü 30 illik işğalçılıq, talançılıq, barbarlıq, terrorçuluq əməllərinə görə cəzalandırdı. Xüsusilə əziz Şuşamızın işğaldan azad olunması münasibətilə Fəxri xiyabanı və Şəhidlər xiyabanını ziyarət edən Ali Baş Komandan İlham Əliyev həm də ata vəsiyyətini yerinə yetirdiyini qürurla, şərəflə bildirdi. Ulu Öndər Heydər Əliyev işğal altındakı torpaqlarımızın, xüsusilə də Şuşamızın azad olunmasında siyasi varisi İlham Əliyevin möhtəşəm yer alacağına inanırdı. Uzaqgörən və əbədi liderimizin Şuşa ilə bağlı vəsiyyəti də onun azad olunmasından sonra xalqımıza çatdırıldı. Bu, böyük və qürurverici tarixi hadisə idi.

Nə xoş ki, bu gün üçrəngli bayrağımız Azərbaycan dövlətinin suverenliyinin rəmzi kimi Füzulidə, Xudafərində, Cəbrayılda, Hadrutda, Qubadlıda, Laçında, Kəlbəcərdə, Ağdamda, Şuşada və digər işğaldan azad edilmiş rayon, qəsəbə və kəndlərimizdə, habelə adsız yüksəkliklərdə əzəmətlə dalğalanır. Bu əzəmət və qürurun yaratdığı xoş ovqatla ərazilərin bərpası və yenidən qurulması, dayanıqlı iqtisadiyyata və yüksək rifaha malik regiona çevrilməsi istiqamətində kompleks tədbirlər həyata keçirilir. Xatırladaq ki, 2023-cü ildə işğaldan azad edilmiş ərazilərin bərpası üçün 3 milyard manat vəsait ayrılması nəzərdə tutulmuşdur. Bu da 2022-ci illə müqayisədə 12,4 faiz, 2021-ci illə müqayisədə isə 37,7 faiz çoxdur.

Görünən odur ki, yaxın gələcəkdə Milli Dirçəliş Günü kimi tarixi bayramları, möhtəşəm tədbirləri işğaldan azad edilmiş bölgələrimizdə böyük təntənə ilə qeyd edəcəyik.

***Rəhman SALMANLI,***
***"Azərbaycan"***

# Dirçəlişdən müstəqilliyə gedən yol

Bu gün istiqlal tariximizin ən önəmli günlərindən biri olan Milli Dirçəliş Günüdür. Xalqımızın ən gözəl xüsusliyyətlərindən hesab edilən dövlət, torpaq sevgisinin, vətənin bölünməzliyi uğrunda mübarizənin başlandığı və bütün dünyaya nümayiş olunduğu milli birlik günüdür.

Ötən əsrin 80-ci illərində dünyanın siyasi səhnəsində ciddi hadisələr baş verməkdə idi. SSRİ adlanan sovet imperiyası özünün iqtisadi-siyasi-hərbi tənəzzülü dövrünü yaşayırdı. İş o yerə gəlib çatmışdı ki, dünyaya meydan oxuyan sovet imperiyası hərbi kontingentini Əfqanıstandan çıxarmağa məcbur olmuşdu. İmperiyanı qorumaq məqsədi ilə "yenidənqurma" adı altında sovet rəhbərliyinin başladığı islahatlarla da SSRİ-ni xilas etmək artıq mümkün deyildi. Dünyanın müxtəlif yerlərində "sosialist kaloniyasına" daxil olan ölkələrdə - Polşada, Çexoslovakiyada, ADR-də, Rumıniyada, Baltik respublikalarında və dünyanın bir sıra yerlərində imperiyaya qarşı etiraz dalğaları genişlənmişdi. Belə bir məqamda sovet imperiyasının vətənimizdə yaratdığı "Dağlıq Qarabağ Muxtar Vilayəti" adlı süni qara yara irinləməyə başlamışdı.

Ermənistanın Azərbaycana qarşı ərazi iddiası irəli sürməsi, Dağlıq Qarabağda yaşayan ermənilərin açıq separatçılıq hərəkatı, Ermənistan və Dağlıq Qarabağda yaşayan yüz minlərlə azərbaycanlının öz yurdundan qovulması, ermənilərin Topxana meşəsində törətdikləri özbaşınalıqlar, Ağdamda iki azərbaycanlının qətlə yetirilməsi, SSRİ rəhbəri Mixail Qorbaçova yaxın olan erməni akademik Aqambekyanın "Dağlıq Qarabağ iqtisadi cəhətdən Azərbaycandan çox Ermənistana bağlıdır" kimi sərsəm fikirlər səsləndirməsi Bakıda milli hisslərin alovlanmasına təkan verdi, "Meydan hərəkatı"nın əsasını qoydu. Moskvanın və yerli hakimiyyət orqanlarının yarıtmaz siyasəti nəticəsində meydana çıxan bu problemlərin qarşısını almaq təşəbbüsünü üzərinə götürən xalq 1988-ci il noyabrın 17-də Bakının mərkəzi meydanına toplaşaraq fasiləsiz kütləvi etiraz aksiyasına başladı. 17 gün aramsız davam edən, milyonlarla insanın qatıldığı bu aksiya həm də keçmiş SSRİ-də ən irimiqyaslı etiraz aksiyası idi.

17 noyabrdan başlanan mitinqlərdə Ermənistanın Azərbaycana qarşı təcavüzünün dayandırılması, Dağlıq Qarabağda anti-Azərbaycan siyasəti yeridən qurumun ləğv edilməsi, əks təqdirdə Ermənistana qarşı iqtisadi sanksiyalar tətbiq edilməsi, Azərbaycandan olan deputatların SSRİ Ali Soveti sessiyasında Ermənistanın təcavüzü ilə əlaqədar məsələ qaldırması başlıca tələblərdən idi. Xalq yaxşı anlayırdı ki, Ermənistandakı separatçı qüvvələrin arxasında Moskva, SSRİ rəhbərliyində təmsil olunan ermənipərəst qüvvələr dayanır. Bunu bilən xalq meydanda digər tələblərlə yanaşı, "Moskvanın fitnələrinə son qoyulsun!", "Suverenlik!", "Azadlıq!" kimi şüarlar da səsləndirməyə başladı.

XX əsrin əvvəllərində qısamüddətli olsa da, istiqlalı görüb, azadlığın nə olduğunu duyan xalq yaxşı dərk edirdi ki, müstəqillik arzularını reallaşdırmaq üçün tarixi bir fürsət yaranıb. 1988-ci ildən başlanan meydan hərəkatı yavaş-yavaş Milli İstiqlal uğrunda mübarizəyə çevrilirdi.

1990-cı il noyabrın 17-də Naxçıvan Muxtar Respublikasının Ali Sovetinin yeni tərkibdə ilk sessiyası keçirildi. Muxtar respublikanın adından "sovet" və "sosialist" sözləri çıxarıldı. İmperiyanın hələ tarix səhnəsindən silinmədiyi bir dövrdə Naxçıvanın adından "sovet" və "sosialist" sözlərinin çıxarılması müstəqilliyimizin qazanılması yolunda çox böyük tarixi hadisə oldu. Bununla da Ümummilli Lider Heydər Əliyev milli dövlətçiliyimizin dirçəlişi istiqamətində ilk böyük addımı atdı. Ulu Öndər Heydər Əliyevin sədrliyi ilə keçirilən həmin tarixi sessiyada muxtar respublikanın dövlət rəmzləri haqqında məsələ də müzakirə olundu. Xalq deputatlarının müzakirəsindən sonra üçrəngli bayrağın dövlət rəmzi kimi qəbulu ilə əlaqədar təklif irəli sürüldü. Azərbaycan Xalq Cümhuriyyətinin üçrəngli bayrağının bərpa olunması barədə qərar çıxaran sessiya onun dövlət bayrağı kimi qəbul edilməsi ilə əlaqədar Azərbaycanın Ali Soveti qarşısında vəsatət qaldırdı. Beləliklə, milli dirçəlişdən milli tərəqqiyə doğru uzanan tarixi yolun başlanğıcı Naxçıvanda Ulu Öndər tərəfindən qoyuldu.

İmperiya yeraltı, yerüstü sərvətlərlə zəngin olan, dotasiya hesabına yaşamayan Azərbaycanı asanlıqla əldən buraxmaq niyyətində deyildi. Öz əlaltıları vasitəsilə ölkəmizdə fitnə-fəsadlar törədib, xalqlar arasında qarşıdurma yaradır, qanlı qırğınlar törətməyə cəhd edirdi. Bir tərəfdən də erməni separatçıları xarici havadarları vasitəsilə hər gün torpaqlarımızın bir hissəsini işğal edib müstəqillik yoluna çıxan Azərbaycana mane olmağa çalışırdılar. Amma anlamaq istəmirdilər ki, zamanın təkərini geri çevirmək mümükün deyil.

1993-cü ilin yayında xalqın təkidli tələbi ilə hakimiyyətə gələn Ulu Öndər "Azərbaycanın müstəqilliyi daimidir, əbədidir, dönməzdir" deməklə düşmənə, xarici qüvvələrə tutarlı mesajını verdi.

Təməli 1988-ci il noyabrın 17-də qoyulan birliyimiz, 2020-ci il sentyabrın 27-də Müzəffər Ali Baş Komandan İlham Əliyevin sərkərdəliyi ilə elə 1988-ci ildən işğalına başlanan torpaqlarımızın azad olunması uğrunda zəfər yürüşünə çıxarkən xalqımız təkrar öz sarsılmaz birliyini bütün dünyaya nümayiş etdirdi. Xalq bir yumruğa dönüb torpaqlarını mənfur düşməndən birdəfəlik xilas etdi. 1988-ci ildə Topxana meşəsində ermənilərin qədim tarixi torpaqlarımızda başladıqları özbaşınalığa 2020-ci ildə birdəfəlik son qoyuldu. İndi Topxana da, Qarabağ da Azərbaycandır.

***Elşən QƏNİYEV,***
***"Azərbaycan"***



**Səndən ötrü can verməyə cümlə hazırız,**
**Səndən ötrü qan tökməyə cümlə qadiriz!..**

# Elgün İsmayılov adına...

## "Azərbaycan" qəzeti şəhid əməkdaşının xatirəsinə həsr edilən növbəti yaradıcılıq müsabiqəsinə yekun vurdu

**Vətən eşqi dünyadakı ən ali, ülvi hissdir. Şəhidlik məqamı isə Vətənə məhəbbətin zirvəsidir. Sinələrini düşmən gülləsinə sipər edən, qanları ilə qara torpağı suvarıb laləzar Vətənə çevirən qəhrəman oğulların pak ucalığıdır.**

Azərbaycanın ərazi bütövlüyü uğrunda canını qurban edərək əbədiyyətdə yolçuluğa çıxan müqəddəs şəhidlərimizdən biri də 48-ci doğum günü onsuz keçirilən, şəhidliyinin 28 ili tamam olan Elgün Dağbəyi oğlu İsmayılovdur.

1974-cü il noyabrın 16-da Bakıda dünyaya göz açan Elgün İsmayılov 1993-cü ildə həqiqi hərbi xidmətə çağırılıb. Həmin ilin oktyabrında "N" saylı hərbi briqadanın tərkibində cəbhə bölgəsinə - Füzuli rayonuna göndərilən Elgün Horadizin düşməndən azad edilməsi uğrunda döyüşlərdə göstərdiyi şücaətə görə komandanlıq tərəfindən mükafatlandırılıb.

1994-cü ilin yanvarında hərbi briqadanın yeri Kəlbəcər bölgəsinə, Murovdağ istiqamətinə dəyişdirilib. Komandanlığın onun barəsində verdiyi arayışda göstərilir ki, Elgün İsmayılov mürəkkəb relyefə malik Murovdağda bölüyün keçirdiyi 20 əməliyyatdan 16-da iştirak edib. 1994-cü il aprelin axırlarında keçirilmiş hərbi əməliyyata görə Elgün İsmayılov komandanlığın fəxri fərmanına layiq görülüb. Mayın 25-dən 26-na keçən gecə Murovun Ömər yüksəkliyində düşmən arxasına keçərək vacib məlumatları gətirməyə gedən 4 nəfərlik kəşfiyyat dəstəsinin tərkibində Elgün də olub. Burada düşmən hücumuna məruz qalan igid kəşfiyyatçı son nəfəsinə qədər döyüşərək müqəddəs şəhidlik zirvəsinə ucalıb. Elgün İsmayılov Bakıda Şəhidlər xiyabanında dəfn edilib.

Ömrünün 20-ci baharında Murovdağın zirvəsində şəhadətə yüksələn Elgün İsmayılovun əziz və unudulmaz xatirəsi yalnız dünyaya göz açdığı ailədə, oxuduğu məktəbdə deyil, həm də çalışdığı "Azərbaycan" qəzeti redaksiyasında daim anılır, ehtiramla yad edilir.

2003-cü ildən redaksiyada Elgünün döyüş yolunu əks etdirən stend yaradılıb. Həmin ildən başlayaraq redaksiya əməkdaşları arasında Elgünün xatirəsinə həsr olunmuş yaradıcılıq müsabiqəsi də keçirilir.

Hər il doğum günündə redaksiya kollektivinin onun xatirəsinə həsr etdiyi tədbir İkinci Şəhidlər xiyabanındakı müqəddəs məzarını ziyarətlə başlayır. Bu il də Elgünün xatirəsi ona doğma olan kollektivi tərəfindən ehtiramla yad edildi. Şəhidin məzarı üzərinə tər çiçək dəstələri düzüldü və ruhuna dualar oxundu.











Sonra anım mərasimi redaksiyada davam etdirildi. Vətən uğrunda canından keçmiş şəhidlərimizin xatirəsi birdəqiqəlik sükutla anıldı.

Tədbiri "Azərbaycan" qəzetinin baş redaktoru, Milli Məclisin deputatı Bəxtiyar Sadıqov açaraq bildirdi ki, vətənpərvərlik mövzusu "Azərbaycan" qəzetində dərc olunan yazılar içərisində hər zaman qırmızı xətt kimi keçir. Elə Elgün İsmayılovun xatirəsinə həsr olunmuş yaradıcılıq müsabiqəsinə redaksiya əməkdaşlarının məhz vətənpərvərlik mövzusunda yazdıqları məqalələri təqdim etmələri də bunun bariz göstəricisi, eyni zamanda "Azərbaycan" qəzetində vətənpərvərlik mövzusunda yaradıcılığa geniş meydan verilməsinin əyani təsdiqidir.

Baş redaktor söylədi ki, artıq iki ildir ki, Elgünün xatirəsinə həsr olunmuş yaradıcılq müsabiqəsi əvvəlki illərdən daha fərqli ab-havada, böyük zəfər ruhu ilə qeyd edilir. Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Silahlı Qüvvələrinin Vətən müharibəsində qazandığı tarixi hərbi-siyasi qələbə sayəsində xalqımızın milli qüruru özünə qayıdıb. "Dəmir yumruğ"un zərbəsi cəmi 44 gün ərzində mənfur düşmənin belini qıraraq torpaqlarımızı 30 illik işğaldan azad edib, yüz minlərlə keçmiş məcburi köçkünümüzün yurd həsrətinə birdəfəlik son qoyub, müqəddəs şəhidlərimizin ruhunu şad edib: "30 ildir təqvimlərimizdə yer alan qara günlərin yerini indi al-qırmızı bayram günləri əvəzləyib. Bu qalibiyyət xoşbəxtliyini bizə ürəklərində vətən sevgisi daşıyan, bu uğurda gözlərini qırpmadan ölümə atılan qəhrəman oğullarımız bəxş ediblər. Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyü uğrunda qəhrəmanlıqla mübarizə aparan, xalqımızın azadlığını hər şeydən uca tutan, bu yolda həyatlarını qurban verən igidlərimizin hər birinin ömür yolu gənclərimizə örnəkdir".




"İndi xalqımız Qarabağda və Şərqi Zəngəzurda müzəffər lider İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən böyük quruculuğun, Böyük qayıdışın təntənəsini yaşayır", - deyən Bəxtiyar Sadıqov vurğuladı ki, budəfəki müsabiqəyə təqdim olunmuş jurnalist yazılarının hər birinin Vətən müharibəsindəki qələbəmiz, Qarabağ və Şərqi Zəngəzurda gerçəkləşdirilən bərpa-quruculuq işləri ilə bağlı olması heç də təəccüblü deyil: "Biz bu gün torpaqlarımızı işğaldan azad etsək də, hərbi vətənpərvərlik tərbiyəsinə daim diqqət ayırmalı, şəhidlərimizin xatirəsini əziz tutmalı və belə mövzulara həsr edilmiş müsabiqələrdə qələmimizi sınayaraq təkmilləşdirməliyik".

Sonra Bəxtiyar Sadıqov müsabiqənin nəticəsini elan etdi. Builki müsabiqənin yekunlarına görə, redaksiyanın əməkdaşları - İqtisadiyyat şöbəsinin redaktoru Flora Sadıqova - "İqtisadiyyatımız Vətən müharibəsi günlərində" rubrikasında dərc olunmuş silsilə məqalələrinə, Beynəlxalq həyat, idman və informasiya şöbəsinin redaktoru Rəşad Baxşəliyev - İşğaldan azad edilmiş bölgələrdə aparılan quruculuq və bərpa işlərindən hazırladığı silsilə reportajlarına, Parlament və siyasət şöbəsinin müxbiri Yasəmən Musayeva - Qarabağ və Şərqi Zəngəzura qayıdan keçmiş məcburi köçkünlərdən, şəhid ailələrindən hazırladığı silsilə publisistik reportajlarına görə "Azərbaycan" qəzetinin fəxri diplomu və pul mükafatları ilə təltif olundular.

Qaliblərdən Flora Sadıqova söylədi ki, bu müsabiqədə təltif olunmaq mənim üçün böyük fəxrdir. Ona görə ki, bu, "Azərbaycan" qəzetinin təsis etdiyi, həm də kollektivimizin əməkdaşının adına olan mükafatdır. Artıq 20-ci dəfədir ki, Elgünün xatirəsinə həsr olunmuş yaradıcılıq müsabiqəsini keçiririk və mən burada sayca 5-ci mükafatımı alıram. Bu da əlavə fəxr hissi bəxş edir.

Qaliblərdən biri, özü də 44 günlük Vətən müharibəsinin könüllü iştirakçısı olmuş Azərbaycan Silahlı Qüvvələrinin ehtiyatda olan baş leytenantı Rəşad Baxşəliyev qeyd etdi ki, istənilən müsabiqədə qaliblər sırasında olmaq jurnalist üçün fərəhlidir. Amma vətənpərvərlik mövzusu, xüsusən də şəhidlərimiz haqqında yazılar, reportajlar hazırlayıb qalib olanda iftixar hissi keçirirsən: "Etiraf edim ki, bundan öncə keçirilən müsabiqələrdə qaliblər sırasında olsam da, bugünkü hissləri heç zaman yaşamamışdım. Çünki 20 yaşında canını Vətən uğrunda fəda edən qəzetimizin əməkdaşı, qəhrəman kəşfiyyatçımızın və Birinci Qarabağ müharibəsində şəhidlik zirvəsinə ucalan bütün igidlərimizin ruhları işğal dövründə şad deyildi. 44 günlük Vətən müharibəsindəki zəfərimiz şəhidlərimizin qanını yerdə qoymadı".

R.Baxşəliyev deyir ki, artıq iki ildir ki, bu müsabiqədə ürəklə, fəxr hissi ilə iştirak edir: "Bəlkə də, bu gün hamıdan çox sevinən mənəm. 44 günlük Vətən müharibəsində qazanılan şanlı Zəfərimizdə payı olan Azərbaycan Ordusunun zabiti kimi qürurluyam ki, mən həm də "Azərbaycan" qəzetində Elgünün davamçısı oldum və şəhid qardaşımızın qisasını alıb qazi kimi redaksiyamıza qayıtdım. Qürurluyam həm də ona görə ki, geriyə əliboş dönmədim. Ali Baş Komandan İlham Əliyevin məni təltif etdiyi "Qubadlının azad olunmasına görə" medalı məhz Elgünün ölməz ruhu üçün ən əziz xatirə nişanı oldu. Çünki Elgün Qubadlıda doğulub boya-başa çatmışdı. Bu torpaqların azadlığı uğrunda canından-qanından keçmişdi ki, onun sakinləri şad-xürrəm yaşasınlar".

Özü də keçmiş məcburi köçkün olan Yasəmən Musayeva söylədi ki, parlaq Qələbəmiz, həm də 30 ildir ki, torpağından didərgin düşərək vətəndə qəribçilik çəkən insanlarımızın nisgilinə son qoydu: "Mən də vətənimə - Kəlbəcərə ziyarətə getdim, o yerlərimizi bir daha dünya gözü ilə gördüm. Eyni zamanda jurnalist olaraq azad torpaqlarımızdan ilk reportajımı hazırladım. Bugünkü müsabiqədə məhz həmin yazılarımla qalib seçildim. Bu sadaladıqlarım isə mənim üçün böyük xoşbəxtlik, bir zamanlar bəlkə də gerçəkləşməsi çətin görünən möcüzənin özüdür".

Şəhid Elgün İsmayılovun atası, Əməkdar jurnalist, AZƏRTAC-ın İdarə Heyəti sədrinin müavini Dağbəyi İsmayılov Vətən uğrunda canlarından keçən hər bir şəhidin şərəfli ömrünün örnək olmasını təbliğ edən "Azərbaycan" qəzetinin baş redaktoruna və kollektivinə ailəsi adından təşəkkürünü bildirdi. Şəhid atası vurğuladı ki, Elgünün xatirəsinin ona doğma olan iş yoldaşları tərəfindən hər zaman ehtiramla yad edilməsi, redaksiyada xatirəsinə həsr olunmuş müsabiqənin keçirilməsi onu çox qürurlandırır.

Şəhid atası dedi ki, Azərbaycan Ordusu 44 günlük Vətən müharibəsində milli qürurumuzu geri qaytardı: "Bu sevinci, bu qüruru bizə yaşadan isə şəhidlərimiz, Ali Baş Komandanın rəhbərliyi ilə döyüşlərə qatılan rəşadətli ordumuzdur. Övladım Elgün Murov dağın Ömər aşırımında şəhadətə yüksəlmişdi. İkinci Qarabağ savaşında ordumuzun ilk uğurlarından biri də oğlumun şəhid olduğu məhz həmin yüksəkliyin işğaldan azad edilməsi idi. Onda mən bir şəhid atası kimi sevindim və qürurlandım ki, Elgünün qisası alındı, onun qanı yerdə qalmadı. Şükürlər olsun ki, şəhidlərimizin ruhu şaddır, uzun illər düşmən tapdağı altında qalan torpaqlarımız indi Prezidentimizin də dediyi kimi, cənnətə çevrilir".

D.İsmayılov qeyd edib ki, bu ənənənin davam etdirilməsi Elgünün ailəsi üçün qürurvericidir.

***Nəzrin QARDAŞXANOVA,***
***Ülkər XASPOLADOVA,***
***İlham BABAYEV (foto),***
***"Azərbaycan"***

# Şəkərli kəndinin igid oğlu

Salyanın Şəkərli kəndi. Burada bağlı-bağatlı bir ev var. O ev ki, orada 1989-cu il noyabr ayının 17-də Misir kişinin ailəsində bir oğlan uşağı dünyaya göz açıb. Ailənin ilk övladı olduğu üçün adını da İlkin qoyublar.

İllərin qanadında böyüyüb məktəb yaşına çatıb. İlkin 1996-cı ildə kəndlərindəki məktəbin birinci sinfinə gedib və 2007-ci ildə orta təhsilini başa vurub. Anası Mehparə Nəcəfovanın dediklərindən: "Hələ uşaq ikən harda səliqəli geyimdə əsgər, zabit şəkli görsəydi, onu kəsib götürər, bir yerə yığardı. Hiss olunurdu ki, hərbçilərə böyük marağı var. Hərdən fikrimdən keçir ki, o vaxt indiki kimi bazar-dükanda uşaqlar üçün həbçi geyimləri satsaydılar, bizə özü üçün onlardan aldırardı. Sən demə, bu maraq gələcəkdə hərbçi olacağının təməli imiş".

İlkin Nəcəfov orta təhsilini başa çatdırıb sənədlərini Heydər Əliyev adına Ali Hərbi Məktəbə verir və qəbul olunur. 2007 - 2011-ci illərdə həmin məktəbdə təhsil alır. 2011-2012-ci illərdə isə zabitlik kursunda təhsil alaraq bilik və bacarığını daha da təkmilləşdirir. Bundan sonra baş leytenant rütbəsində Tərtər rayonundakı "N" saylı hərbi hissədə xidmətə başlayır.

İlkin bir zabit olaraq özünə qarşı çox tələbkarlıqla yanaşır, komandirlərin tapşırıqlarını vaxtında və dəqiq yerinə yetirirdi. Fiziki və mənəvi cəhətdən möhkəm olmaq üçün idmanla da məşğul olurdu. Bilirdi ki, qisas qiyamətə qalmayacaq, bir gün gələcək, erməni işğalçıları nəyin bahasına olursa-olsun Qarabağ və Şərqi Zəngəzur torpaqlarından qovulub çıxarılacaq.




İlkin Lələtəpə yüksəkliyi uğrunda gedən döyüşlərin iştirakçısı idi. Hərb tariximizdə xüsusi yeri olan bu döyüşdə qəhrəman əsgər və zabitlərimiz Azərbaycan Ordusunun nəyə qadir olduğunu göstərərək üçrəngli bayrağımızı Lələtəpə zirvəsinə taxdılar. Döyüş başa çatdıqdan sonra İlkin yenidən xidmət etdiyi hərbi hissəyə qayıtdı. Lakin bilirdi ki, əsl döyüşlər hələ qarşıdadır. Yeri gəlmişkən qeyd edək ki, Aprel döyüşlərindəki igidliyinə və Silahlı Qüvvələr Günü münasibətilə ona fəxri fərman və kapitan rütbəsi verilmişdir. Bu diqqət gənc zabitin məsuliyyət hissini daha da artırmışdır.

27 sentyabr 2020-ci il. Hərbi hissələrimiz bütün istiqamətlərdə - qurudan və havadan ildırım sürətilə hücuma keçməyə başlayır. Mənfur düşmən başına yağan güllə və mərmilərin təsirindən şoka düşür. Ağıllarına belə gətirə bilmədikləri həmlələr onları çaşbaş salır. Ovaxtadək özlərini qalib hesab edən ermənilər dabanlarına tüpürüb üzü İrəvana tərəf qaçırlar. Keçilməz saydıqları "Ohanyan səddi" darmadağın edilir. Düşmənin külli miqdarda hərbi sursatı və texnikası qənimət götürülür.

Gedən qızğın döyüşlərdə kapitan İlkin Nəcəfov da ön sıralarda idi. Təəssüf ki, oktyabrın 17-də Hadrut qəsəbəsi istiqamətində gedən döyüşlərdə həlak oldu. İlkin doğulduğu Şəkərli kəndində torpağa tapşırılmışdır. Rayon rəhbərliyi, inzibati orqanların, hərbi komissarlığın nümayəndələri, kənd sakinlərinin iştirak etdikləri dəfn mərasimində müəllimləri, sinif yoldaşları, dostları İlkinin keçdiyi həyat yolundan, onun necə bir gənc olduğundan, Vətənini necə bir məhəbbətlə sevdiyindən danışdılar.

Vətən müharibəsində təxminən 3 min şəhid vermişik. Onlardan 60 nəfəri Salyandandır. Kapitan İlkin Nəcəfov isə onlardan biridir. O, ölümündən sonra "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə" və "Cəsur döyüşçü" medalları ilə təltif edilmişdir.

Şəhid kapitanın bir oğul yadigarı qalıb. Ailəsi bütün şəhidlərimiz kimi, dövlət tərəfindən hər cür qayğıkeşliklə əhatə olunmuşdur.

Bu günlər şəhidin ata evinə baş çəkdik. Bizi həyət qapısında atası Misir kişi qarşıladı. Həyətində, evində səliqə-sahman vardı. Hiss olunurdu ki, bu ərəfədə qonağı çoxdur. Oturduğumuz otağın baş tərəfində şəhid İlkin Nəcəfovun müxtəlif şəkilləri olan guşə nəzərimizi cəlb edir. Şəhidin iki il əvvəl geydiyi hərbi forma, mobil telefonu və digər əşyalarına baxırıq. Bütün gördüklərimiz, eşitdiklərimiz və şəhid haqqında apardığımız araşdırmalar insanı duyğulandırmaya bilmir və ürəyimizdən keçənlər öz-özünə misralara çevrilir:

*Siz ey Vətən yolunda şirin canından keçib,*
*İgidliyi, mərdliyi özünə amal seçib,*
*Ömrün bahar çağında həyatdan erkən köçüb,*
*Ölümüylə bu yurdu, torpağı yaşadanlar!*
*Yaşayan hər ömürdə canınız, qanınız var!*

*Bir ata övladından el oğluna döndünüz,*
*Kim deyir ki, öldünüz, kim deyir ki, söndünüz?!*
*Gələcək nəsillərə yetəcəkdir ününüz.*
*Siz bu gün də, sabah da - əsrlərlə sağsınız!*
*Bu yurdun sinəsində vüqarsınız, dağsınız!*

***Seyran CAVADOV,***
***"Azərbaycan"***

# Dağ qartalı

Lerikin Vov kəndində yurd salan Hüseynovların el-obada böyük hörməti vardı. Əzəldən bu ocağın od götürüb, qeyrət içiləsi ərənləri olmuşdu. 1994-cü il noyabrın 15-də dünyaya gəlmiş Samir Hüseynov da həmin ərənlərdən idi.

Haqqa tapınmaq, halallıq, qurub-yaratmaq Samiri getdiyi yolda daim izləmişdi. Cəmiyyətdən ötrü xeyirli, işıqlı bir gənc kimi müstəqil həyata qədəm qoyub 2013-cü ildə Milli Ordu sıralarına yola düşəndə artıq el-oba arasında nüfuz qazanmışdı.

Bütün həyatı Vətən sevgisinə köklənən Samir hərbi xidmətdən sonra bir müddət halal zəhmətdən yapışır. Ötüb keçən hər gün ömrünə yaddaqalan işlərlə iz salır. Amma erməni separatçılarının xəyanətkar, təcavüzkar mövqeyi, Qarabağda baş verən qanlı hadisələr həmişə onu ciddi düşündürür, narahat edirdi. Odur ki, 2016-cı ildə könüllü hərbi xidmətə gedir. Vətən müharibəsində xüsusi təyinatlı kəşfiyyatçı kimi döyüşlərə atılır. Samirə döyüşdən-döyüşə yeni güc, yeni qüvvə gəlirdi. Bu güc, qüvvə ilə Zəngilanda, Füzulidə, Qubadlıda, Xocavənddə, Cəbrayılda, Şuşada döyüşür. Lakin şanlı zəfərimizə 13-14 saat qalmış şəhidlik zirvəsinə ucalır. Və bu şərəfli ölüm Samirə əbədi həyat qazandırır.



Sonda onu bildirək ki, Prezidentin sərəncamları ilə Samir Hüseynov ölümündən sonra "Vətən uğrunda", Füzulinin, Cəbrayılın, Xocavəndin, Şuşanın azad olunmasına görə medalları və 3-cü dərəcəli "Vətənə xidmətə görə" ordeni ilə təltif edilmişdir.

***Zəfər ORUCOĞLU,***
***Lerik rayonu, Bradi kəndi***

# Fransanın riyakarlığı

## Bu ölkə Azərbaycanla Ermənistan arasında münasibətlərin normallaşdırılması prosesində vasitəçi ola bilməz

**Noyabrın 15-də Fransa senatı Azərbaycana qarşı bədnam qətnamə qəbul edib. Bu qətnamə Fransanın siyasi riyakarlığının növbəti təsdiqi oldu. Bir daha göründü ki, bu ölkə Azərbaycanla Ermənistan arasındakı normallaşma prosesində vasitəçi ola bilməz. Mövzu ilə bağlı Milli Məclisin deputatlarının fikirlərini öyrəndik.**

### Fransaya adekvat cavab verməyin vaxtı çatıb

Milli Məclisin deputatı, Azərbaycan-Fransa parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri Soltan Məmmədov Fransa senatının Azərbaycan əleyhinə qətnaməsini əsassız və məntiqsiz adlandırıb. Deputat bildirib ki, 44 günlük Vətən müharibəsi zamanı və postmüharibə dövründə Fransanın Cənubi Qafqazla bağlı siyasətində ikili standartlar açıq-aydın ortadadır: "Azərbaycan Fransa ilə əlaqələrə həmişə xüsusi önəm versə də, indiyə qədər baş vermiş bir çox hadisələr bizim cəmiyyətdə Fransaya etimadı tamamilə sarsıdıb. Bir tərəfdən, Fransa hökuməti, dövlət rəhbərliyi Azərbaycanla Ermənistan arasında münasibətlərin normallaşması prosesində fəal iştirak etmək niyyətini bəyan edir, digər tərəfdən, bu ölkənin parlamentində Azərbaycan əleyhinə sənədlər qəbul olunur. Fransanın bəzi dövlət rəsmiləri Azərbaycanla bağlı heç bir əsası olmayan ittihamlarla çıxış edirlər. Ona görə də düşünürəm ki, Fransa ilə münasibətlərdə qarşı tərəfin davranışlarına adekvat addımlar atmağın zamanı çatıb".

S.Məmmədov deyib ki, Əlcəzairdə törədilmiş soyqırımı ilə bağlı məsələyə Fransada hələ də rəsmi səviyyədə obyektiv hüquqi-siyasi qiymət verilməyib: "Halbuki təkcə 1945-ci ildə Setif şəhərində 45 min əlcəzairli öldürülüb, ümumilikdə 1,5 milyon nəfər Fransanın həyata keçirdiyi zorakı əməliyyatlar nəticəsində məhv edilib. Fransa tərəfindən irqçi, diskriminativ qanunlar tətbiq edilərək əlcəzairlilər "Fransanın ərəb müsəlmanları" adlandırılıb, əhali torpaq və mülklərindən məhrum edilib. İndi isə qəbul edilən qətnamə layihəsində "İrqi ayrı-seçkiliyin bütün formalarının ləğv edilməsi haqqında" Beynəlxalq Konvensiyayaya istinad edirlər. Bu konvensiyanı kobud şəkildə pozmuş bir ölkənin başqa bir ölkəyə heç bir əsası olmadan irqi ayrı-seçkiliklə bağlı ittiham irəli sürməsi, sadəcə, təəccüb doğurur".






Deputat bildirib ki, Azərbaycan dəfələrlə Fransa siyasətçilərinə, parlament üzvlərinə Cənubi Qafqazla bağlı məsələlərdə ədalətli olmaq, beynəlxalq hüquqa əsaslanan mövqedən çıxış etmək barədə çağırışlar edib. Lakin son qətnamə bu ölkənin öz ənənəvi siyasətini dəyişmək niyyətində olmadığını təsdiq edir.

### Fransada hökm sürən siyasi korrupsiyanın nəticəsi

Milli Məclisin deputatı, Azərbaycan Demokratik İslahatlar Partiyasının sədri Asim Mollazadənin sözlərinə görə, Fransa senatının Azərbaycan əleyhinə qəbul etdiyi qətnamə beynəlxalq hüquq normalarının kobud şəkildə pozulması deməkdir: "Bütün bunların arxasında Fransada hökm sürən siyasi korrupsiya dayanır. Erməni lobbiçiliyi, erməni diasporunun hiylələri belə rüsvayçı qətnamənin qəbul edilməsini şərtləndirib. Xüsusi olaraq qeyd etmək lazımdır ki, Fransada türkofobiya, islamafobiya və rasizm sürətlə artmaqdadır. Məscidlərə edilən hücumlar, təxminən 60 min yəhudinin ölkəni tərk etməyə məcbur edilməsi, polislərin qaradərili fransızlara qarşı çox kobud və təhlükəli reaksiyaları belə faktlardan bəziləridir. Fikrimcə, senatda qəbul edilən sənədi Fransanın Avropa dəyərlərinə zidd olan davranışlarının təzahürü adlandırmaq olar".

Deputat bildirib ki, Fransanın bəzi rəsmilərinin ölkəmizlə bağlı ittihamları tamamilə əsassızdır: "Layihədəki təklif və tələblər tarixi həqiqətləri təhrif və bölgədə yaradılmış yeni reallıqları təkzib edir. Fransa öz ənənəvi siyasətini davam etdirir, Ermənistana dəstək verməkdən çəkinmir. Azərbaycan Fransanı Cənubi Qafqazla bağlı məsələlərdə ədalətli mövqe sergiləməyə, beynəlxalq hüquq normalarına əməl etməyə çağırır".

### Bu ölkə riyakarlıqdan əl çəkməyənə qədər vasitəçi ola bilməz

Milli Məclisin deputatı Bəhruz Məhərrəmov qeyd edib ki, Fransa senatının Azərbaycan əleyhinə qəbul etdiyi qətnamə bu ölkənin müstəmləkəçilik və imperializm siyasətinin cəzasızlıq mühitində yenidən dirçəlməsidir. Onun dediyinə görə, dünya birliyi Fransanın Əlcəzairdə, Ruandada, Malidə, habelə Kamboca və Cənubi Vyetnamda törətdiyi müharibə cinayətlərinə vaxtında reaksiya versəydi, bu gün Paris özünü "qlobal ombudsman" kimi aparmağa cürət etməzdi. Yalnız Əlcəzairdə 10 milyon, Ruandada 800 min insanın qətl edilməsi əmrini vermiş Fransa dövləti bu gün beynəlxalq hüquq adına söz haqqına malik olmamalıdır.

Deputat bildirib ki, Fransada Azərbaycana qarşı qəbul olunan sənəd beynəlxalq hüququn ümumtanınmış prinsiplərinə açıq müdaxilədir: "Paris bu qətnamə ilə dövlət sərhədlərinin toxunulmazlığı, dövlətlərin ərazi bütövlüyü, dövlətlərin daxili yurisdiksiyasına aid olan məsələlərə qarışmamaq, habelə beynəlxalq hüquq çərçivəsində öhdəliklərin vicdanla yerinə yetirilməsi prinsiplərinin kobud pozuntusuna yol verdi. Birinci addım kimi Azərbaycan parlamentində Fransa senatının beynəlxalq hüquqa təcavüzü kəskin pislənməlidir. Əslində, bir müddət əvvəl Prezident İlham Əliyevin Əlcəzairə səfəri zamanı Şəhidlər muzeyinin xatirə kitabında ifadə etdiyi fikirlər bizim üçün aydın yol xəritəsidir".

B.Məhərrəmov əlavə edib ki, Fransanın Əlcəzairdə törətdiyi soyqırımı və müstəmləkəçilik siyasəti ilə bağlı Milli Məclis dinləmələrinin keçirilməsinin artıq zamanı çatıb: "Biz yekdilliklə qəti mövqe ortaya qoymalı, dövlət səviyyəsində insanlıq əleyhinə əməllər və müharibə cinayətləri törətmiş Fransanın əsl simasını bir daha ifşa etməliyik. Həmçinin parlamentimiz Fransanın 30 illik işğala və Ermənistanın təcavüzkar siyasətinə verdiyi açıq dəstəyini, bununla da bölgədə sülh perspektivləri üçün aşkar maneəyə çevrildiyini rəsmən pisləyən sənəd qəbul etməlidir. Əlbəttə, bizim mövqeyimiz aydındır, amma qəbul edəcəyimiz sənəd bir daha cinayətkar Fransanın təcavükar niyyətlərindən əl çəkməyənə qədər hansısa formada vasitəçi missiya yerinə yetirə bilməyəcəyinin ifadəsi ola bilər. Beləliklə, biz Fransanın Azərbaycanla Ermənistan arasındakı sülh danışıqlarında iştirakının mümkünsüz olduğunu məhz qanun qüvvətli aktla müəyyən etməliyik".

### E.Makron Fransanı yox, "kiçik bacı" Ermənistanı təmsil edir

Milli Məclisin deputatı Ceyhun Məmmədov deyib ki, Fransa senatı belə qətnamə qəbul edərək həyata keçirdiyi siyasətin mahiyyətini ortaya qoymaqla yanaşı, həm də beynəlxalq hüquq normalarını pozduğunu bütün dünyaya sübut etdi: "Unutmaq olmaz ki, BMT-nin Təhlükəsizlik Şurasının Azərbaycanın işğal olunmuş torpaqlarının azad olunması ilə bağlı qəbul etdilyi 4 qətnaməsində də torpaqlarımızın işğala məruz qalması və Ermənistanın həmin ərazilərdən qeyd-şərtsiz çıxarılmasının vacibliyi vurğulanmışdı. Senatın qəbul etdiyi qətnamə isə BMT qətnamələri ilə tamamilə ziddiyyət təşkil edir. Görünən odur ki, Fransa bölgədə sülhün bərqərar olmasında maraqlı deyil. Senat, şəxsən prezident Emmanuel Makron fransızları yox, "kiçik bacıları" Ermənistanı təmsil edir, onların arzu və istəklərini yerinə yetirirlər".

Deputatın sözlərinə görə, vaxtilə bir fransız siyasətçi Makronun Fransanın yox, orada yaşayan ermənilərin prezidenti olduğunu deyib: "Qəbul edilən qətnamə bu yanaşmanı bir daha təsdiqlədi. Həmçinin sübut olundu ki, Fransa Azərbaycanla Ermənistan arasında aparılan danışıqlarda vasitəçi ola bilməz. Yəni Makronun Praqada Avropa İttifaqının vasitəçiliyi ilə keçirilən görüşdə peyda olaraq özünü vasitəçi kimi təqdim etməyə çalışması absurddur. Fransa bu məsələdə tərəfdir, vasitəçi deyil, açıq şəkildə Ermənistanı dəstəkləyir. Fransa bu əməlləri ilə bölgədə sülh və əmin-amanlıq mühitinin formalaşmasına əngəl törədir", - deyə deputat bildirib.

Fransa senatının qəbul etdiyi qətnamə layihəsi milli dözümsüzlük, irqçilik, eləcə də ölkədə geniş vüsət almış türkofobiya və islamofobiyanın təzahürüdür. Həmin qətnamə tamamilə qərəzlidir. Qətnamədə Fransanın və digər Avropa İttifaqı ölkələrinin "Azərbaycandan idxal edilən qaz və neftə embarqo tətbiq etmək" çağırışının yer alması, ölkəmizin beynəlxalq cinayət məhkəməsi ilə təhdid edilməsi qəbuledilməzdir. Fransa Ermənistanın Azərbaycanda törətdiyi müharibə cinayətlərinə səssiz qalmamalı, bölgədə gərginliyi artırmaq və sülhə mane olmaq cəhdlərinə birdəfəlik son qoymalıdır.

Bütün bunlar bir daha sübut edir ki, Fransa Ermənistanın işğalçılıq siyasətinə göstərdiyi açıq dəstəyi davam etdirir. Bu sənəddə ikili standartlar, qərəzçilik açıq-aydın görünür, reallıqlar təhrif olunur. Qətnamə beynəlxalq hüquq norma və prinsiplərinə tamamilə ziddir. Amma bu sənəd Azərbaycan üçün kağız parçasından başqa bir şey deyil.

*Nəzrin QARDAŞXANOVA,*
*"Azərbaycan"*

# "Fransa yenə bizi aldadır"

## Ermənistan ictimaiyyəti "böyük bacı"nın növbəti dəfə İlham Əliyevin yanında "quzuya" dönəcəyi qənaətindədir

**Fransa növbəti dəfə ikili standartdan çıxış edərək Azərbaycan və Ermənistana münasibətdə qərəzli mövqe sərgilədi. Fransa senatında qəbul edilən anti-Azərbaycan xarakterli qətnamə bunun növbəti təzahürü oldu.**

Ancaq bu qətnamənin qəbulu ermənilər üçün bir o qədər də cəlbedici olmadı və ya hansısa üstün nəticələrə gətirib çıxara bilməyəcək. Hər halda Ermənistan ictimaiyyətinə, sosial şəbəkələrə nəzər saldıqda bunu aydın görmək olar. Həmin fikirlərin təhlili göstərir ki, ermənilər özləri də bu qətnamənin adi kağız parçasından başqa bir şey olmadığını yaxşı anlayırlar.

Siyasi ekspert Qriqori Qalustyan bildirib ki, Fransa senatının bizim xeyrimizə qətnamə qəbul etməsinin əvvəlkilərdən heç bir fərqi yoxdur: "Yəni nə dəyişəcək? Qətnaməni Paşiyanın mediası elə təqdim edir ki, sanki "Artsax"a (Xankəndi - red.) qayıdacağıq. Təəssüflər olsun ki, yenə proqnozum özünü doğruldacaq. Bu, İlham Əliyevin yeni qələbəsi, Paşinyanın növbəti məğlubiyyəti olacaq. Paşinyanın, adətən, nüfuzlu tədbirlərə görə etdiyi səfərlər protokol xarakteri daşıyıb. Səfərlərin hamısında Emmanuel Makron da daxil olmaqla dünya liderləri İlham Əliyevin yanından əl çəkmirlər. Paşinyana isə üz çevirirlər. Özümüzü belə saysız-hesabsız qətnamələrlə aldatmayaq".

"4rd.am" saytında da Fransa senatının qəbul etdiyi qətnamə ilə bağlı məqalə dərc olunub və xatırladılıb ki, artıq neçənci dəfədir bu cür hadisələr təkrarlanır. Müəllif qeyd edib ki, Fransa bu qətnamələri qəbul etməklə, guya, göstərir ki, Ermənistanın yanındadır: "Praktikada heç bir işə yaramayan bu qərarlar onu deməyə əsas verir ki, Paşinyanın xarici siyasəti, əslində, iflasa uğramış bir vəziyyətdədir və bu hal Ermənistanın yox olan dövlətçiliyinə növbəti zərbədir".

Erməni ekspert Manvel Qasparyan isə vurğulayır ki, Fransa senatının sülh müqaviləsinin aktual olduğu bir dönəmdə belə qətnamə qəbul etməsi Ermənistan adına müsbət hal deyil. Bir sözlə, təhlükə təbili çalınır: "Bir tərəfdən, Rusiyaya yalvarırıq, digər tərəfdən, Paşinyan gedib oturur Makronun sarayında. Yəni baş nazir başını itirib. Bizim hakimiyyət Rusiya ilə münasibətiləri xeyli pisləşdirə bilib".

Ermənilərin sosial şəbəkələrdəki statusları, şərhləri göstərir ki, onlar da İlham Əliyevin Ermənistanla yanaşı, Fransa üzərində də üstünlüyünün artması barədə ortaq rəydədirlər.

İrina Tevosyan adlı biri instaqramda paylaşılan xəbərə maraqlı bir şərhlə diqqət çəkib. Şəxsi məlumatlarında siyasi şərhçi yazılan istifadəçi yazıb: "Bu qətnamələrlə başımızı aldatmasınlar. Makron Azərbaycana meydan oxuyur, yanımızda olduğunu bəyan edir. Amma İlham Əliyevi görəndə "quzuya" dönür. Fransanın artıq kağızda qalan qətnamələri mənasızdır. Ermənistanın müttəfiqi və dostu kimi özünü təqdim edir. Regionun geopolitik situasiyası sürətlə dəyişir. Dünənə qədər inanılmaz görünən məsələlər bu gün gözümüzün önündəcə çökür. Dünənki dostlar və müttəfiqlər birdən-birə yadlaşırlar. Belə bir inanılmaz və çılğın vəziyyətdə sabah nə olacağı bəlli deyil".

Aravik Babayan adlı feysbuk istifadəçisi Fransa senatının qəbul etdiyi qətnamə ilə bağlı yer alan xəbərə münasibət bildirib: "Belə qətnamələri o qədər görmüşük ki, sayını belə unutmuşuq. Fransa bizi yenə aldatdı. Makron cəsarətli biri deyil. Paşinyanla bir-birilərini yaxşı tapıblar. Maraqlıdır, görəsən, bundan sonra Paşinyan Putin və Əliyevin qarşısına hansı üzlə çıxacaq?"

Eduard Karapetyan adlı istifadəçi instaqram sosial şəbəkəsində xəbər portallarından birində məlum qətnamənin əks olunduğu videoxəbərə münasibət bildirib: "Dostlar, gəlin gördüklərimizi açıq şəkildə etiraf etməkdən çəkinməyək. Çox gülməlidir, elə deyilmi? Makron bizə düşmən olan ölkənin əleyhinə qətnamələr qəbul edir. Nə olsun? Nəticə varmı? Düşmən ölkənin rəhbəri olsa da, reallığı demək lazımdır. Görünür ki, İlham Əliyev bütün sahələrdə təkcə Ermənistan üçün yox, Fransa üçün də böyük qorxu yaradıb. Azərbaycan əsgəri qarşısında duruş gətirməyən erməni əsgərlərinin səngərlərdə silahlarını qoyub qaçmalarını görməkdən bezmişik. Orduya xidmətdən yayınmaq məqsədilə ölkəni tərk etməkdən təngə gəlmişik. Bunun ən böyük səbəbkarı isə hakimiyyətdir. Boş qətnamələrə qarnımız toxdur".

Levon Xaçaturyan adlı birinin feysbuk sosial şəbəkəsindəki paylaşımı da maraqla qarşılanıb: "Acı reallıq olsa da, qəbul edək ki, bizim böyük dəstəkçimiz adlandırdığımız Rusiyadan bəxtimiz gətirmişdi ki, Fransa senatının qətnamələrindən də gətirə. Makronun pafoslu çıxışlarına, onun aktyorluğuna İlham Əliyev tədbirlərdə elə zərbələr vurub ki, səsi belə çıxmayıb. Kağız üzərində qalan boş qətnamələrə Azərbaycanda artıq reaksiya belə vermirlər. Bu gedişlə İlham Əliyev Makronu da yola gətirəcək. Ermənistana da od püskürür, bizimkinin isə susmaqdan başqa çarəsi yoxdur".

Aşot Dəmirçyan adlı birinin tviter sosial şəbəkəsində etdiyi paylaşım daha çox bəyənmə toplayıb. Profilində Respublika Partiyasının üzvü olduğu diqqətçəkən istifadəçi yazır ki, Paşinyan bütün günü feysbuk canlı yayımlar təşkil edib, bəhanələr uydurmaqla ictimaiyyəti susdurmaqdansa, Makrona yalvarıb nəticəsiz qətnamələr qəbul elətdirməkdənsə gedib İlham Əliyevə tutarlı cavab versin: "Xatırlayın, Praqadakı son görüşdə İlham Əliyev Paşinyanı da, Makronu da şahmat dili ilə desək, mat etdi. Bunu etiraf etməyən lider yoxdur. Ermənistanı İlham Əliyev qarşısında niyə məğlub duruma salırsınız? Faktiki olaraq o, Ermənistanı əzir. Amma biz buna cavab verə bilmirik. Əliyev bəyan edir ki, Ermənistan sülh müqaviləsini imzalamasa, daha ağır vəziyyətə düşəcək. Əslində, bu belədir. Paşinyan hökuməti isə bunlara qarşı hansısa əks-həmlə edə bilmir".

Göründüyü kimi, qeyd edilənlərdən, ermənilərin öz mövqeyindən belə bəlli olur ki, bu qətnamələrin digərlərindən fərqi yoxdur.

*Elçin CƏFƏROV,*
*"Azərbaycan"*

# Fransa, axı sən kimsən?

## Daim ermənipərəst, antiazərbaycançı mövqe tutan bu ölkənin qərəzli qərarı kağız parçasından başqa bir şey deyil

**Ölkələr daha çox onları idarə edən liderlərə bənzəyirlər. Fikrimizi başqa sözlə ifadə etsək, liderlər onları seçib rəhbərliyə gətirən xalqların simalarıdır. Yəni "hər bir xalq layiq olduğu iqtidara və idarəçilyə sahibdir".**

Bu gün "qədim fransız xalqı" daha çox Emmanuel Makrona bənzəyir. Dünyanın bugünkü günü Fransa prezidenti Makron qərəzçilikdə heç də Afrikada, Əlcəzardə, Malidə, Liviyada milyonlarla günahsız insanların qanını töküb, müstəmləkəçilik siyasəti yürüdən, müsəlmanları qan gölündə boğan sələflərindən heç nəyi ilə geridə qalmır. Hətta bəzi məsələlərdə sələflərindən bir qədər də irəli gedib.

İllərdir ki, müsəlmanları qan gölündə boğan, xüsusi amansızlıqla günahsız insanları qətl etməkdə ad çıxaran Fransa cildini dəyişib maskalanaraq Qarabağda ermənilərin başlatdıqları problemin həllində "vasitəçi" kimi çıxış edir. Öz məkrli missiyasını həyata keçirmək, ermənilərə sona qədər himayədarlıq etmək məqsədi ilə beynəlxalq təşkilatların, Minsk qrupunun tərkibində, hətta qrupun həmsədrlərindən biri kimi hər vasitə ilə status-kvonu qoruyub saxlamaqdan ötrü dəridən-qabıqdan çıxırdı. Məqsəd ermənilərin Qarabağda mövqelərini möhkəmləndirmək idi. Bu azmış kimi, fransız mütəxəssislərin Qarabağda erməni terrorçularına təlimlər keçdiyi, istehkamlar tikdiyi haqqında məlumatlar da vaxtaşırı olaraq mətbuatda yer alırdı.

44 günlük Vətən müharibəsi zamanı, Azərbaycan Ordusu torpaqlarını işğaldan azad etmək üçün Zəfər yürüşünə çıxarkən Fransa bizə bəlli olan əsl simasını daha gizlədə bilmədi. Bu "beynəlxalq vasitəçi" illərdir arxasında gizləndiyi maskanı sökərək özünün hansı tərəfdə olduğunu açıqca nümayiş etdirdi. Ölkəmizə qarşı təhdidlər, dünya ictimaiyyətini çaşdıran dezinformasiyalar birbaşa Fransa prezidenti Emmanuel Makronun dilindən səslənməyə başladı. Beynəlxalq hüquqa görə Dağlıq Qarabağın Azərbaycan ərazisi olduğu BMT-də təsdiq edilib. Hətta Fransanın üzv olduğu BMT Təhlükəsizlik Şurası Ermənistanı işğalçı tərəf kimi tanıyıb, işğal olunmuş torpaqların dərhal azad olunması haqqında dörd qətnamə də qəbul edib. Amma, necə deyərlər, qan, yaxud erməni lobbisi Fransa prezidenti Makronun gözünü elə tutub ki, bütün bunları görməzdən gələrək, hələ 2020-ci ilin oktyabr ayında Azərbaycana qarşı BMT-də xüsusi qətnamə qəbul olunmasına təşəbbüs edib.

Atalar heç əbəs yerə deməyib ki, "dəyirman öz bildiyini edir, çaxçax baş ağrıdır". Azərbaycanı isə Fransa senatının qəbul etdiyi hər hansı qətnamə maraqlandırmırdı. Dövlətimiz öz halal torpaqlarını düşməndən azad etmişdir. Fransa hökuməti də yaxşı başa düşürdü ki, bundan sonra Azərbaycanın Makron kimi "vasitəçi"yə qəti ehtiyacı yoxdur.

Amma "çalışmaq", ermənilərin gözünə fəal görünmək Makrona mütləq lazım idi. İnsafən, o, bunu can-dildən edirdi də. Azərbaycan Prezidentinin oktyabr ayında Praqaya səfəri zamanı Fransa prezidentinin danışıqlar prosesində iştirakı da diplomatik etiket xatirinə razılaşmadan başqa bir şey deyildir. Biz bunu dövlətimizin başçısının Səmərqənddə KTMT-nin toplantısında və Əlcəzairdə səfərdə olan zaman etdikləri çıxışlarda da açıqca hiss etdik.

Təbii ki, erməni lobbisinin əlində oyuncağa dönən Makron nəyə isə qadir olduğunu ermənilərə sübut etmək üçün yerində vurnuxmaqdan başqa bir şey edə bilməyəcək. O özü də bunu yaxşı dərk edir. Fransa prezidenti Azərbaycanın hər gün beynəlxalq aləmdə artan siyasi nüfuzunu, iqtisadi gücünü, beynəlxalq miqyasda nüfuzlu söz sahibi olduğunu, Ermənistanın isə hərbi-siyasi məğlubiyyətini, yoxsulluq içində çabalayan erməni xalqını görüb qəzəbindən nə edəcəyini bilmir. Əslində, o, bütün beynəlxalq normaları pozur. Fransa kimi bir dövlətin nüfuzunu erməni lobbisinin maraqlarına qurban verərək ikinci Ermənistan kimi davranır. Bunun nəticəsi olaraq noyabrın 3-də senatın 6 üzvünün təqdim etdiyi, noyabrın 15-də senatın iclasında qətnamə layihəsinin qəbulu gözlənilən idi. Qətnamədə "Azərbaycandan idxal edilən qaz və neftə embarqo tətbiq etmək" çağırışı yer alıb və ölkəmiz beynəlxalq cinayət məhkəməsi ilə təhdid edilib.

Görəsən, bu qətnaməni qəbul etməklə Fransa senatı daha çox kimə pislik etmiş olur? Qarşıdan soyuq qış gəlir. Bəlkə, Fransa senatı ərzaq böhranı yaşayan Avropanı enerji böhranı ilə də sınağa çəkmək istəyir? Bununla da enerji təminatı əsasən Rusiyadan olan Avropa xalqlarını fransızlar erməni dostlarının hikkəsinə qurban verib soyuqdan qırmaqmı istəyirlər?

Qəbul olunmuş qətnamədə Azərbaycan "çoxsaylı təcavüzkar hərəkətlərdə" ittiham edilir. Görünən budur ki, Fransa senatı başını itirib. Belə olmasaydı, 30 ildir ki, torpaqları Ermənistan tərəfdən işğal edilmiş Azərbaycana "təcavüzkar damğası" vurmazdı. Milyonlarla azərbaycanlının 30 illik işğal ərzində fundamental insan hüquqlarından məhrum olunduğunu, müharibə cinayətlərinə məruz qaldığını, Xocalıda və digər işğal edilmiş rayonlarımızda azərbaycanlılara qarşı aparılan soyqırımı dilə gətirib belə bir rusvayçı "kağız parçası"nı qəbul etməzdilər. Utanardılar. Azərbaycan 44 günlük Vətən müharibəsi zamanı öz torpaqlarını azad edib. Azərbaycan kiminsə bir qarış torpağına göz dikməyib.

Azərbaycandan Laçın dəhlizindən çıxmaq tələb olunur. Niyə? Fransanın Ermənistana verdiyi silahları Qarabağa rahat daşıya bilmələri üçünmü?

Azərbaycan "irqçilikdə" ittiham edilir. Fransa yaxşı bilir ki, bu gün qədim Azərbaycan şəhəri olan İrəvanda, Qərbi Zəngəzurda bircə nəfər də olsun azərbaycanlı yaşamır. Ötən əsrin 90-cı illərində ermənilər o torpaqlarında yaşayan azərbaycanlıları son nəfərinə kimi deportasiya ediblər. Amma bu gün Bakıda 30 mindən çox erməniəsilli Azərbaycan vətəndaşı yaşayır. Dəfələrlə Azərbaycan Prezidenti İlham Əliyev ən yüksək səviyyədə bəyan edib ki, Qarabağda yaşayan erməniəsilli vətəndaşlarımızın hüquqları da beynəlxalq qanunlarla və Azərbaycan Konstitusiyası ilə qorunacaqdır.

Qətnamədə Azərbaycan ermənilərin Qarabağa geri qayıtmaq "haqqının" təmin edilməsinə çağırılır. Fransa prezidenti dəqiq bilir ki, Qarabağda yaşayan qarabağlı ermənilərin bir nəfəri də olsun yerini - yurdunu tərk etməyib. Qarabağı tərk edənlər varsa da, onlar qanunsuz olaraq Ermənistanın ərazilərimizdə məskunlaşdırdığı ermənilərdir. Beynəlxalq hüquqa görə işğal olunmuş ərazilərdə qanunsuz məskunlaşma da qadağan olunub. Yəqin ki, bunu da fransız parlamentarları bilməmiş deyillər?

Qətnamədə Azərbaycan Qarabağdakı "erməni mədəni və dini irsinin" qorunub saxlanılmasına çağırılır.

Fransa hakimiyyəti beynəlxalq cinayət məhkəməsində "kütləvi cinayətlər və hərbi cinayətlər" törədilməsinə dair ölkəmizi ittiham edir və istintaqın başladılmasına çağırış edir.

Görəsən, Fransa senatı bilirmi ki, ermənilər təkcə Şuşa şəhərində 215 tarix və mədəniyyət abidəsini məhv ediblər. Bütün işğal olunmuş ərazilərdə 67 məsciddən yalnız 2-si qismən salamat qalıb. Dövlətimiz isə Şuşada olan Qazançı kilsəsini yüksək keyfiyyətlə təmir etdirir. Fransa parlamentariləri xatırlayırlarmı ki, dünyanın 13 ölkəsi ermənilərin Xocalıda törətdikləri vəhşilikləri soyqırımı kimi tanıyıb? Fransız parlamentariləri bilirlərmi ki, bu gün işğaldan azad olunmuş kəndlərimizdə hər gün ermənilərin qətlə yetirdikləri azərbaycanlıların kütləvi məzarlıqları aşkar edilir? Bəlkə, fransız senatorlar fransızların törətdikləri vəhşiliklərin cavabını beynəlxalq cinayət məhkəmələrində vermədiklərinə görə belə arxayın davranırlar?

Fransa senatının qəbul etdiyi bu qətnamə Azərbaycan üçün bir kağız parçası, fransız parlamentariləri üçün isə əsl vaxt itkisidir. Eyni zamanda Fransa dövlətinin imicinə vurulan zərbədir. Dünyanın müxtəlif yerlərində vəhşiliklər törədib insanları qan gölündə boğmaq ənənəsinə sahib və sadiq olan bir ölkənin sülhdən, insan haqlarından danışması adamda acı təbəssüm yaradır. Dünyaya irqçilik, ayrı-seçkilik toxumu səpən bir ölkənin ədalətdən danışması olduqca gülünc görünür. Qətllər, cinayətlər törətmiş, tarixdə milyonlarla insanın qanlı qatili olmuş bir ölkənin bu gün beynəlxalq arbitr olmaq eşqinə düşməsi tarixin ironiyasıdır. Bir soruşan lazımdır, axı sən kimsən, Fransa? Əlcəzairdə 10 milyon insanın qanlı qatili!

*Elşən QƏNİYEV,*
*"Azərbaycan"*

# REGİONLAR

## Şuşa Tarixi Şəhərlər Liqasına üzv seçilib

Tarixi Şəhərlər Liqasının (TŞL) noyabrın 14-16-da Cənubi Koreyanın Andonq şəhərində keçirilən 18-ci Dünya Konfransı çərçivəsində keçirilən Baş Assembleyanın iclasında Şuşa şəhərinin liqaya üzvlüyü elan edilib.

Bu barədə AZƏRTAC-a Şuşa Şəhəri Dövlət Qoruğu İdarəsindən məlumat verilib. Bildirilib ki, TŞL-in baş katibi Shibata Shigenori çıxış edərək, Şuşanın liqaya üzv seçilməsini elan edib. Daha sonra Azərbaycan Respublikası Prezidentinin Şuşa rayonunda xüsusi nümayəndəsi Aydın Kərimov çıxış edərək, Şuşanın tarixi və mədəni əhəmiyyəti, işğal dövründə ermənilər tərəfindən törədilən vandallıq və Şuşada aparılan abadlıq və quruculuq işləri barədə Baş Assembleyanın iştirakçılarına məlumat verib.

Qeyd edək ki, TŞL dünyanın fərqli ölkələrindən 126 şəhəri özündə birləşdirən beynəlxalq platformadır. TŞL çərçivəsində fərqli şəhərlər tarixi-mədəni irsin qorunması, tarixi-mədəni abidələrin qorunması və üzv şəhərlərin turizm potensialının artırılması istiqamətində sıx əməkdaşlıq edirlər.





## Goranboylu fermerlər cari ili də uğurla yekunlaşdırmaq ərəfəsindədirlər

**Goranboyda həm bitkiçilik, həm də heyvandarlıq sahələrində hər il yüksək göstəricilər əldə edilir. Bu baxımdan cari ilin ötən dövrü də istisna olmamışdır.**

Rayonda indiyəcən 39 min 598 hektar sahədə əkin aparılmışdır. O cümlədən 22 min 812 hektarda payızlıq taxıl, 9 min 639 hektarda yonca, 1100 hektardan artıq sahədə tərəvəz, 3012 hektarda günəbaxan, 2526 hektarda pambıq, 197 hektarda yem üçün və 1005 hektarda dən üçün qarğıdalı əkilmişdir. Bundan başqa, rayon ərazisində 72 hektar üzüm və 2 min 427 hektar müxtəlif növ meyvə bağları mövcuddur. Zeyvə, Şəfəq, Qarqucaq, Qaraçinar, Yenikənd kəndlərində isə ümumilikdə 8 hektar sahədə tütün becərilmiş və son məlumata görə, qəbul məntəqələrinə 12 ton qurudulmuş tütün yarpağı təhvil verilmişdir.

Cari il həmçinin rayon kümçülərinə 142 qutu inkubasiya olunmuş baramaqurdu verilmişdir. Kümçülər bu hesaba 5400 kiloqram məhsul istehsal etmişlər. Payız əkinlərinə gəldikdə, cari il rayonda bu məqsədlə 19 min 571 hektar sahədə şum aparılmış, 1165 hektarda xəsil, 1070 hektarda arpa, 49 hektarda buğda, 450 hektarda yonca əkilmişdir. Hazırda şum və səpin işləri davam edir.

Heyvandarlıq sahəsində də vəziyyət pis deyil. Belə ki, indiyəcən diri çəkidə 2095,2 ton ət, fiziki çəkidə 22 min 18 ton süd, 14,6 milyon ədəd yumurta, 280,6 ton yun istehsal olunmuşdur ki, bu da ötən ilin müvafiq dövrü ilə müqayisədə çoxdur.

Rayonda pambıqçılığa da maraq var. Bu il fermerlər 2526,2 hektar sahədə pambıq əkmişlər. Qeyd edək ki, rayonda pambıq istehsalı ilə əsasən "MKT İstehsal Kommersiya", "Azərpambıq" və "Goran-Cotton" MMC-lər məşğul olur. Sentyabrın əvvəlindən başlanan pambıq yığımı hazırda davam edir və noyabrın 10-dək tarlalardan 5200 tona yaxın məhsul yığılmışdır.

Goranboyda mövcud əkin sahələrinin suvarılmasında heç bir problem yoxdur. Hazırda suvarmada Suvarma Sistemləri İdarəsinin balansında olan 958 subartezian quyusundan, o cümlədən mənbəyini Yuxarı Qarabağ kanalından götürən Borsunlu, Səfikürd, Boluslu və Qızılhacılı nasos stansiyalarından, Şəmkir maşın kanalından, Sol sahil Tərtər kanalından, təbii su mənbələri olan Kürəkçay, Qara-Goran və İncəçay çaylarından istifadə edilir.

*Sabir ƏLİYEV, "Azərbaycan"*

## Ağcabədidə subartezian quyuları vasitəsilə 27 min hektar sahə suvarılır

**Ağcabədidə 27 min hektara yaxın əkin sahəsinin suvarılmasını təmin edən 1026 subartezian quyusuna hər il baxış keçirilir, nasazlıqlar aşkar olunduqda aradan qaldırılır.**

Bu barədə AZƏRTAC-a Meliorasiya və Su Təsərrüfatı ASC-dən məlumat verilib. Bildirilib ki, ötən əsrin 70-ci illərində istifadəyə verilən və uzun müddət istismar olunaraq batan 111 subartezian quyusunun 35-i son illər bərpa olunub. 2024-cü ilə qədər bütün quyular bərpa olunaraq su istifadəçilərinin istifadəsinə veriləcək.

Quyuların bərpası, o cümlədən yeni subartezian quyularının qazılaraq sakinlərin və fermerlərin istifadəsinə verilməsi əkin aparılan torpaqlardan bol məhsul götürülməsinə səbəb olur. Fermerlər subartezian quyuları hesabına sahələrini asanlıqla suvara bildiklərini qeyd edirlər.

Ağcabədi Suvarma Sistemləri İdarəsinin balansında olan subartezian quyuları vasitəsilə 2021-ci ildə 3000 hektar pambıq sahəsi 5, 6200 hektar taxıl sahəsi 4, 14000 hektar yonca sahəsi 6, 3455 hektar digər kənd təsərrüfatı bitkiləri 4-4,5 dəfə suvarma suyu ilə təmin olunub. 2022-ci ilin 9 ayında 4450 hektar pambıq sahəsi 3,5, 6960 hektar taxıl sahəsi 4, 11170 hektar yonca sahəsi 4,5, 4130 hektar digər kənd təsərrüfatı bitkiləri 3-3,5 dəfə suvarılıb. Suvarılmanın mütəşəkkil aparılması üçün növbəti illərdə də yeni subartezian quyularının qazılması nəzərdə tutulur.

## "SOCAR karbamid" ixrac coğrafiyasını genişləndirir

İqtisadi Zonaların İnkişafı Agentliyinin (İZİA) idarəçiliyində olan Sumqayıt Kimya Sənaye Parkının rezidenti "SOCAR karbamid" zavodu ixrac coğrafiyasını genişləndirməkdə davam edir.



Belə ki, şirkət tərəfindən ilk dəfə olaraq Polşa, İsrail və Yunanıstana məhsul ixracına başlanılıb və ilkin mərhələdə bu ölkələrə 26 min tondan çox məhsul göndərilib.

Qeyd edək ki, 2019-cu ildə fəaliyyətə başlayan "SOCAR karbamid" zavodu azot gübrəsi idxalından asılılığın aradan qaldırılmasında, yerli fermerlərin tələbatının ödənilməsində mühüm rol oynayır. Zavodda istehsal olunan məhsullar "Made in Azerbaijan" brendi ilə dünyanın 15-dən çox ölkəsinə ixrac edilir.

İndiyədək müəssisədə 625 milyon manatlıq məhsul istehsal edilib ki, bunun da 85%-dən çoxu ixracın payına düşür.

## Ağdam Sənaye Parkında yeni rezident

İqtisadi Zonaların İnkişafı Agentliyinin (İZİA) idarəçiliyində olan Ağdam Sənaye Parkında daha bir sahibkarlıq subyektinə - "NN-Tel Group" MMC-yə rezidentlik statusu verilib.



Bununla da Sənaye Parkının rezidentlərinin sayı 12-yə çatıb. Yeni rezident "NN-Tel Group" MMC Sənaye Parkının ərazisində PVC dam örtükləri istehsal edən müəssisə inşa edəcək. İnvestisiya həcmi 1,3 milyon manat olan müəssisədə 12 daimi iş yerinin yaradılması planlaşdırılır.

## Tovuzda kartof istehsalı məhsuldarlıq hesabına artır

Son vaxtlar kartof istehsalına görə qonşu gədəbəylilərdən geri qalmayan tovuzlular keçən il 6245,3 hektardan məhsuldarlıq 286,9 sentner olmaqla ümumilikdə 179 min 172 ton məhsul yığmışlar.

Tovuz Aqrar İnkişaf Mərkəzindən verilən məlumata görə, bu il əvvəlki illərdən fərqli olaraq əkin sahələri bir qədər azaldılaraq intensiv texnologiyaya üstünlük verilmişdir. Daha məhsuldar toxum sortları əkini aparılması (Rusiya, Türkiyə və Ukraynadan 3 min tona yaxın yüksək reproduksiyalı kartof toxumu gətirilmişdir), aqrotexniki tədbirlərin yüksək səviyyədə həyata keçirilməsi nəticəsində daha çox məhsul istehsalına nail olunmuşdur. Belə ki, 5947,1 hektardan keçən ildəkindən çox, yəni hər hektardan 291 sentner məhsul götürülmüşdür.

Fermer Sakit Yəhyayev deyir ki, kartof toxumunu Rusiyadan özü gətirir. Onun məhsuldarlığına əmin olduğu üçün həm özü istifadə edir, həm də ürəklə digər fermerlərə satır. "Anna Koroleva", "Arizona" toxumlarının daha məhsuldar olduğunu bildirən təsərrüfat sahibi onu da vurğulayır ki, bu kartof sortlarından gələn il üçün toxum tədarükü də edib.

Elxan Sarıyev də hər il sahələrdən bol kartof götürür. Dediyinə görə, məhsul istehsalında əl əməyi ilə yanaşı, texnikadan da istifadə edir. Ancaq çalışır ki, kartof səpinində əl əməyindən daha çox istifadə etsin. Bunun da əsas səbəbi kartof toxumunun cücərmiş halda olmasıdır.

Söz düşmüşkən qeyd edək ki, əvvəlki illərdən fərqli olaraq bu il məhsulun çıxarılması texnikanın köməyi ilə həyata keçirilmişdir. Hazırda rayonda kartofçuluqla məşğul olan yüzlərlə fermer var. Rayonda ən çox kartof əkən kəndlərdən biri də Əyyubludur. Kənddə əhalinin 90 faizi kartofçuluqla məşğul olur. Burada mövcud əkin sahələrinin 1000 hektarında kartof əkilir. İstehsal olunan kartofun bir hissəsi elə sahədəcə satılır. Qalanları isə soyuducu anbarlara yığılır.



Tovuzda ən çox kartof əkən təsərrüfat sahiblərindən biri də Bozalqanlı kəndinin sakini Kamal Ələkbərovdur. Fermer bu il 100 hektar sahədə kartof əkmiş və yüksək məhsuldarlığa nail olmuşdur. Yığdığı məhsulu özünün inşa etdirdiyi soyuducu anbarda saxlayır. Onu da bildirək ki, fermer mövsüm ərzində 200 nəfəri işlə təmin edir.

*S.ƏLİYEV, "Azərbaycan"*

## Neftçalada adambaşına 2700 manatlıqdan çox məhsul istehsal edilib

**Yanvar-sentyabr aylarında Neftçalada istehsal olunmuş ümumi məhsulun həcmi 242 milyon 643,2 min manat olub.**

İstehsal sahələrinin ümumi məhsulda xüsusi çəkisi 70,4, xidmət sahələrinin payı isə 29,6 faiz səviyyəsinə çatıb. Əhalinin hər nəfərinə düşən ümumi məhsulun həcmi 2703,7 manat olub.

Neftçala Rayon Statistika İdarəsindən AZƏRTAC-a verilən məlumat görə, rayon üzrə sənayedə 61 milyon 661,8 min manatlıq (25,4 faiz), kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıqda 95 milyon 934,9 min manatlıq (39,6 faiz), tikintidə 13 milyon 173,1 min manatlıq və ya 5,4 faiz, nəqliyyat və anbar təsərrüfatında 2 milyon 373,9 min manatlıq (1,0 faiz), informasiya və rabitədə 997,2 min manatlıq (0,4 faiz), ticarət, nəqliyyat vasitələrinin təmiri sahəsində isə 68 milyon 502,3 min manatlıq (28,2 faiz) məhsul istehsal olub və xidmətlər göstərilib.

## Azərbaycanda ilk dəfə...

**Azərbaycanda ilk dəfə resipient düyələrə embrion köçürülməsi həyata keçirilib. Uğurlu köçürmə əməliyyatı Göygöl rayonunda yerləşən Respublika Süni Mayalanma Mərkəzində baş tutub.**



Xüsusi olaraq bu məqsəd üçün mərkəzə gətirilmiş 40 baş "Simmental" cinsindən olan düyələrdən 27-si embrion köçürülməsi üçün uyğun sayılıb. Hazırlıq prosesi tam yekunlaşdırdıqdan sonra yerli və xarici mütəxəssislərin iştirakı ilə 35 düyəyə embrion köçürülməsi həyata keçirilib.

Embrion transferi tətbiqinin əsas məqsədi üstün keyfiyyətə malik inəklərdən alınacaq balaların sayını artırmaqdır. Embrion transferi dünyanın inkişaf etmiş və inkişaf etməkdə olan bir çox ölkələrində uğurla tətbiq edilsə də, ölkəmizdə praktik olaraq tətbiq olunmayıb. Buna səbəb transfer üsulunun baha olması və südlük istiqamətli fermaların azlığı idi. Artıq belə fermaların sayının artması ilə respublikada embrion transferinə tələb formalaşıb.

Respublika Süni Mayalanma Mərkəzinin direktoru Elton Əbdürəhmanovun sözlərinə görə, embrion transferi xaricdən heyvan idxalına ən yaxşı alternativ hesab olunur: "Embrion transferi prosesini həyata keçirəcək 5 mütəxəssisimiz Almaniyada müvafiq kurslarda iştirak ediblər. Daha 5 yerli əməkdaşa isə Respublika Süni Mayalanma Mərkəzinə dəvət olunmuş alman mütəxəssis tərəfindən təlimlər keçirilib. Embrion transferi xaricdən heyvan idxalına ən yaxşı alternativ hesab olunur. Xaricdən dondurulmuş embrionun gətirilməsi və transplantasiyası başqa ölkələrdən damazlıq heyvan idxalından daha asan və ucuz başa gəlir. Embrion transferi üçün istifadə olunan texnologiya heyvanları ən intensiv üsulla yetişdirməyə imkan yaradır və ənənəvi reproduktiv üsulla müqayisədə genetik qiymətli heyvanların sayını dəfələrlə artırır".

Respublika Süni Mayalanma Mərkəzi embrion transferi təcrübəsini Qarabağ atları üzərində də təcrübə etməyə hazırlaşır.

Qeyd edək ki, 2023-cü ildən başlayaraq yerli süni mayalanma texnikləri və baytarlar embrion köçürülməsi ilə bağlı təlimlərə cəlb olunacaq. Təlimlərdə mütəxəssislərə embrion köçürülmüş heyvanlara qulluq, dölün inkişafını nəzarətdə saxlamaq, heyvandarlıqda müasir innovativ texnologiyaların tətbiqi üsulları öyrədiləcək.

## Göyçayda narçılıqla bağlı müşavirə keçirilib

**Göyçayda "Narçılıqda həyata keçirilən işlər və qarşıda duran vəzifələr" mövzusunda regional müşavirə keçirilib.**

Müşavirədə Kənd Təsərrüfatı Nazirliyinin və tabeli qurumların məsul şəxsləri, nar məhsullarının emalı və ixracatı ilə məşğul olan şirkətlərin təmsilçiləri və müxtəlif rayonlarda narçılıqla məşğul olan 200-ə yaxın fermer iştirak ediblər.

Tədbiri giriş sözü ilə açan Kənd Təsərrüfatı Nazirliyinin Mərkəzi Aparatının rəhbəri Rafail Quliyev bildirib ki, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən aqrar sahə iqtisadiyyatın prioritet sahələrindən biri elan edilib. Ölkənin ərzaq təhlükəsizliyini təmin etmək, aqrar sahədə davamlı inkişafa nail olmaq üçün Kənd Təsərrüfatı Nazirliyinin qarşısında məhsuldarlığını artırmaq, ixrac potensialını gücləndirmək, məşğulluğu daha da genişləndirmək vəzifələri dayanır. Aparat rəhbəri nar və nar məhsullarının ixrac potensialının yüksək olduğunu, dövlətin bu sahənin inkişafı üçün davamlı dəstək tədbirləri gördüyünü, subsidiyalar ayırdığını deyib. Bildirib ki, hazırda narçılığın inkişafı ilə əlaqədar qarşıda duran əsas vəzifələr məhsulun keyfiyyətini və orta məhsuldarlıq göstəricilərini artırmaqdır. Həyata keçirilən tədbirlər nəticəsində respublika üzrə nar əkin sahələri genişlənməsinə, məhsul istehsalının artmasına səbəb olub.

Nazirliyin Meyvəçilik və tərəvəzçilik şöbəsinin müdiri Surxay Novruzov dövlətin narçılığın inkişafı istiqamətində dəstək mexanizmləri barədə danışıb. Fermerlərin rifah halının yaxşılaşdırılması məqsədilə görülən işlər müşavirə iştirakçılarının diqqətinə çatdırılıb. Belə ki, intensiv üsulla salınmış nar bağlarına (bağın salındığı ilk 4 il ərzində hər il hektara 730, sonrakı illərdə isə 250 manat) əkin subsidiyasının ödənilməsi və əlavə olaraq birdəfəlik əkin subsidiyasının ödənilməsi barədə Aqrar Subsidiya Şurasının qərarı barədə tədbir iştirakçıları məlumatlandırılıb.



Müşavirədə çıxış edən Nar İstehsalçıları və İxracatçıları Assosiasiyasının direktoru Fərhad Qaraşov, nar məhsullarının emalı və ixracatı ilə məşğul olan şirkətlərin nümayəndələri və fermerlər narçılığın inkişafı ilə bağlı fikirlərini bölüşüb, "İn vitro" üsulu ilə meyvə tinglərinin istehsalı, Azərbaycanın nar məhsullarının yeni bazarlara ixracının təşkili və əsas ixrac tələbləri barədə ətraflı müzakirələr aparıblar.

# Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük qayıdışa dair I Dövlət Proqramı

MÜNDƏRİCAT


1. Xülasə .......... 5
2. Qlobal trendlər .......... 5
3. Ərazilərin bərpası və yenidən qurulması üzrə mövcud vəziyyət .......... 6
4. Hədəf göstəricilər .......... 7
5. Dövlət proqramının məqsədləri .......... 7
6. Dövlət proqramının prioritet istiqamətləri .......... 9
7. Gözlənilən risklər və onların neytrallaşdırılması tədbirləri .......... 11
8. Dövlət proqramının maliyyələşmə mənbələri .......... 12
9. Hədəflərin monitorinqi və icrasının qiymətləndirilməsi .......... 12
10. Dövlət proqramına dair Tədbirlər planıю .......... 12


### AKRONİMLƏR VƏ İXTİSARLAR

| | |
|---|---|
| AAYDA | Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyi |
| ANAMA | Azərbaycan Respublikasının Minatəmizləmə Agentliyi |
| "ADY" QSC | "Azərbaycan Dəmir Yolları" Qapalı Səhmdar Cəmiyyəti |
| AHİK | Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyası |
| AMEA | Azərbaycan Milli Elmlər Akademiyası |
| AQTA | Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyi |
| AQUPDK | Azərbaycan Respublikasının Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi |
| ARPXN | Azərbaycan Respublikası Prezidentinin Xüsusi Nümayəndəliyi |
| ASK | Azərbaycan Respublikası Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyası |
| "Azmelsutəsərrüfat" ASC | Azərbaycan Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyəti |
| "Azərenerji" ASC | "Azərenerji" Açıq Səhmdar Cəmiyyəti |
| "Azəristiliktəchizat" ASC | "Azəristiliktəchizat" Açıq Səhmdar Cəmiyyəti |
| "Azərişıq" ASC | "Azərişıq" Açıq Səhmdar Cəmiyyəti |
| "Azərsu" ASC | "Azərsu" Açıq Səhmdar Cəmiyyəti |
| "AZAL" QSC | "Azərbaycan Hava Yolları" Qapalı Səhmdar Cəmiyyəti |
| "AzerGold" QSC | "AzerGold" Qapalı Səhmdar Cəmiyyəti |
| BPr | Azərbaycan Respublikasının Baş Prokurorluğu |
| BTİX | Qarabağ İqtisadi Rayonunda Bərpa, Tikinti və İdarəetmə Xidməti və "Şərqi Zəngəzur İqtisadi Rayonunda 1 saylı Bərpa, Tikinti və İdarəetmə Xidməti" |
| DGK | Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsi |
| DİN | Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi |
| DTA | Azərbaycan Respublikasının Dövlət Turizm Agentliyi |
| DTX | Azərbaycan Respublikasının Dövlət Təhlükəsizliyi Xidməti |
| DOST | Dayanıqlı və Operativ Sosial Təminat Agentliyi |
| DSX | Azərbaycan Respublikasının Dövlət Sərhəd Xidməti |
| DŞAK | Azərbaycan Respublikasının Dövlət Şəhərsalma və Arxitektura Komitəsi |
| EN | Azərbaycan Respublikasının Energetika Nazirliyi |
| ETN | Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi |
| ETSN | Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi |
| ƏƏSMN | Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi |
| ƏMA | Azərbaycan Respublikasının Əqli Mülkiyyət Agentliyi |
| FHN | Azərbaycan Respublikasının Fövqəladə Hallar Nazirliyi |
| GİN | Azərbaycan Respublikasının Gənclər və İdman Nazirliyi |
| GF | Azərbaycan Respublikasının Gənclər Fondu |
| XİN | Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi |
| İKZF | Azərbaycan Respublikasının İpoteka və Kredit Zəmanət Fondu |
| İN | Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi |
| İTSDA | İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi |
| KTN | Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi |
| QMKİDK | Azərbaycan Respublikasının Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsi |
| MAİ | Azərbaycan Respublikasının Milli Arxiv İdarəsi |
| MB | Azərbaycan Respublikasının Mərkəzi Bankı |
| MdN | Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi |
| MİH | Mərkəzi icra hakimiyyəti orqanları |
| MİDA | Azərbaycan Respublikasının Mənzil İnşaatı Dövlət Agentliyi |
| MN | Azərbaycan Respublikasının Müdafiə Nazirliyi |
| RİNN | Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi |
| SN | Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi |
| SOCAR | Azərbaycan Respublikası Dövlət Neft Şirkəti |
| ŞŞDQİ | Şuşa Şəhəri Dövlət Qoruğu İdarəsi |
| "Təmiz Şəhər" ASC | "Təmiz Şəhər" Açıq Səhmdar Cəmiyyəti |
| VXSİDA | Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi |
| YİH | Yerli icra hakimiyyəti orqanları |

## 1. Xülasə

2020-ci il sentyabrın 27-də Ermənistan Respublikasının silahlı qüvvələri Azərbaycan Respublikasına qarşı növbəti hərbi təxribat törətmişdir. Bu təxribata cavab olaraq başlanılan və 44 gün ərzində Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin rəhbərliyi ilə aparılan Vətən müharibəsi Azərbaycan xalqının tarixi qələbəsi ilə başa çatmış və işğal olunmuş ərazilər rəşadətli Azərbaycan Ordusu tərəfindən azad edilmişdir.

Otuz ilə yaxın müddət ərzində Azərbaycan Respublikasının güclənməsi naminə aparılan uzaqgörən xarici siyasətin və görülən sistemli işlərin məntiqi davamı işğaldan azad olunmuş ərazilərin yenidən qurulması, bərpası və dayanıqlı inkişafının, milli iqtisadiyyata sürətli inteqrasiyasının və bu ərazilərə Böyük Qayıdışın təmin edilməsidir.

Yeni mərhələdə qarşıya qoyulmuş hədəflərin reallaşdırılması məqsədilə Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 2 fevral tarixli 2469 nömrəli Sərəncamı ilə "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər" təsdiq edilmişdir. Bu prioritetlərə söykənən Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 22 iyul tarixli 3378 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının 2022–2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası"nda əks olunmuş "İşğaldan azad olunmuş ərazilərə Böyük Qayıdış" Milli Prioritetinin icrasının təmin edilməsi məqsədilə "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair Dövlət Proqramı" (bundan sonra – Dövlət Proqramı) hazırlanmışdır.

Dövlət Proqramında işğaldan azad edilmiş ərazilərdə aparılmış bərpa-quruculuq işləri və mövcud vəziyyət, nail olunması hədəflənən məqsədlər və onlara uyğun hədəf göstəriciləri, Dövlət Proqramının prioritet istiqamətləri, əhalinin doğma torpaqlarına geri qayıdışı məsələləri, gözlənilən nəticələr, ehtimal edilən risklərin idarə olunması, müvafiq vəzifələrin yerinə yetirilməsi üçün maliyyələşmə mənbələri və həyata keçiriləcək tədbirlər öz əksini tapmışdır. Dövlət Proqramının hazırlanmasında mütərəqqi beynəlxalq təcrübə, bu sahədə strateji inkişaf tendensiyaları, işğaldan azad edilmiş ərazilərin sosial-iqtisadi potensialı və dünya iqtisadiyyatının müasir çağırışları nəzərə alınmışdır.

Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 7 iyul tarixli 1386 nömrəli Fərmanı ilə təsdiq edilmiş iqtisadi rayonların yeni bölgüsünə uyğun olaraq Dövlət Proqramının əhatə dairəsini Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarına daxil olan ərazilər təşkil edir.

## 2. Qlobal trendlər

2019-cu ilin dekabr ayından etibarən koronavirus (COVID-19) xəstəliyinin yayılması və qlobal pandemiyanın elan edilməsi, dünyada baş verən siyasi münaqişələr, eləcə də digər geosiyasi və iqtisadi proseslər beynəlxalq münasibətlərə, qlobal iqtisadiyyata, maliyyə və əmtəə bazarlarına kəskin təsir göstərməklə suverenlik və müstəqil xarici siyasət, ərazi bütövlüyü, sülh və təhlükəsizlik, güclü iqtisadiyyat, vətəndaşyönümlü sosial siyasət kimi amillərin əhəmiyyətini önə çıxarmışdır. Bu qlobal proseslər fonunda Azərbaycan Respublikasının ərazi bütövlüyünün təmin edilməsi ilə sadalan istiqamətlər üzrə ölkənin daha da güclənməsi üçün tarixi şərait yaranmışdır.

Son onilliklər ərzində inkişaf etmiş ölkələrdə inklüzivlik, bərabər imkanlara əsaslanan inkişaf və regional bərabərsizliklərin aradan qaldırılması, rəqəmsal inkişaf, dairəvi iqtisadiyyat və yerli istehsal, "ağıllı" və dayanıqlı yaşayış məntəqələri, infrastruktur, vətəndaş iştirakçılığı kimi amillər idarəetmənin yeni istiqamətləri kimi önə çıxmışdır.

Dövlət Proqramının hazırlanması zamanı sözügedən amillər ətraflı araşdırılmış, onların mümkün təsirləri təhlil edilmişdir. Həmçinin, işğaldan azad olunmuş ərazilərin bərpası və dayanıqlı inkişafı istiqamətində Dövlət Proqramı çərçivəsində həyata keçiriləcək tədbirlərin məqsədləri müəyyənləşdirilərkən Birləşmiş Millətlər Təşkilatının və digər beynəlxalq qurumların irəli sürdükləri qlobal inkişaf prioritetləri nəzərə alınmışdır.

Dövlət Proqramı çərçivəsində qarşıya qoyulan prioritetlər "universallıq", "inteqrasiyalı yanaşma" və "heç kimin geridə qalmaması" kimi prinsiplərə əsaslanan Dayanıqlı İnkişaf Məqsədlərinə və onların müvafiq hədəflərinə uyğunlaşdırılmışdır.

## 3. Ərazilərin bərpası və yenidən qurulması üzrə mövcud vəziyyət

### 3.1. İnstitusional əsas

Dövlət Proqramının icrası çərçivəsində işğaldan azad edilmiş ərazilərdə bərpa və quruculuq işlərinin əlaqələndirilmiş şəkildə təşkili, ərazilərin ölkənin ümumi iqtisadiyyatına reinteqrasiyası, dövlət–özəl tərəfdaşlığına əsaslanan iqtisadi artımın stimullaşdırılması və dayanıqlı məskunlaşmanın təmin edilməsi kimi hədəflərin həyata keçirilməsində institusional baza müstəsna əhəmiyyətə malikdir.

Qeyd olunan istiqamətlər üzrə sistemli və əlaqələndirilmiş fəaliyyətin həyata keçirilməsi üçün institusional mexanizmlər postmüharibə dövrünün ilk günlərində təsis edilmişdir. Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 24 noyabr tarixli 2303 nömrəli Sərəncamı ilə Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərində sosial-iqtisadi, humanitar, təşkilati və digər təxirəsalınmaz məsələlərin həlli, eləcə də bu sahədə fəaliyyətin əlaqələndirilməsi məqsədilə Əlaqələndirmə Qərargahı yaradılmışdır. Bu Sərəncama əsasən, Əlaqələndirmə Qərargahının nəzdində katiblik və kommunikasiya funksiyasının yerinə yetirilməsi, həmçinin analitik-təşkilati dəstək göstərilməsi üçün İdarələrarası Mərkəz formalaşdırılmışdır. Həmçinin, bu sahədə işin təşkili məqsədilə Əlaqələndirmə Qərargahının nəzdində müxtəlif dövlət qurumlarının səlahiyyətli nümayəndələrindən ibarət və işğaldan azad edilmiş ərazilərin bərpası və yenidən qurulması üzrə məsələlərin operativ həlli məqsədilə işçi qruplar fəaliyyətə başlamışdır.

Bununla yanaşı, Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 19 aprel tarixli 2594 nömrəli Sərəncamı ilə su ehtiyatlarından səmərəli istifadə üzrə Komissiyaya işğaldan azad edilmiş ərazilərin su ehtiyatlarından səmərəli istifadə edilməsi məqsədilə su təsərrüfatı obyektlərinin tikintisi, yenidən qurulması, bərpası, içməli su və suvarma suyu təchizatı, habelə yağış sularının idarə olunması ilə bağlı tədbirlərin əlaqələndirilməsinin Əlaqələndirmə Qərargahı ilə birlikdə təmin edilməsi tapşırılmışdır.

İşğaldan azad olunmuş ərazilərdə müvəqqəti xüsusi idarəetmənin təşkili məqsədilə inzibati ərazi bölgüsünə uyğun olaraq, hər rayon üzrə xüsusi idarəetməni həyata keçirən müvəqqəti komendantlıqlar və Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəlikləri formalaşdırılmışdır. Bununla yanaşı, işğaldan azad edilmiş ərazilərin zəngin iqtisadi potensialından, təbii sərvətlərindən və geniş turizm imkanlarından səmərəli istifadə etməklə onların bərabər inkişafının təmini və bu istiqamətdə bütün işlərin vahid proqram əsasında aparılması üçün ölkənin iqtisadi rayonlar üzrə bölgüsünə yenidən baxılmış, Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 7 iyul tarixli 1386 nömrəli Fərmanı ilə Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonları yaradılmışdır.

### 3.2. Təhlükəsizlik

İşğaldan azad edilmiş ərazilərin yenidən qurulması, bərpası və sonrakı mərhələlərdə dayanıqlı inkişafına nail olunması üçün ən önəmli strateji istiqamətlərdən biri bölgənin minalardan, partlamamış hərbi sursatdan, tərkibində partlayıcı olan qurğulardan və digər partlayıcı qalıqlardan təmizlənməsi vasitəsilə əhalinin, infrastruktur və istehsal obyektlərinin, kənd təsərrüfatı təyinatlı ərazilərin, həmçinin strateji əhəmiyyətli tikililərin və binaların təhlükəsizliyinin təmin edilməsidir.

### 3.3. İnfrastruktur

İşğaldan azad edilmiş ərazilərin yenidən qurulması, bərpası, dayanıqlı inkişafının və əhalinin yüksək həyat səviyyəsinin təmin olunması üçün zəruri infrastrukturun yaradılması xüsusi önəmə malikdir.

2020-ci ilin noyabr ayından etibarən işğaldan azad edilmiş ərazilərdə hava limanlarının, avtomobil və dəmir yollarının tikintisi işlərinə başlanılmış, qısa zaman ərzində bölgədəki müxtəlif yaşayış məntəqələri arasında, eləcə də bu məntəqələri ölkənin digər şəhər və rayonları ilə birləşdirən nəqliyyat infrastrukturu formalaşdırılmağa başlanmışdır.

İşğaldan azad edilmiş ərazilərdə enerji infrastrukturunun qurulması və regionun enerji, o cümlədən bərpa olunan enerji potensialından səmərəli istifadə çərçivəsində əhalinin infrastruktur təminatının yaxşılaşdırılması və layiqli həyat şəraitinin yaradılması üçün elektrik, su, qaz, istilik təchizatı və kanalizasiya xidmətlərinin qurulması istiqamətində sistemli tədbirlər həyata keçirilir.

Eyni zamanda, ərazilərdə zəruri rabitə infrastrukturu qurulmaqla bu sahədə xidmətlər – mobil rabitə, radio-televiziya yayımı, xüsusi radiorabitə, internet, poçt və s. təşkil edilmişdir. Hazırda şəbəkə və xidmətlərin əhatə dairəsinin genişləndirilməsi istiqamətində intensiv işlər davam etdirilir.

## 4. Hədəf göstəricilər

Dövlət Proqramında nəzərdə tutulan tədbirlər aşağıdakı hədəf göstəricilərinə uyğun olaraq 2026-cı ilədək həyata keçiriləcəkdir:

**Şəkil 1. Hədəf göstəriciləri**

| İNFRASTRUKTUR | İQTİSADİYYATIN YENİDƏN QURULMASI |
|---|---|
| Ərazilərin minalardan və partlamamış hərbi sursatdan təmizlənməsi və təhlükəsizliyin təmin olunması | Yeni investisiyaların cəlb olunması ilə sahibkarlıq mühitinin formalaşdırılması |
| Ərazilərdə şəhər, qəsəbə və kənd yaşayış məntəqələrinin tikintisi və hamı üçün əlçatan, etibarlı, keyfiyyətli və dayanıqlı infrastrukturla təminatın həyata keçirilməsi | Sahibkarlığın, o cümlədən kiçik və orta sahibkarlığın inkişafının təmin edilməsi |
| | Yeni torpaq sahələrinin kənd təsərrüfatı dövriyyəsinə cəlb olunması |
| Nəqliyyat-yol, rabitə, su, qaz, elektrik, istilik və s. infrastrukturun yenidən qurulması | Əkin sahələrinin və heyvandarlıq təsərrüfatlarının bərpası, müasir suvarma infrastrukturunun formalaşdırılması |
| | Məhsuldar ərzaq istehsalı sistemləri təmin edilməklə dayanıqlı kənd təsərrüfatı təcrübələrinin tətbiqi |
| | Yerli iqtisadi potensialın gücləndirilməsi və təsərrüfat dövriyyəsinə cəlb olunması |
| | Ərazilərin davamlı və tarazlı sosial-iqtisadi inkişafına nail olunması |
| | Turizm sektorunun inkişafı |
| **SOSİAL İNKİŞAF** | **ƏTRAF MÜHİTİN TARAZLI İNKİŞAFI** |
| Dayanıqlı inkişafın təmin olunması və yaşayış üçün rahat şərait yaradılması | Ətraf mühitin mühafizəsinin təmin olunması |
| Əhalinin həyat səviyyəsinin yüksəldilməsi, o cümlədən həssas əhali qruplarının sosial müdafiəsinin gücləndirilməsi | Təbii ehtiyatlardan effektiv istifadə |
| Təhsil, səhiyyə və sosial xidmətlərin qabaqcıl standartlara uyğun təmin olunması | Bərpa olunan enerji mənbələrindən istifadənin genişləndirilməsi |
| Ölkədə mənzil fondunun həcminin artırılması | "Ağıllı şəhər", "Ağıllı kənd" və "Yaşıl enerji zonası" konsepsiyalarının tətbiqinin təşviqi |
| Əhalinin məşğulluq imkanlarının artırılması | |
| Sosial xidmətlərin əhatə dairəsinin genişləndirilməsi | |

## 5. Dövlət Proqramının məqsədləri

Dövlət Proqramının əsas məqsədləri "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər"də işğaldan azad edilmiş ərazilərə Böyük Qayıdışla bağlı təsbit olunmuş 2 məqsəd:

1. Əhalinin dayanıqlı məskunlaşması;
2. Ərazilərin iqtisadi fəaliyyətə reinteqrasiyası çərçivəsində müəyyən edilmişdir.

Bu məqsədlər aşağıdakılardır: I. Ərazilərdə təhlükəsiz yaşayışı və dövlət idarəetməsini təşkil etmək; II. Şəhər, qəsəbə və kənd yaşayış məntəqələrinin tikintisini və dayanıqlı infrastrukturla təminatını həyata keçirmək; III. Müasir standartlara uyğun xidmətlərin yaradılmasını təmin etmək; IV. Ərazilərdə məskunlaşacaq əhalinin sosial müdafiəsini gücləndirmək; V. Əhalinin məşğulluq imkanlarını artırmaq; VI. Sosial xidmətlərin əhatə dairəsini genişləndirmək və əlçatanlığı təmin etmək; VII. Dayanıqlı sosial-iqtisadi inkişafı təmin etmək; VIII. Sahibkarlıq mühitinin əlverişliliyini artırmaq və biznes fəaliyyətinin inkişafına dəstək vermək; IX. Ərazilərin kənd təsərrüfatı potensialından səmərəli istifadə olunması üçün müasir suvarma infrastrukturu formalaşdırmaq; X. Dayanıqlı və mütərəqqi kənd təsərrüfatı təcrübələrini tətbiq etmək; XI. Təbii ehtiyatları və sosial-iqtisadi potensialı təsərrüfat dövriyyəsinə cəlb etmək; XII. Turizm sektorunun perspektiv inkişaf imkanlarından effektiv istifadəyə nail olmaq; XIII. Ətraf mühitin etibarlı mühafizəsini və ekoloji təhlükəsizliyi təmin etmək; XIV. Təbii resurslardan səmərəli və effektiv istifadə etmək; XV. "Ağıllı şəhər", "Ağıllı kənd" və "Yaşıl enerji zonası" konsepsiyalarının tətbiqini təşviq etmək.

Bu məqsədlərə nail olmaq üçün Dövlət Proqramı çərçivəsində işğaldan azad edilmiş ərazilərə Böyük Qayıdışla bağlı təsbit olunmuş strateji istiqamətlər üzrə aşağıdakı vəzifələrin yerinə yetirilməsi nəzərdə tutulur:

**5.1. Əhalinin dayanıqlı məskunlaşmasının təmin edilməsi istiqamətində**

5.1.1. müəyyən edilmiş fəaliyyət planlarına uyğun olaraq, yaşayış məntəqələrində təhlükəsiz yaşayışın təmin edilməsi;

5.1.2. ərazilər üzrə dövlət sərhədinin etibarlı müdafiəsinin təmin olunması;

5.1.3. yüksək standartlara cavab verən yaşayış məntəqələrinin, o cümlədən "Ağıllı şəhər" və "Ağıllı kənd" konsepsiyaları əsasında yeni müasir şəhərlərin və kəndlərin salınması ilə əhalinin layiqli həyat şəraitinin təmin edilməsi;

5.1.4. işğaldan azad edilmiş ərazilərin etibarlı su, elektrik, qaz, istilik təminatının həyata keçirilməsi ilə bağlı zəruri layihələrin icrası;

5.1.5. bərpa olunan enerji mənbələrindən istifadəyə əsaslanan "yaşıl" texnologiyaların tətbiqi ilə "yaşıl enerji" zonasının yaradılması;

5.1.6. yüksək texnologiyaların tətbiqi ilə müasir rabitə, o cümlədən telekommunikasiya və poçt şəbəkələrinin qurulması;

5.1.7. qabaqcıl standartlara uyğun təhsil, səhiyyə və sosial xidmətlərin yaradılması istiqamətində tədbirlərin həyata keçirilməsi, onların əlçatanlığının təmin edilməsi;

5.1.8. işğaldan azad edilmiş ərazilərdə məşğulluq imkanlarının artırılması;

5.1.9. insan kapitalının inkişaf etdirilməsi;

5.1.10. ərazilərdə sosial dəstək mexanizmlərinin geniş tətbiqi.

**5.2. Ərazilərin iqtisadi fəaliyyətə reinteqrasiyası istiqamətində**

5.2.1. işğaldan azad edilmiş ərazilərdə hər bir rayonun ixtisaslaşma sahəsinə uyğun olaraq inkişafının təmin edilməsi;

5.2.2. iqtisadiyyatın şaxələndirilməsinin genişləndirilməsi və sənaye potensialının gücləndirilməsi;

5.2.3. kənd təsərrüfatının müxtəlif sektorlar üzrə inkişafının stimullaşdırılması;

5.2.4. ərazilərin iqtisadi inkişafının sürətləndirilməsi məqsədilə yüksəkixtisaslı mütəxəssislərin, daxili və xarici investorların cəlb edilməsi üçün həvəsləndirmə və güzəştlər nəzərdə tutulan sadələşdirilmiş iqtisadi modellərin tətbiqi, bank, sığorta və maliyyə xidmətlərinə çıxış imkanlarının genişləndirilməsi;

5.2.5. özəl investisiyaların cəlb edilməsi və dövlət–özəl sektor tərəfdaşlığının təmin edilməsi istiqamətində stimullaşdırıcı addımlar atılması;

5.2.6. müxtəlif turizm növlərinin inkişafının dəstəklənməsi;

5.2.7. bərpa işlərinin həyata keçirilməsi zamanı ətraf mühitin təhlükəsizliyinin təmin olunması.

## 6. Dövlət Proqramının prioritet istiqamətləri

### 6.1. Əsaslandırma

Ermənistanın Azərbaycana qarşı təcavüzünün nəticələrinin aradan qaldırılması, işğaldan azad olunmuş ərazilərin yenidən qurulması, bərpası, regiona əhalinin geri qayıdışının təmin edilməsi, əhalinin rifah səviyyəsinin yüksəldilməsi və son nəticədə bölgənin tarazlı və dayanıqlı inkişafına nail olunması məqsədilə əlverişli mühitin yaradılması Dövlət Proqramının ümumi qayəsini təşkil edir.

### 6.2. Görüləcək tədbirlər və gözlənilən nəticələr

Dövlət Proqramının məqsəd və vəzifələrinə uyğun əsas prioritet istiqamətlər aşağıdakılardan ibarətdir:

#### 6.2.1. Ərazilərdə təhlükəsiz yaşayışın və dövlət idarəetməsinin təşkili

İşğaldan azad edilmiş ərazilərin bərpası və yenidən qurulması istiqamətində əsas prioritetlərdən birini ilk növbədə ərazilərin minalardan və digər hərbi sursatdan təmizlənməsi və bu sahədə humanitar minatəmizləmə fəaliyyəti üçün mövcud potensialın mərhələli şəkildə artırılması təşkil edir.

Minatəmizləmə fəaliyyətinə dair təsdiq edilmiş illik tədbirlər planına uyğun olaraq, münaqişənin təsirinə məruz qalmış ərazilərin minalardan və partlamamış hərbi sursatdan təmizlənməsi, həmçinin onların daşınması və zərərsizləşdirilməsi, minaların və partlamamış hərbi sursatın təsirinə məruz qalmış ərazilərin nişanlanması, müvafiq xəritələrin tərtibi və elektron məlumat bazasına daxil edilməsi, eləcə də xəritələrin şəhər və rayon mərkəzlərində yerləşdirilməsi qeyd olunan istiqamətdə atılacaq zəruri addımlardır.

Bu prioritetin həyata keçirilməsi üzrə mühüm istiqamət işğaldan azad edilmiş ərazilərdə Azərbaycan Respublikasının dövlət sərhədinin mühafizəsi və müdafiəsinin, eləcə də polis nəzarətinin təşkili, habelə mümkün təhdidlərin qarşısının alınmasıdır.

Qeyd olunan məqsədlərə çatmaq üçün həyata keçiriləcək tədbirlərlə yanaşı, müvafiq sahələrdə dövlət idarəetməsinin təşkili və institusional inkişafı da təmin ediləcəkdir.

#### 6.2.2. Ərazilərdə şəhər, qəsəbə və kənd yaşayış məntəqələrinin tikintisi və infrastrukturla təmini

İşğaldan azad edilmiş ərazilərdə aparılan bütün yenidənqurma, bərpa və şəhərsalma işləri qabaqcıl urbanizasiya modellərinin tətbiqi ilə, əhalinin həyat səviyyəsinin yüksəldilməsinə xidmət edəcək şəhərsalma prinsipləri və normalarına uyğun həyata keçiriləcəkdir. Şəhərsalma tədbirləri çərçivəsində texnoloji, demoqrafik və ekoloji şərtlərin təsiri altında dünyada dəyişən qlobal şəhər planlaşdırma tendensiyaları nəzərə alınmalıdır. Bu tendensiyaların adaptiv tətbiqi yaşayış məntəqələrində iqtisadi məhsuldarlığın artımına, həyat səviyyəsinin yüksəldilməsinə və dayanıqlılığın möhkəmlənməsinə əlavə stimul verəcəkdir.

Dövlət Proqramı çərçivəsində, işğaldan azad edilmiş ərazilərdə insan kapitalının inkişafı sahəsində sosial xidmətlər şəbəkəsinin (səhiyyə, sosial müdafiə, mədəniyyət və idman, məktəblər və məktəbəqədər uşaq-tərbiyə müəssisələrinin qurulması və digər ictimai xidmətlərin təşkili) yaradılması və maddi-texniki bazasının gücləndirilməsi, bölgədə məskunlaşacaq əhalinin keyfiyyətli səhiyyə və təhsil xidmətləri ilə təmin edilməsi, mədəniyyət və idman obyektlərinin bərpası və yenidən qurulması, məşğulluq imkanlarının artırılması məqsədilə fəal özünüməşğulluq proqramlarının həyata keçirilməsi və reabilitasiya müəssisələrinin qurulması planlaşdırılır.

İşğaldan azad edilmiş ərazilərdə yerləşən tarixi abidələrin bərpası və qorunması işinin təşkili, abidələrin inventarlaşdırılması, pasportlaşdırılması, mühafizə zonalarının müəyyən edilməsi qarşıda duran əsas vəzifələrdəndir.

Məskunlaşacaq əhalinin məşğulluq imkanlarının genişləndirilməsi üçün məşğulluqyönümlü iqtisadi inkişaf siyasətinin davam etdirilməsi, əmək bazarının tənzimlənməsi sahəsində institusional strukturun təkmilləşdirilməsi və aktiv məşğulluq tədbirlərinin əhatə dairəsinin genişləndirilməsi əsas vəzifələr sırasındadır.

Dövlət Proqramının məqsədlərinə uyğun olaraq, ərazilərdə məskunlaşacaq əhali üçün layiqli həyat şəraitinin təmin edilməsi istiqamətində yaşayış məntəqələrində müxtəlif dövlət xidmətlərinə ("ASAN" xidmət və DOST mərkəzləri və s.) universal çıxış təmin ediləcəkdir.

#### 6.2.3. Əhalinin geri qayıdışı və ərazilərdə dayanıqlı icmaların yaradılması

İşğaldan azad edilmiş ərazilərin bərpasının, dayanıqlı inkişafının və məcburi köçkünlərin daimi yaşayış yerlərinə qayıdışının effektiv həyata keçirilməsi idarəetmə və təhlükəsizlik məsələlərinin həlli, yaşayış yerlərinin, zəruri infrastrukturun və sosial xidmətlərin təmin olunması və məşğulluq imkanlarının yaradılması kimi vacib prioritetlərə kompleks yanaşmanı tələb edir. İlk növbədə, məcburi köçkünlər arasında sorğular və bu sorğuların nəticələrinə əsasən müvafiq planlaşdırma həyata keçirilir. Əhalinin geri qayıdışı prosesi sosial-iqtisadi inkişaf dinamikası və demoqrafik meyillər nəzərə alınmaqla, sosial ədalətin qorunması prinsipinə uyğun aparılmalıdır.

Dövlət Proqramı çərçivəsində məcburi köçkünlərin qayıdışının səmərəli təşkili və hüquqi bazasının yaradılması məqsədilə müvafiq normativ hüquqi aktların qəbul edilməsi, həmçinin əhali arasında məlumatlılığın artırılması, maarifləndirmə tədbirlərinin genişləndirilməsi üçün təbliğat işlərinin şaxələndirilməsi həyata keçiriləcək tədbirlərə daxildir. Eyni zamanda, əhalinin geri qayıdışı ilə bağlı müvafiq məlumat bazasının yaradılması, statistik göstəricilərin təhlili və məlumatların əlçatanlılığının təmin olunması da prioritet işlərdəndir.

Məcburi köçkünlərin işğaldan azad edilmiş ərazilərdəki yaşayış məntəqələrinə qayıdışı çərçivəsində yaşayış məntəqələrinin çoxşaxəli inkişafına yönəlmiş dayanıqlı icmaların yaradılması və bu icmaların ölkənin iqtisadi strukturuna inteqrasiyası nəzərdə tutulur.

#### 6.2.4. Ərazilərin inkişafına və reinteqrasiyasına dəstək göstərən strateji əhəmiyyətli və əhatəli infrastrukturun qurulması

İşğaldan azad edilmiş ərazilərdə təhlükəsizlik məsələləri nəzərə alınmaqla, infrastruktur təminatının strateji hədəflərə uyğunlaşdırılması, nəqliyyat sisteminin fasiləsiz fəaliyyəti üçün yolların çəkilməsi, telekommunikasiya şəbəkələrinin qurulması, elektrik, su, istilik və qaz təchizatının təmin edilməsi Dövlət Proqramının əsas prioritet istiqamətlərindən biridir.

Ərazilərin ölkə və region iqtisadiyyatına reinteqrasiyası çərçivəsində müasir nəqliyyat-yol infrastrukturunun qurulması zamanı bölgənin tranzit potensialından effektiv istifadə, əhalinin ehtiyacları və bu infrastrukturun işğaldan azad edilmiş ərazilərin sosial-iqtisadi inkişafına mümkün təsirləri nəzərə alınacaqdır.

İşğaldan azad edilmiş ərazilərdə əhalinin yaşayış təminatı üçün zəruri şərtlərin yaradılması, müasir standartlara cavab verən nəqliyyat, elektrik, su, qaz, istilik və kanalizasiya təchizatı sisteminin formalaşdırılması, eyni zamanda müxtəlif iqtisadi fəaliyyət sahələrinin funksionallığının təmin olunması ilə bağlı zəruri şərait yaradılması məqsədilə ölkənin vahid informasiya-kommunikasiya məkanına hərtərəfli inteqrasiya üçün telekommunikasiya şəbəkələrinin qurulması qabaqcıl standartlar və təcrübəyə uyğun həyata keçiriləcəkdir. Bu sistemlərin qurulması zamanı ekoloji təmiz və iqtisadi sərfəli bərpa olunan enerji mənbələrindən istifadənin genişləndirilməsi nəzərdə tutulur.

#### 6.2.5. Dayanıqlı məskunlaşma üçün ərazilərin iqtisadiyyatının yerli və xarici dəyər zəncirinə inteqrasiyası

İşğaldan azad edilmiş ərazilərdə iqtisadiyyatın yenidən qurulması və inkişafı iqtisadi canlanmanın yaradılması, iqtisadi aktivliyin təşviqi üçün əlverişli biznes mühitinin formalaşdırılması, su və torpaq ehtiyatlarının səmərəli idarəedilməsi mexanizminin yaradılması və bölgədə regional ixtisaslaşmanın artırılması məqsədilə tədbirlərin icrasını əhatə edəcəkdir.

İşğaldan azad edilmiş ərazilərdə iqtisadi canlanmanın təmin edilməsi üçün əsas hədəf göstəricisi postmünaqişə dövründə ərazilərin iqtisadi cəhətdən özü-özünü təmin edən regiona çevrilməsidir. Ərazilərdə sahibkarlığın inkişafı, əlverişli biznes mühitinin yaradılması, habelə innovativ texnologiyaların tətbiqinin stimullaşdırılması üçün güzəştli kreditlərin verilməsi, təşviqat işlərinin aparılması və digər maliyyə dəstəyi tədbirlərinin həyata keçirilməsi nəzərdə tutulur. Həmçinin kiçik və orta sahibkarlığın rəqabətqabiliyyətliliyinin artırılması nəticəsində yeni istehsal, emal və xidmət sahələri üzrə müəssisələrin yaradılması və iş yerlərinin açılması həmin ərazilərin bərpasına və sosial-iqtisadi inkişafına töhfə verəcəkdir.

İşğaldan azad edilmiş ərazilərin potensialı və coğrafi şəraiti nəzərə alınaraq, Kəlbəcər rayonu hasilat və turizm sənayesi, Ağdam rayonu emal sənayesi, Şuşa rayonu mədəniyyət və turizm sənayesi, Cəbrayıl rayonu ticarət-logistika xidməti, Qubadlı, Zəngilan, Laçın, Füzuli və Xocavənd rayonları isə kənd təsərrüfatı və turizm sahəsi üzrə yeni iqtisadi mərkəzlər kimi qiymətləndirilə bilər.

Eyni zamanda, turizm potensialından yararlanmaqla regionun rəqabətqabiliyyətli turizm məkanına çevrilməsi üçün bölgədə bu sənayenin inkişafı istiqamətində tədbirlər həyata keçiriləcəkdir.

#### 6.2.6. Ərazilərdə ekoloji mühitin yaxşılaşdırılması və ekoloji təmiz texnologiyaların tətbiqi

Ərazilərdə meşə fondunun, flora və faunanın bərpası, enerji səmərəliliyi və ekoloji təmiz texnologiyaların tətbiqi, su ehtiyatlarından səmərəli istifadə, bərk məişət tullantılarının idarə edilməsi üçün müasir infrastrukturla təmini kimi məsələlər əsas prioritetlərdən birini təşkil edir.

"Yaşıl enerji" zonasının yaradılması çərçivəsində elektrik enerjisi dəyər zəncirinin hər bir həlqəsində "yaşıl texnologiya"lardan və "yaşıl enerji" potensialından texniki və kommersiya əlverişliliyi nəzərə alınmaqla istifadə ediləcəkdir. Ərazilərdə tikiləcək binaların və digər obyektlərin layihələndirilməsi zamanı ərazinin potensialından asılı olaraq müxtəlif bərpa olunan enerji mənbələri üzrə qurğuların quraşdırılması nəzərə alınacaqdır. Həmçinin, ekoloji təmiz nəqliyyat vasitələrindən istifadə üzrə zəruri infrastrukturun yaradılması təmin ediləcəkdir.

Ərazilərin iqtisadi-coğrafi potensialından səmərəli istifadə olunmaqla ətraf mühitin mühafizəsi və ekoloji tarazlığın qorunması məqsədilə müasir şəhərsalma prinsipləri əsasında bölgənin inkişaf etdirilməsi istiqamətində tədbirlər görüləcəkdir.

## 7. Gözlənilən risklər və onların neytrallaşdırılması tədbirləri

İşğaldan azad edilmiş ərazilərin yenidən qurulması, bərpası və dayanıqlı inkişafı istiqamətində Dövlət Proqramının qarşısında duran hədəflərə nail olunması mümkün risklərin öncədən müəyyənləşdirilməsi, Dövlət Proqramının icrası prosesində onların aradan qaldırılması üçün zəruri alətlər kompleksinin formalaşdırılmasını, müvafiq olaraq onların həyata keçirilmə xərclərinin azaldılmasını, nəticəyönümlü addımların vaxtında və operativ atılmasını zəruri edir.

### 7.1. Minalardan təmizləmə müddəti

İşğaldan azad edilmiş ərazilərin bərpası zamanı ərazilərin minalardan və partlamamış hərbi sursatdan təmizlənməsi prosesinin müddətinin proqnozlaşdırılan müddətdən çox davam etməsi Dövlət Proqramının əsas prioritetlərinin həyata keçirilməsi ilə bağlı çətinliklər yarada bilər. Bu sahədə digər dövlətlərin, beynəlxalq hökumət və qeyri-hökumət təşkilatlarının minalardan və partlamamış hərbi sursatdan və digər partlayıcı qalıqlardan təmizlənməsi üzrə qabaqcıl təcrübəsindən istifadə olunması və mümkün əməkdaşlıq imkanları nəzərdən keçiriləcəkdir.

### 7.2. İdarəetmədə çətinliklər

İrimiqyaslı strateji proqramların həyata keçirilməsinə xas olan risklərdən biri idarəetmədə qərarların qəbul edilməsi prosesinin ləngiməsidir. Ərazilərin yenidən qurulması və bərpası prosesinin sürətli xarakterini, postmünaqişə reabilitasiyası üzrə fəaliyyətin ümumi səmərəliliyinin əhəmiyyətini nəzərə alaraq, idarəetmə qərarlarının çevikliyi və operativliyinin təmin olunması və Dövlət Proqramının icrası zamanı effektiv, vaxtında və koordinasiyalı icra mexanizminin reallaşdırılması bu riskin aradan qaldırılmasını şərtləndirir.

### 7.3. Maliyyə və iqtisadi risklər

Dövlət Proqramının icrası prosesində yarana biləcək digər risklər tədbirlərin həyata keçirilməsi, xüsusilə müxtəlif sahələri əhatə edən layihələrin maliyyə tutumluluğunun dəqiqliyi, eləcə də müvafiq kəmiyyət və keyfiyyət göstəriciləri üzrə nəticələrin uyğunlaşdırılması ilə bağlıdır. Ərazilərin bərpası və dayanıqlı inkişafı çərçivəsində qarşıya qoyulmuş hədəflərə nail olunması və Dövlət Proqramının icrasının optimallaşdırılması məqsədilə 5 illik dövrü əhatə edən Tədbirlər Planı, əldə ediləcək nailiyyətlərin qiymətləndirilməsi üzrə nəticə indikatorlarının müəyyənləşdirilməsini, müvafiq tədbirlərin həyata keçirilməsinə nəzarətin daha effektiv təşkilini nəzərdə tutur.

## 8. Dövlət Proqramının maliyyələşmə mənbələri

Dövlət Proqramına dair tədbirlərin icrasının aşağıdakı mənbələr hesabına maliyyələşdirilməsi nəzərdə tutulur:

8.1. Azərbaycan Respublikasının dövlət büdcəsi;

8.2. Azərbaycan Respublikasının Dövlət Neft Fondu;

8.3. büdcədənkənar fondlar (Qarabağ Dirçəliş Fondu və digər fondlar);

8.4. Azərbaycan Biznesinin İnkişafı Fondu, Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi yanında Aqrar Kredit və İnkişaf Agentliyinin vəsaiti;

8.5. yerli və xarici investisiyalar;

8.6. dövlət – özəl sektor tərəfdaşlığı nəticəsində yaranan maliyyə vəsaiti;

8.7. beynəlxalq təşkilatların, donorların və fondların vəsaiti;

8.8. qanunvericiliklə nəzərdə tutulan digər mənbələr.

Dövlət Proqramında nəzərdə tutulmuş tədbirlərin maliyyələşdirilməsinə özəl investisiyaların cəlb olunması təşviq ediləcəkdir.

## 9. Hədəflərin monitorinqi və icrasının qiymətləndirilməsi

Dövlət Proqramının icrası qoyulan hədəflər nəzərə alınmaqla monitorinq olunacaqdır. Monitorinq məqsədilə tədbirlər üzrə ilkin, aralıq və yekun nəticələr müəyyən edilir. İlkin nəticələr Dövlət Proqramının icra olunduğu dövr ərzində hər ili, aralıq nəticələr illik əsasda olmaqla 2023-cü, 2024-cü və 2025-ci illəri, yekun nəticələr isə 2026-cı ili əhatə edir.

Sözügedən Dövlət Proqramı üzrə monitorinq və qiymətləndirmə Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 6 mart tarixli 1294 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Dövlət proqramlarının tərtibi, icrası, monitorinqi və qiymətləndirilməsi" Qaydasına əsasən həyata keçiriləcəkdir.

## 10. Dövlət Proqramına dair Tədbirlər Planı

Dövlət Proqramında müvafiq fəaliyyət istiqamətlərinə dair Tədbirlər Planı hazırlanmışdır.

Ardı 12-ci səh.

## Elm xadimləri

# Tibb elminin və səhiyyəmizin görkəmli nümayəndəsi

Azərbaycanda təbabət elminin çoxəsrlik tarixi, böyük ənənələri və parlaq simaları olmuşdur. Bununla belə, tibb istiqaməti sistemli və müstəqil elm sahəsi kimi XX əsrdə formalaşmışdır. Son yüzillik ərzində ölkəmizdə tibb elmi üzrə adlı-sanlı elm xadimləri meydana çıxmış, böyük elmi məktəb yaranmışdır. Milli Məclisin Səhiyyə Komitəsinin sədri, Əməkdar elm xadimi Əhliman Tapdıq oğlu Əmiraslanov Azərbaycan tibb elminin görkəmli nümayəndələrindən biri, bacarıqlı elm, ali təhsil, səhiyyə təşkilatçısıdır.



Məlum olduğu kimi, dünyada, o cümlədən Azərbaycanda tibb elminin çox mühüm istiqamətlərindən biri olan onkologiya elminin müstəqil elm sahəsi kimi inkişafı əsasən XX əsrlə əlaqədardır. Azərbaycan tibb elmində onkologiya sahəsinin ən görkəmli nümayəndələrindən biri akademik Əhliman Əmiraslanovdur. Akademik Əhliman Əmiraslanov ölkəmizdə onkologiya elminin formalaşması və inkişafında müstəsna xidmətləri olan qəbul edilmiş görkəmli elm xadimidir. O, vaxtilə onkologiya üzrə beynəlxalq miqyasda özünəməxsus nüfuz qazanmış Rusiya Onkoloji elmi məktəbinin çətin və məsuliyyətli dərslərini keçmiş, nəzəri və təcrübi cəhətdən bacarıqlı həkim və yüksəkixtisaslı elm xadimi olaraq tanınmışdır. Dünyaşöhrətli onkoloq alim olan akademik Nikolay Trapeznikovun elmi məktəbinin ən istedadlı yetirməsi və davamçılarından biri olan Əhliman Əmiraslanov onkologiya elminə öz imzasını vurmuş nüfuzlu elm xadimidir. Onkologiyanın terapiyasında xüsusi əhəmiyyətə malik olan insan bədənində oynaq-dayaq aparatının diaqnostikası, tədqiqi, müalicəsi və bərpa edilməsi məsələləri akademik Əhliman Əmiraslanovun onkologiya sahəsindəki mühüm xidmətlərindəndir. O, ilk növbədə akademik Nikolay Trapeznikovun elmi rəhbərliyi ilə onkologiyanın xüsusi tədqiqata ehtiyacı olan bu istiqamətində ciddi elmi araşdırmalar aparmış, mühüm nəticələrə gəlmişdir. Əhliman Əmiraslanov əldə etdiyi mühüm elmi nəticələri, irəli sürdüyü nəzəri müddəaları gənc və yenilikçi alim-həkim kimi müalicə proseslərində uğurla sınaqdan çıxararaq və bir daha təsdiq edərək möhkəmləndirmişdir. Buna görədir ki, Əhliman Əmiraslanovun tədqiqatları təcrübədə sınaqdan çıxmış və təbabətdə təsdiq olunmuş elmi müddəalar kimi onkologiya elminin mühüm nailiyyətləri sırasına daxil olmuşdur. Buna görədir ki, görkəmli elm xadiminin onkologiya sahəsindəki elmi təklifləri XX əsrin səksəninci illərindən etibarən Azərbaycanda və Rusiyada böyük uğurla tətbiq edilərək dəfələrlə sınaqdan çıxarılmışdır. Onun namizədlik və doktorluq dissertasiyaları onkologiyanın ən müasir və aktual məsələlərinə həsr edildiyi üçün ölkəmizdə və xaricdə böyük maraqla qarşılanmışdır. Beləliklə, hələ cavanlıq yaşlarında ikən Əhliman Əmiraslanov həm Azərbaycanda və Rusiyada, hətta vətənimizin sərhədlərindən kənarlarda da görkəmli onkoloq alim və yüksəkixtisaslı həkim kimi qəbul edilmiş, tanınıb şöhrət qazanmışdır. Onkologiya elmi sahəsindəki xidmətlərinə görə SSRİ Dövlət mükafatına layiq görülməsi bunun isbatıdır.

Dəfələrlə Avropa ölkələrində elmi ezamiyyətlərdə olmuş Əhliman Əmiraslanov bir çox Qərb ölkələrində keçirilmiş nüfuzlu beynəlxalq elmi konfranslarda onkologiyanın ən aktual məsələlərinə həsr olunmuş elmi məruzələrlə çıxış etmiş və Azərbaycan elminə başucalığı gətirmişdir. O, həmçinin xüsusi qabiliyyətlərə malik həkim-cərrah kimi xarici ölkələrin tanınmış klinikalarında cərrahiyyə əməliyyatları aparmağa da nail olmuşdur. Amerika Birləşmiş Ştatlarına dəvət olunaraq, buradakı universitetlərdə onkologiyanın aktual problemlərinə həsr edilmiş mühazirələr oxuması və həmin ali məktəblərin klinikalarında çətin cərrahiyyə əməliyyatlarında iştirakı onun həkim kimi həm təcrübəsinin, həm də şöhrətinin artmasına xidmət etmişdir. Beləliklə, Əhliman Əmiraslanov beynəlxalq aləmdə Azərbaycan elmini yüksək səviyyədə təmsil edən görkəmli elm xadim kimi qəbul olunur. Sonrakı illərdə və indi də Əhliman Əmiraslanov çoxcəhətli rəsmi və ictimai vəzifələri yerinə yetirməsinə baxmayaraq, həmişə intensiv şəkildə elmi fəaliyyətlə məşğul olmaqda, tibb elminə mühüm elmi töhfələr verməkdə davam etməkdədir. Əhliman Əmiraslanovun monoqrafik tədqiqatları və elmi məqalələri onkologiya sahəsində mühüm elmi mənbə kimi qəbul edilməklə bərabər, həm də praktik həkimlər üçün bələdçi funksiyasını da yerinə yetirir.

Çoxcəhətli fəaliyyətə malik olan Əhliman Əmiraslanovun həyatında Azərbaycan Tibb Universiteti ilə əlaqədar mərhələ mühüm əhəmiyyətə malikdir. Akademik Əhliman Əmiraslanov vaxtilə tələbəsi olduğu, fərqlənmə diplomu ilə bitirdiyi bu ali təhsil ocağında 20 ilə yaxın rektor kimi böyük uğurla fəaliyyət göstərmişdir. Rektorluğu dövründə o, Azərbaycan dövlətinin dəstəyi ilə tibb universitetinin maddi-texniki bazasını əsaslı şəkildə yeniləşdirməyi bacarmışdır. Xüsusən, məhz yaxından iştirakı ilə Tibb Universitetinin Cərrahiyyə və Müalicə üzrə iki ayrı-ayrı çoxmərtəbəli xəstəxana korpusunun tikilib istifadəyə verilməsi Əhliman Əmiraslanovun rektorluğu dövrünün mühüm nailiyyətlərindəndir. Ən müasir tibb avadanlıqları, müalicə-diaqnostika texnologiyaları və yüksəkixtisaslı mütəxəssislərlə təmin olunmuş Tibb Universitetinin çoxmərtəbəli Müalicə və Cərrahiyyə xəstəxanaları hazırda da respublikamızda ən mötəbər müalicə ocaqları və elmi mərkəzlər kimi tanınırlar.

Tibb Universitetinin beynəlxalq əlaqələrinin genişləndirilməsində də Əhliman Əmiraslanovun özünəməxsus mühüm xidmətləri olmuşdur. Məhz onun məqsədyönlü fəaliyyəti və hətta bir çox hallarda şəxsi əlaqələri vasitəsilə Tibb Universitetinin xarici əlaqələri böyük miqyasda genişləndirilmişdir. Bir tərəfdən Tibb Universitetində xaricdən dəvət olunmuş alimlərin elmi mühazirələri dinlənilmiş, digər tərəfdən isə Azərbaycan tibb alimləri tərəfdaş universitetlər vasitəsilə dünyaya tanıdılmışdır. Hazırda dünyanın bir çox xarici ölkələrinin mötəbər klinikalarında və elmi mərkəzlərində çalışan azərbaycanlı mütəxəssislər Tibb Universitetinin Əhliman Əmiraslanov dövrünün yetirmələridirlər.

Azərbaycan Milli Elmlər Akademiyası sistemində də akademik Əhliman Əmiraslanov səmərəli fəaliyyət göstərmişdir. O, AMEA-nın Biologiya və Tibb Elmləri Bölməsinə rəhbərlik etdiyi 15 ilə yaxın bir dövr ərzində bu mühüm elmi istiqamət üzrə fəaliyyət göstərən elmi-tədqiqat institutlarının fəaliyyətini bacarıqla əlaqələndirmiş, elmin bu sahəsində qabaqcıl elmi ideyaları dəstəkləmiş, Azərbaycan biologiya və tibb elminin dünya elminə inteqrasiya etməsi üçün səmərəli yollar axtarıb tapmış və tətbiq etmişdir. Əhliman Əmiraslanovun təşəbbüsləri nəticəsində akademiyanın Biologiya və Tibb Elmləri Bölməsində gen mühəndisliyi və dərman bitkiləri üzrə xüsusi proqramlar işlənib-hazırlanıb həyata keçirilmiş və müsbət nəticələr əldə olunmuşdur. Akademiya alimlərinin ölkəmizin bir çox bitki və meyvələrinin süni genomlaşmadan mühafizə edilməsi, bazara daxil olan məhsullarda süni gen dəyişmələrinə dair müəyyən məhdudiyyətlərin tətbiq edilməsi kimi məsələlər akademik Əhliman Əmiraslanovun səyləri ilə həyata keçirilmiş elmi-əməli tədbirlərdir. Eyni zamanda Əhliman Əmiraslanovun bölmə rəhbərliyi dövründə Azərbaycanın regionlarında zəngin təbii ehtiyatlara malik olan dərman bitkiləri əsasında yerli dərmanların hazırlanması metodikasının işlənilməsinə də diqqət artırılmışdır. Nəhayət, 2019-cu ildə Genetik Ehtiyatlar İnstitutunda Azərbaycan narının gen tərkibinin müəyyənləşdirilməsi Biologiya və Tibb Elmləri bölməsinin mühüm elmi nəticəsi kimi meydana çıxmışdır. Bundan başqa, Biologiya və Tibb Elmləri Bölməsinin xətti ilə gənc elmlər doktorları və fəlsəfə doktorlarının hazırlanmasına göstərilən diqqət və qayğı da öz müsbət nəticəsini vermişdir. Bütün bunların hamısı akademik Əhliman Əmiraslanovun həm də bacarıqlı elm təşkilatçısı olduğunu nümayiş etdirir. Eyni zamanda uzun illər ali təhsil sahəsində fəaliyyət göstərmiş akademik Əhliman Əmiraslanov Biologiya və Tibb Elmləri Bölməsində çalışarkən elmlə təhsilin inteqrasiyası sahəsində də əhəmiyyətli addımlar atılmışdır.

Akademik Əhliman Əmiraslanov Azərbaycan Respublikasının Milli Məclisindəki səmərəli fəaliyyəti ilə yaxşı tanınır. Bir neçə dəfə Milli Məclisə deputat seçilmiş Əhliman Əmiraslanov hazırda ali qanunvericilik orqanının Səhiyyə komitəsinin sədri kimi fəaliyyətini böyük uğurla davam etdirməkdədir. Əhliman Əmiraslanovun komitə sədri kimi təşəbbüsü ilə pandemiya dövründə bu bəşəri bəladan respublikamızın əhalisinin az risklərlə yaxa qurtara bilməsi üçün geniş maarifləndirici tədbirlər həyata keçirilmişdir. Bundan başqa, pandemiya dövrünün əsas icraedici tibb müəssisəsi kimi fəaliyyət göstərmiş TƏBİB-in rəhbərliyi ilə Milli Məclisin Səhiyyə komitəsində keçirilmiş görüşlər, aparılmış dinləmələr və müzakirələr, əldə olunmuş razılaşdırmalar cəmiyyətdə koronavirusun doğurduğu çaşqınlığın aradan qaldırılmasında və insanların pandemiya bəlasından xilas edilməsinin daha səmərəli yollarının müəyyən olunmasında mühüm rol oynamışdır. Millət vəkili Əhliman Əmiraslanovun Səhiyyə komitəsinin sədri olaraq ardıcıl surətdə respublikasıza gətirilən dərmanların və tibb avadanlıqlarının qiymətlərinin azaldılması, zəruri hallarda vergi güzəştlərinin edilməsi, rüsum dərəcələrinin aşağı salınması üzrə apardığı iş də müsbət nəticələrini vermişdir. Təbabət sahəsinə əməli kömək göstərməklə bərabər, Əhliman Əmiraslanov ölkəmizdə səhiyyə sahəsində zəruri qanunvericilik bazasının yaradılması, mövcud qanunların daha da təkmilləşdirilməsi, icra baxımından daha münasib işlək mexanizmlərinin hazırlanması işinə də böyük zəhmət sərf edir. Beləliklə, Milli Məclisin Səhiyyə komitəsi Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin ölkəmizdə səhiyyə və tibb elmi istiqamətlərində qarşıya qoyduğu vəzifələrin həllinə cavabdeh olan qurumlardan biri kimi əhatə etdiyi bütün əsas sahələr üzrə üzərinə düşən öhdəlikləri uğurla yerinə yetirməyə müvəffəq olur.

Akademik Əhliman Əmiraslanovun Türk Dövlətləri Parlament Assambleyasındakı çoxillik xidmətləri də qardaş ölkələrin parlamentləri və deputatları arasında səmərəli dostluq və əməkdaşlıq körpülərinin qurulması ilə nəticələnmişdir. Əhliman Əmiraslanovun Azərbaycan-Türkiyə Parlamentlərarası əlaqələr qrupunun rəhbəri olaraq da "Bir millət-iki dövlət" olan qardaş ölkələrimizin bütün sahələrdə, o cümlədən qanunvericilik sahəsində də vahid platformadan çıxış etməsinə öz töhfəsini verir. Milli Məclisin Səhiyyə komitəsinin sədri kimi Əhliman Əmiraslanov digər Türk dövlətlərinin və xüsusən Türkiyə parlamentinin deputatları, ictimai xadimləri və alimləri ilə səmimi və etibarlı dostluq münasibətləri yaratmağın da mükəmməl nümunəsini göstərir.

Azərbaycan Respublikasının ictimai-siyasi həyatında da akademik Əhliman Əmiraslanov geniş iş aparır. Onun Yeni Azərbaycan Partiyası Veteranlar Şurasının üzvü, Azərbaycan Respublikası Ağsaqqallar Şurası sədrinin müavini kimi cəmiyyətin müxtəlif sferalarında, xüsusən, elm və təhsil işçiləri və gənclər arasındakı sözü ölkəmizdə ictimai-siyasi sabitliyin qorunub saxlanılmasına və daha da möhkəmləndirilməsinə, cəmiyyətimizin bütün sahələrində inkişafa və tərəqqiyə uğurla xidmət edir.

Əməkdar elm xadimi, akademik Əhliman Əmiraslanovun xidmətləri dövlətimiz tərəfindən yüksək qiymətləndirilmişdir. Azərbaycan Respublikasının yüksək ordenləri ilə təltif olunmuş Əhliman Əmiraslanov eyni zamanda bir sıra beynəlxalq elmi təşkilatların və cəmiyyətlərin də medallarını, fəxri diplomlarını almışdır. Fikrimizcə, görkəmli alim və tanınmış ictimai xadim Əhliman Əmiraslanov üçün ən böyük mükafat isə böyük şərəflə və məsuliyyətlə müstəqil Azərbaycan dövlətinə və xalqımıza alnıaçıq şəkildə xidmət etməsindən ibarətdir.

Elm və təhsil yollarında, ictimai-siyasi həyatda mənalı və şərəfli yol keçmiş akademik Əhliman Əmiraslanova, tibb elminin və səhiyyə işinin görkəmli nümayəndəsinə bundan sonra da daha böyük əzmlə çalışmağı və möhkəm cansağlığı arzulayıram.

**İsa HƏBİBBƏYLİ,**
***AMEA-nın prezidenti,***
***Milli Məclisin deputatı,***
***akademik***

# Gəncədə "Yaşıl Şəhər" layihəsi müzakirə edilmişdir

Cari ilin iyul ayından başlayaraq Gəncədə Avropa Yenidənqurma və İnkişaf Bankı (AYİB) tərəfindən dəstəklənən "Yaşıl Şəhər" Fəaliyyət Planının (YŞFP) hazırlanması istiqamətində işlərə başlanılmışdır.



Artıq bununla bağlı fəaliyyət planının işlənib hazırlanmasına kömək etmək məqsədilə "ATKİNS Global" şirkətinin rəhbərlik etdiyi beynəlxalq və yerli ekspertlərdən ibarət məsləhətçi konsorsiumu da yaradılmışdır.

Bu günlər Gəncədə YŞFP-nin ilkin təqdimatı, eləcə də maraqlı tərəflərlə vizyon və strateji məqsədlərlə bağlı müzakirələrin aparılması məqsədilə görüş keçirilmişdir. Heydər Əliyev Mərkəzində keçirilən görüşdə ŞİH başçısının birinci müavini, şəhər üzrə layihənin koordinatoru Səməd Tomuyev, layihənin direktoru Vasiliki Kravva, layihə rəhbəri Katalina Qalleqo, layihənin ölkə üzrə rəhbəri Yaşar Kərimov, AYİB-nin layihə üzrə meneceri Real Hacıyev və ekspert qrupu iştirak etmişlər.

Səməd Tomuyev çıxış edərək bildirmişdir ki, Prezident İlham Əliyevin tapşırığı ilə 2020-ci ildə Azərbaycanda ilk olaraq məhz Gəncə Avropa Yenidənqurma və İnkişaf Bankının "Yaşıl Şəhər"lər proqramına daxil edilmişdir. Diqqətə çatdırılmışdır ki, AYİB-nin "Yaşıl Şəhər"lər proqramı çərçivəsində icra olunacaq layihələr Gəncə şəhərinə ən aktual ekoloji problemləri, iqlim dəyişikliyi risklərini müəyyən etməklə prioritetləşdirməyə kömək edəcək, şəhərin ekoloji mühitinin yaxşılaşdırılmasında mühüm rol oynayacaq.

Katalina Qalleqo isə çıxış edərək demişdir ki, YŞFP Gəncə şəhərinə ətraf mühit və davamlılıq problemlərinin sistemli şəkildə həllinə kömək etmək məqsədi daşıyır: "Layihə iqlim dəyişikliyi, nəqliyyat, enerji, tullantılar, su, torpaqdan istifadə və bu kimi ekoloji problemlərlə bağlı bir sıra sektorlara yönəldiləcək. Layihənin icrasının bir hissəsi olaraq, Gəncə şəhəri, AYİB və məsləhətçi qrupu maraqlı tərəflərdən rəy almaq üçün davamlı olaraq onlarla əlaqə saxlayacaq". Layihə rəhbəri onu da vurğulamışdır ki, şəhərin mövcud ekoloji vəziyyətini əks etdirən və ətraf mühitin abadlaşdırılmasına, vətəndaşların yaşayış şəraitinin yaxşılaşdırılmasına kömək edəcək bu layihənin icrası zamanı bir sıra prioritet məsələlər də öz həllini tapacaq.

Qeyd edək ki, Gəncə şəhərində "Yaşıl Şəhər" layihəsi ilkin mərhələdə üç istiqamətdə həyata keçiriləcəkdir. Bunlar bərk məişət tullantılarının idarə edilməsi, şəhərin küçə işıqlandırma sisteminin və ictimai nəqliyyatın yenilənməsi ilə bağlıdır. Gəncə ilə Avropa Yenidənqurma və İnkişaf Bankı arasında qurulan əməkdaşlıq çərçivəsində şəhər ərazisində aparılacaq təkmilləşdirmələrdən Azərbaycanın ikinci böyük şəhərində yaşayan 300 mindən çox əhali bəhrələnəcək.

***Sabir ƏLİYEV,***
***"Azərbaycan"***

# Qazi: "Biz hər şeyi gözə alaraq müharibəyə getmişdik"

"YAŞAT" Fondu tərəfindən tibb istiqaməti üzrə işlər davam etdirilir.

Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin İctimaiyyətlə əlaqələr şöbəsindən AZƏRTAC-a bildirilib ki, Vətən müharibəsi əlili Elvin Cəfərlinin müalicə xərcləri "YAŞAT" Fondu tərəfindən qarşılanıb, məişət şəraiti yaxşılaşdırılıb.



Vətən müharibəsi qazisi Elvin Cəfərlinin döyüş yolu 2020-ci il sentyabrın 29-da Füzuli rayonundan başlayıb. Burada verilən tapşırığın uğurlu icrasından sonra növbəti istiqamətlər Cəbrayıl rayonu və Xocavənd rayonunun Hadrut qəsəbəsi olub. O, Hadrut istiqamətində yaralanaraq mübarizəni yarımçıq dayandırıb.

Elvin Cəfərli o günləri belə xatırlayır: "Füzuli istiqamətində döyüş tapşırığını yüksək səviyyədə icra etdikdən sonra Cəbrayılın Daşkəsən kəndinə doğru irəliləmək əmri verildi. Həmin kənd Ordumuzun bölmələri tərəfindən düşməndən azad edilib toplanma məntəqəsi kimi istifadə olunurdu. Növbəti tapşırığa əsasən isə Hadrutda dağlıq əraziyə yerləşib atəş mövqeyi tutmalı idik. Mövqeyə doğru hərəkət edən zaman KamAZ-ı tank əleyhinə mərmi ilə vurdular. Mərmi dəyən zaman bircə partlayış səsini eşitdim. Bundan sonra çox qarışıqlıq yarandı. Barıt qoxusu, tüstü... Göz-gözü görmürdü, nəfəs almaq isə mümkün deyildi. Həmin vaxt şəhidimiz olmasa da, altı nəfər yaralandı ki, onlardan biri və ən ağır yaralananı mən idim. Sağ ayağımın topuq, oynaq hissəsindən ağır xəsarət almışdım. Məni Yevlax rayon Mərkəzi Xəstəxanasına təxliyə edib ilkin tibbi yardım göstərdilər. On iki gün həmin xəstəxanada qaldıqdan sonra Bakıya Silahlı Qüvvələrin Baş Klinik Hospitalına göndərildim. Bir müddət müalicəm orada davam etdi. Həmin hospitalda dörd əməliyyat keçirdim. Lakin ayağımın vəziyyətinə baxış zamanı əlavə əməliyyata ehtiyac duyuldu. Bunun üçün "YAŞAT" Fonduna müraciət etdim. Müraciətim müsbət qarşılandı və fond əməliyyat olunmağıma dəstək göstərdi. Hələ də yeriməkdə çətinlik çəkirəm, lakin nə vaxtsa sağlamlığıma qovuşacağıma ümidimi itirməmişəm. Biz hər şeyi gözə alaraq müharibəyə getmişdik. Əsas odur ki, qələbə qazanaraq ərazi bütövlüyümüzü bərpa etdik. Hər zaman Vətənimizin keşiyini çəkməyə hazırıq".

Qazi bildirib ki, "YAŞAT" Fondu dərman və əməliyyat xərclərindən əlavə, onun məişət şəraitinin yaxşılaşdırılmasına da kömək edib: "Göstərilən dəstəyə görə, fonda minnətdarlığımı bildirirəm. Fonda ianə edən vətəndaşlara isə bizi unutmadıqlarına, yardımsevərliklərinə və əziyyətimizi dəyərləndirdiklərinə görə təşəkkür edirəm".

Xatırladaq ki, fond tərəfindən görülən işlərlə bağlı ətraflı məlumatı yashat.gov.az rəsmi internet saytının "Hesabatlar" (https://yashat.gov.az/report/tableau) bölməsindən əldə etmək mümkündür.

# Xarici bloqçular: "Azərbaycanın azad olunmuş ərazilərində erməni işğalı dövründə kütləvi dağıntılar törədilib"













Azərbaycanın işğaldan azad olunmuş ərazilərinə səfər etmiş bir qrup bloqçu yerli mediada və sosial şəbəkə hesablarında təəssüratlarını bölüşüblər.

AZƏRTAC xəbər verir ki, xarici bloqçular Azərbaycanın işğaldan azad olunmuş ərazilərinə, o cümlədən Şuşa, Füzuli, Zəngilan və digər rayonlara səfər edərək burada erməni işğalı altında olan dövrdə həmin ərazilərdə törədilmiş kütləvi dağıntılar, o cümlədən minalanmış ərazilər, məscidlərin dağıdılması və hazırda aparılan genişmiqyaslı bərpa və quruculuq işləri ilə yaxından tanış olublar.

"Qarabağ müharibəsi nəticəsində Azərbaycan ərazisində kütləvi dağıntılar törədilib, şəhərlər bütövlüklə yer üzündən silinib. İran sərhədinə 10 kilometr qalmış ərazidə dağıdılmış məscidlərdən birini gördük", - deyə Deyv Qordon adlı bloqçu özünün feysbuk səhifəsində bildirib.

"Qarabağ ərazisi 30 ilə yaxın davam edən işğaldan sonra Azərbaycan tərəfindən azad olunub. Ərazidə zərərsizləşdirilməli milyonlarla minanın mövcud olmasına baxmayaraq, gələcəyin yenidən qurulması prosesi artıq başlayıb. Bir il ərzində artıq 50 ailə üçün nəzərdə tutulmuş "ağıllı ev"lər və Füzuli rayonunda hava limanı istifadəyə verilib," - deyə bloqçu vurğulayıb.

Digər bloqçu Şay De Luka isə özünün tviter hesabında yazıb: "Şərqin Qərblə qovuşduğu məkana - Azərbaycanın paytaxtı Bakıya xoş gəlmisiniz. Antisemitizmin son onilliklər ərzində görmədiyimiz səviyyələrə qalxdığı bir dövrdə əksəriyyəti müsəlman olan bu ölkədə yəhudilər çox tolerant mühitdə yaşayırlar.

Biz Azərbaycanın işğaldan azad olunmuş ərazilərinə səfər etmişik. Burada kilometrlərlə məsafədə uzanan mina sahələrindən ziyarətçilərin təhlükəsizliyini təmin etmək üçün yaradılmış keçid məntəqəsindən keçməli olduq. Biz israillilər müharibənin reallığını çox yaxşı bilirik".

"Hazırda Azərbaycanın Qarabağ bölgəsində səfərdəyik. Burada hər yerdə mina sahələri var. Bütün kəndlər darmadağın edilib. Uzaqdan minanın zərərsizləşdirilməsi prosesini izlədik. Biz düz İranla sərhəddəyik. Burada gördüyünüz dağlar və onların ətəyində yerləşən binalar İranın ərazisidir," - deyə israilli bloqçu Adam Zivo tviter səhifəsində bildirib.




# "Azərişıq" ASC Şəki rayonunun daha iki kəndinin elektrik şəbəkəsini yenidən qurub

Prezident İlham Əliyevin tapşırıqlarına əsasən, "Azərişıq" ASC tərəfindən həyata keçirilən investisiya layihəsi çərçivəsində Şəkinin Balyanı və Kiş kəndlərinin elektrik şəbəkəsi yenidən qurulub.

Yenidənqurma işləri çərçivəsində 70 abonenti olan Balyanı kəndində 2 komplekt transformator məntəqəsi quraşdırılıb, 8 kilometrə yaxın 10 kV-luq, 4 kilometrdən çox 0,4 kV-luq elektrik xətti yenilənib.

Elektrik şəbəkəsi yenidən qurulan digər kənd isə Şəkinin qədim Kiş kəndidir. 1477 abonenti olan Kişdə yenidənqurmadan sonra 13 komplekt transformator məntəqəsi quraşdırılıb. 14 kilometrə yaxın 10 kV-luq, 37 kilometrdən çox 0,4 kV-luq elektrik xətti yenilənib.

Hər iki kənddə abonentlərin sayğacları dəyişdirilib.

Xatırladaq ki, investisiya layihəsi bütün regionlarda 100-dən çox kəndi əhatə edir.

*"Azərbaycan"*

# Fransada iqtidara qarşı xalq etirazı geniş vüsət alır





Son aylarda Fransa hökuməti inflyasiyanın qarşısını ala bilmir. Milli Statistika və İqtisadi Tədqiqatlar İnstitutunun (Insee) ekspertlərinin hesablamalarına görə, ərzaq məhsulları 10 faizə qədər bahalaşıb. Enerji təchizatının dəyəri də nəzərəçarpacaq dərəcədə, yəni 17,8 faiz artıb.

Fransa Bankının (Mərkəzi Bank) prezidenti Fransua Vilerua de Qalo ölkədə inflyasiya səviyyəsinin ilin sonuna qədər yüksək səviyyədə qalacağı ilə bağlı xəbərdarlıq edib. Təbii ki, bütün bu amillər xalqda ciddi narahatlıq, təşviş və etiraz doğurur.

Ötən həftə Fransada yenidən nəqliyyat işçilərinin ümummilli tətili keçirilib, ölkənin demək olar ki, bütün iri şəhərlərində ictimai nəqliyyatın işində fasilələr yaranıb. Parisdə onlarca metro və şəhərətrafı qatar stansiyaları bağlanıb. Həmkarlar ittifaqları və etirazçılar yaşayış dəyərinin bahalaşmasına uyğun olaraq maaşların artırılmasını tələb edirlər.

## Səriştəsiz daxili və xarici siyasət

Fransanı bürüyən sosial etiraz sentyabrın 27-də Total Energies və Esso-Exxon Mobil transmilli energetika qruplarının müəssisələrindən başlayıb. Bu şirkətlərin işçiləri inflyasiyanın sürətlə artması fonunda maaşların ən azı 10 faiz artırılmasını tələb ediblər.

Sonradan tətillərə nəqliyyatçılar, təhsil, səhiyyə və kommunal sektorun əməkdaşları da qoşulublar. Avtomobil nəqliyyatı işçilərinin tətili Fransanın ən böyük həmkarlar ittifaqı olan Ümumi Əmək Konfederasiyasının (CGT) çağırışı ilə keçirilib. Həmkarlar ittifaqı mərkəzləri yüksək inflyasiya fonunda sənayedə çalışan işçilərin maaşlarının artırılması tələbilə çıxış ediblər.

Neft emalı zavodlarında tətilin sona çatması ilə bağlı qısamüddətli sakitlikdən sonra yanacaqdoldurma məntəqələrində həyəcan dalğası yenidən Fransanı bürüyüb. Məsələ burasındadır ki, avtomobil yanacağına dövlət endirimi müddətinin başa çatması ərəfəsində fransızlar maşınlarının çənlərini doldurmağa tələsiblər. Belə ki, bir çoxları üçün doldurulmuş yanacaq çəninin qiymətindəki 10 avroluq fərq əhəmiyyətli məbləğdir. Bəzi yanacaqdoldurma məntəqələri isə açıldıqdan cəmi bir neçə saat sonra benzinin tükənməsi səbəbindən bağlanmağa məcbur olub.

Çoxsaylı həmkarlar ittifaqları baş verən hadisələrin etirazın yalnız başlanğıcı olduğunu və xüsusən də işçilərin tələbləri eşidilməzsə, ictimai hərəkatın yaxın həftələrdə və aylarda genişlənəcəyini bildiriblər.

Paris və Fransanın digər şəhərlərində küçələrə çıxan işçilər maaşların artırılması, iş şəraitinin yaxşılaşdırılması və hər şeydən əvvəl pensiya islahatları ilə bağlı prezident Emmanuel Makronun administrasiyasına təzyiqlərin artırılmasını tələb ediblər.

Ölkədə digər peşə sahiblərinin də iştirakı ilə növbəti tətillər üçün artıq çoxsaylı çağırışlar var. Fransız xalqı daxili və xarici siyasətdə səriştəsizliyini sübut etmiş iqtidara qarşı etirazını genişləndirir.

## Enerji böhranının sonu görünmür

Avropanın ən böyük atom-elektrik stansiyaları donanmasına sahib olan ölkənin enerji sektorunda 2022-ci ildə böyük dəyişikliklər olub.

Fransanın əksər atom-elektrik stansiyalarının köhnəlməsi reaktorların demək olar ki, yarısının cari ildə texniki xidmət üçün bağlanması ilə nəticələnib və bu, elektrik istehsalını ciddi şəkildə azaldıb. Fransada hazırda 56 reaktordan 26-sı işləmir və ölkə ixrac etdiyindən çox enerji idxal edir.

Fransa prezidenti Emmanuel Makron karbon neytrallığına gedən yolda nüvə enerjisini "yenidən işə salmaqla" Fransanın köhnəlmiş atom-elektrik stansiyaları problemini həll etməyi planlaşdırır.

Bu il milliləşdirilən enerji şirkəti EDF altı yeni tip reaktor qurmaq niyyətindədir. Onlardan birincisi 2035-ci ildə hazır olmalıdır. Lakin yerli mütəxəssislər hesab edirlər ki, 50 milyard avronu daha təmiz enerji mənbələrinə xərcləmək daha məqsədəuyğundur: "Onların vəd etdikləri kimi, 2035-ci və ya 2037-ci illərdə heç bir şey hazır olmayacaq. Bundan əlavə, bu, bizə böyük sərvət bahasına başa gələcək. EDF iflas edib. Buna görə xərcləri dövlət, yəni biz ödəməliyik. Bu pullara biz günəş və külək enerjisi kimi bərpaolunan enerji mənbələri planında, daha ekoloji nəqliyyat baxımından xeyli çox iş görə bilərdik".

Hazırda çoxlu sayda reaktorun təmirdə olmasını və yenilərinin qurulmasının illərlə davam edəcəyini nəzərə alsaq, Fransa energetika sahəsində muxtariyyətinin geri qayıtmasını hələ uzun müddət gözləyə bilər.

*Rizvan CƏFƏROV,*
*"Azərbaycan"*

# Azərbaycan Ordusunda nümunəvi tabor taktiki təlimi olub



Bu ilin döyüş hazırlığı planına əsasən Azərbaycan Ordusunda nümunəvi tabor taktiki təlimi keçirilib.

Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, real döyüş şəraitinə uyğunlaşdırılmış təlimin planına uyğun olaraq əldə edilən kəşfiyyat məlumatına əsasən şərti düşmənin diversiya qrupunun təxribat törədəcəyi ehtimal olunan ərazi müəyyənləşdirilib.

Mümkün təxribatın qarşısını almaq məqsədilə daimi dislokasiya məntəqəsini tərk edən tabor cəmləşmə rayonu istiqamətində hərəkət edib və şərti düşməni zərərsizləşdirərək ilkin tapşırığı müvəffəqiyyətlə yerinə yetirib.

Növbəti mərhələdə müşahidə postları qurulub və bölmələr tərəfindən yaşayış məntəqələrində axtarış əməliyyatları icra olunub.

Təlimin keçirilməsində əsas məqsəd taborun döyüşə hazırolma vəziyyətinə gətirilməsi zamanı qərargah fəaliyyəti ilə bölmələr arasında qarşılıqlı əlaqəni təkmilləşdirmək, eləcə də komandirlərin döyüşü idarəetmə qabiliyyətini və çevik qərar qəbuletmə bacarıqlarını artırmaqdır.

Yüksək peşəkarlıqla görülən fəaliyyətlər nəticəsində təlimdə qarşıya qoyulmuş bütün məqsədlərə nail olunub.

# Hərbi hissələrin komanda-qərargah təlimləri keçirilir



Bu ilin döyüş hazırlığı planına uyğun olaraq hərbi hissələrin qərargah zabitlərinin iştirakı ilə kompüter dəstəkli komanda-qərargah təlimləri keçirilir.

Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, komanda-qərargah təlimlərinin keçirilməsində əsas məqsəd komandirlərin və qərargah zabitlərinin döyüş əməliyyatları planlarının hazırlanması və birgə tapşırıqları icra etmək vərdişlərinin inkişaf etdirilməsi ilə yanaşı, onların çevik qərar qəbuletmə bacarıqlarını, eləcə də döyüşü idarəetmə qabiliyyətini artırmaqdan ibarətdir.



Təlimlərdə bölmələrin qarşılıqlı fəaliyyəti və qərargahların vahid idarəetmə orqanı kimi uzlaşması yoxlanılır, qəbul olunmuş qərarlara dair tapşırıqlar kompüter üzərində icra edilərək qiymətləndirilir.

Vətən müharibəsi, "Qisas" əməliyyatı, eləcə də Azərbaycan Ordusunun həyata keçirdiyi digər uğurlu əməliyyatlar zamanı qazanılan təcrübədən təlimlərdə geniş istifadə olunur.

Azercell abunəçilərinin nəzərinə!

"Azercell Telekom" MMC tərəfindən göstərilən xidmətlərin keyfiyyətinin daha da artırılması məqsədilə aparılacaq təkmilləşdirmə işləri ilə əlaqədar 17.11.2022-ci il saat 23:30-dan etibarən 18.11.2022-ci il tarixi gecə saatları ərzində bəzi xidmətlərin istifadəsində müvəqqəti çətinliklərin yaranması mümkündür.

"Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyəti
balansında olan "Koroğlu" gəmisinin MAN D2840LE301 köməkçi mühərrikinin ehtiyat hissələrinin satın alınması məqsədi ilə
*müsabiqə elan edir*

Müsabiqədə iştirak etmək istəyən şəxslər **www.asco.az** səhifəsinə daxil olmaqla elanlar bölməsindən əlavə sənədləri və ətraflı məlumatı əldə edə bilərlər. Müraciət üçün son müddət 28 noyabr 2022-ci il saat 17:00-dəkdir.

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildəki tender təklifləri Azərbaycan dilinə tərcümə edilməlidir).

Göstərilən vaxtdan gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır.

**Ünvan: Bakı şəhəri, Mikayıl Useynov küç. 2**
**Əlaqə telefonu: (012) 404-37-00, daxili: 1071**

***Tender komissiyası***

## ALLAH RƏHMƏT ELƏSİN!

Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının sədri Məzahir Pənahov, komissiyanın üzvləri və katibliyin rəhbərliyi AMEA-nın Geologiya və Geofizika İnstitutunun baş direktoru akademik Akif Əlizadəyə bacısı

**ZEYNƏB BABAYEVANIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

"AzerGold" QSC-nin rəhbərliyi və kollektivi AMEA-nın Geologiya və Geofizika İnstitutunun baş direktoru Akif Əlizadəyə bacısı

**ZEYNƏB BABAYEVANIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Milli Məclisin deputatı Ağalar Vəliyev Bəhruz Mahmudova anası

**MƏHBUBƏ XANIMIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

İsaxan Vəliyev ailəsi ilə birlikdə Bəhruz Mahmudova əzizi

**MƏHBUBƏ XANIMIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin hakimi Kamran Şəfiyev Milli Məclis Aparatı rəhbərinin müavini Rüstəm Mahmudova əzizi

**MƏHBUBƏ XANIMIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Ünvan

AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, IV mərtəbə
e-mail:
secretary@azerbaijan-news.az
az.reklam@mail.ru
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

Telefonlar

Qəbul otağı - 539-68-71,
Baş redaktor müavinləri - 538-86-86, 434-63-30, 539-72-39,
Məsul katib - 539-43-23,
Məsul katib müavinləri - 539-44-91,
Parlament və siyasət şöbəsi - 539-84-41, 539-21-00,
İqtisadiyyat şöbəsi - 538-42-32, 538-35-55,
Beynəlxalq həyat, idman və informasiya şöbəsi - 539-63-82, 432-37-68
Humanitar siyasət şöbəsi - 538-56-60
İctimai əlaqələr şöbəsi - 539-49-20, 538-31-11,
Fotoillüstrasiya şöbəsi - 538-84-73,
Kompüter mərkəzi - 538-20-87,
Mühasibatlıq - 539-59-33

Qeydiyyat nömrəsi 1

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-də çap edilmişdir

Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Gündəlik qəzet

Tiraj 6507
Sifariş 3241
Qiyməti 40 qəpik